www.musavat.com
# YENİ MÜSAVAT
Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 1 mart 2017-ci il Çərşənbə № 46 (6660) Qiymətı 60 qəpik

**Xəbər**

Ailə, Qadın və Uşaq Problemləri üzrə Komitənin əməkdaşı uşaq oğurluğunda ittiham olundu

yazısı səh.7-də

**Gündəm**

### "Yenə o bağ olaydı..."-Mikayıl Müşfiqin sökülən heykəli qalmaqala çevrildi



Prezident İlham Əliyev məsələnin hərtərəfli araşdırılması və günahkarların cəzalandırılması ilə bağlı aidiyyəti orqanlara tapşırıq verib

yazısı səh.4-də

### Nyu Yorkda doğma "Azərbaycan" restoranı -əməkdaşımız ABŞ-dan yazır
yazısı səh.13-də

### Avtobuslardan "sallanan" ölüm-günümüzün problemi
yazısı səh.14-də

### Dövlətin məcburi köçkünlərə jesti: mənzillər yeni qaydalarla veriləcək
yazısı səh.15-də

### Milli mətbuatın arxiv fondu yaradılır
yazısı səh.12-də

### Həbsdə olan daha bir MTN generalının vəziyyəti ağırlaşdı
yazısı səh.7-də

### 25 fevralın 5 şəhidinin həyat hekayələri
yazısı səh.6-da

### Manatın kursunun sabitliyi sosial-siyasi sabitliyə bərabərdirmi?
yazısı səh.6-da

### "Lotu Quli"nin yeznəsinin məhkəməsi başladı
yazısı səh.2-də

### "77 nəfərə abidə qoyulacaq" yazılmış daş lövhə yoxa çıxıb
yazısı səh.15-də

### Nazir vergi ödəyicilərinin hamısına "bir gözlə baxılmayacağını" dedi
yazısı səh.5-də

## Böyük sülhə aparan yolu necə açmalı? - Gündəmin sualı

# MÜHARİBƏ ARTIQ BAŞLAYIB - QARABAĞLA BAĞLI SOS XƏBƏRDARLIQLARI

Ekspertlərə görə, vəziyyət ötən ilin aprel öncəsinin eynidir; Beynəlxalq Böhran Qrupu isə güclü diplomatik səylər olmazsa, döyüşlərin qızışacağı barədə xəbərdarlıq edir; müharibəni tətikləmək kimin marağındadır?..



yazısı səh.9-da

## İqtidarın kadr islahatlarında müxalifət də yer ala bilər-şok iddialar

Müxalifətdən açıqlamalar; idarəçilikdə ənənəvi siyasətdən imtina etmək mümkünmü?

yazısı səh.8-də



### Şeyxin missiyası - QMİ sədri yeni problemlə üz-üzə
yazısı səh.12-də



### Məsud Bərzaninin kürd bayrağı qalmaqalı-təfsilat
yazısı səh.10-da



### Apelyasiya Məhkəməsi də Əli İnsanovu həbsdə saxladı
yazısı səh.3-də



# Prezident İlham Əliyev Nəvaz Şəriflə görüşdü

**Azərbaycan prezidenti İlham Əliyev İqtisadi Əməkdaşlıq Təşkilatının 13-cü Sammitində iştirak etmək üçün fevralın 28-də Pakistan İslam Respublikasına səfər edib.**

Virtualaz.org-un məlumatına görə, İslamabad şəhərinin Bənazir Bhutto beynəlxalq aeroportunda prezident İlham Əliyevin şərəfinə fəxri qarovul dəstəsi düzülüb.

Dövlət başçısını Pakistanın yüksək səviyyəli rəsmi şəxsləri qarşılayıblar.

Sonra toplardan yaylım atəşi açılıb, Azərbaycanın və Pakistanın dövlət himnləri səslənib.

Elə həmin gün prezidenti İlham Əliyev bu ölkənin baş naziri Nəvaz Şəriflə görüşüb.

Virtualaz.org Pakistan KİV-lərinə istinadən xəbər verir ki, görüşdə iki ölkə arasında müxtəlif sferalarda əməkdaşlıq məsələlərinə dair danışıqlar aparılıb.

# Əfv Komissiyasının növbəti iclası keçirilib



**Fevralın 28-də Azərbaycan Respublikasının Prezidenti yanında Əfv Məsələləri Komissiyasının növbəti iclası keçirilib. Komissiyanın üzvü Mehdi Mehdiyev APA-ya deyib ki, iclasda 107 müraciətə baxılıb. Onun sözlərinə görə, indiyədək keçirilən 3 iclasda ümumilikdə 357 müraciət müzakirə olunub və onların əksəriyyətinə müsbət rəy verilib.**

Qeyd edək ki, Novruz Bayramı ərəfəsində əfv sərəncamının imzalanacağı gözlənilir. Həmin vaxta qədər daha bir neçə iclasın keçiriləcəyi, iclaslarda 800-dən çox müraciətə baxılacağı bildirilir.

# Nazarbayevin nəvəsi vitse-prezident oldu



**Qazaxıstan prezidenti Nursultan Nazarbayevin nəvəsi Aysultan Nazarbayev ölkə Futbol Federasiyasının vitse-prezidenti seçilib. Bu barədə qərar qurumun iclasında qəbul olunub.**

Azvision.az-ın məlumatına görə, Aysultan Nazarbayev vitse-prezident kimi FİFA, UEFA və milli assosiasiyaya üzv qurumlarla əlaqələndirmə işlərinə rəhbərlik edəcək.

Xatırladaq ki, daha əvvəl Aysultan Nazarbayev Qazaxıstan Futbol Federasiyasının işini və onun keçmiş rəhbəri Yerlan Kojaqapanovu dəfələrlə tənqid edib.

# 70 min abituriyent qəbul imtahanında ödənişsiz iştirak edəcək



**"Azərbaycan Respublikasında ali və orta ixtisas təhsili müəssisələrinə tələbə qəbulu imtahanlarının təşkilinin tənzimlənməsi ilə bağlı əlavə tədbirlər" haqqında Azərbaycan prezidenti İlham Əliyevin imzaladığı sərəncam təxminən 70 min gənci əhatə edəcək".**

APA-nın xəbərinə görə, bunu Dövlət İmtahan Mərkəzinin (DİM) Direktorlar Şurasının sədri Məleykə Abbaszadə keçirdiyi mətbuat konfransında deyib.

O qeyd edib ki, kolleclərə, ya da ali məktəblərə qəbul imtahanında iştirak üçün lazım olan məbləğ dövlət tərəfindən ödəniləcək: "Mən 70 min rəqəmini 2016-cı ilin rəqəmlərinə əsasən səsləndirirəm. Bu rəqəm azala da, çoxala da bilər".

# "Lotu Quli"nin yeznəsinin həbs müddəti uzadıldı

## Cinayət işinə yeni hakim baxacaq



**"Lotu Quli" ləqəbli kriminal avtoritet Nadir Səlifovun yeznəsi Vidadi Hüseynov növbəti dəfə Bakıda hakim qarşısına çıxarılıb. Musavat.com xəbər verir ki, V.Hüseynov narkotik vasitələrin qanunsuz dövriyyəsində təqsirləndirilərək həbs edilib.**

Bakı Ağır Cinayətlər Məhkəməsində cinayət işinin hazırlıq iclası hakim Ramella Allahverdiyevanın sədrliyi ilə baş tutub. Məhkəmədə V.Hüseynovun anket məlumatları dəqiqləşdirilib. Hakim R.Allahverdiyeva bildirib ki, V.Hüseynovun barəsində seçilmiş həbs qətimkan tədbirinin müddəti bu gün başa çatdığından bu məsələ müzakirə edilməlidir. Prokuror çıxışında həbs-qətimkan tədbirinin uzadılmasını istəyib. V.Hüseynovun vəkili Kamandar Nəsibov hüquqlarını müdafiə etdiyi şəxs barəsində həbs-qətimkan tədbirinin uzadılmamasını istəyib. Məhkəmə V.Hüseynov barəsində həbs qətimkam tədbirini qeyri-müəyyən vaxtadək uzadıb. Növbəti məhkəmə prosesi martın 7-nə təyin edilib.

Xatırladaq ki, bu iş hakim Əfqan Hacıyevin icraatına verilmişdi. Sonuncu prosesdə prokuror Fərid Nağıyev etiraz verərək hakim Əfqan Hacıyevin işdən uzaqlaşdırılmasını istəmişdi. Prokuror vəsatətini əsaslandırarkən bildirib ki, hakim Əfqan Hacıyev 2005-ci ildə vəkillik fəaliyyəti ilə məşğul olarkən Vidadi Hüseynovun qohumu Nadir Səlifovun müdafiəçisi olub. Etiraz təmin olunmuşdu.

İttiham aktına əsasən, V.Hüseynov 2016-cı ilin aprel ayının 30-da saxlanılıb. Onun üzərindən 12,360 qram heroin aşkar edilərək götürülüb. V.Hüseynovun barəsində Cinayət Məcəlləsinin 234.1-ci (satış məqsədi olmadan qanunsuz olaraq narkotik vasitələri və ya psixotrop maddələri şəxsi istehlak miqdarından artıq miqdarda əldə etmə və ya saxlama) maddəsi ilə cinayət işi başlanılıb. Daha sonra V.Hüseynov barəsində CM-nin 234.4.3-cü (qanunsuz olaraq narkotik vasitələri, əldə etmə, saxlama, daşıma, göndərmə və ya satma, külli miqdarda törədildikdə) maddəsi ilə ittiham irəli sürülüb.

**Xatırladaq ki, ötən il Səbail rayonunda "Bulaq" restoranında kriminal qruplaşmaların üzvləri arasında silahlı atışma olmuşdu. Vidadi Hüseynov və onlarla kriminal aləmə yaxın olduğu ddyiləm şəxslərin saxlanılması həmin ərəfəyə təsadüf edir.**

❑ **İlkin MURADOV**

# Deputat UZİ-yə qarşı

## "Azərbaycanda 10 yaşa kimi uşaqlar arasında oğlanların sayı qızlara nisbətən 4-5% artıb"

**Ötən ilin statistikasına əsasən, Azərbaycanda 10 yaşa kimi uşaqlar arasında oğlanların sayı nəzərəçarpacaq qədər artıb.**

APA-nın xəbərinə görə, bunu 2007-2015-ci illər üzrə Azərbaycan əhalisinin Reproduktiv Sağlamlığına dair Milli Strategiyanın ilkin layihəsinin müzakirəsinə həsr olunmuş işçi görüşdə millət vəkili Məlahət İbrahimqızı deyib. Deputat bildirib ki, statistikaya əsasən oğlanların sayı qızlara nisbətən 4-5% artıb. Bu məsələni ciddi problem hesab edən millət vəkili qeyd edib ki, qızların gələcək taleyi hər kəsi düşündürməlidir: "2-3 ildən sonra bu ciddi tendensiyaya səbəb olacaq. 5 il bundan əvvəl bu rəqəmlər 1% idi. Biz bu sahədə geridə qalmış ölkələrin sırasına enə bilmərik".

Onun sözlərinə görə, hamiləlik dövründə müalicə məqsədi daşımayan ultrasəs müayinələrinin keçirilməsi hansısa formada tənzimlənməlidir: "Ultrasəs müayinəsinin lazım oldu-olmadı, xüsusilə cinsə görə muştuluq naminə keçirilməsi bu gün də var. Bu məsələlərə son qoyulmalıdır".

**M.İbrahimqızı əlavə edib ki, qızların kütləvi olaraq xarici vətəndaşlara ailə qurması da ciddi problemdir.**

# Almeydanın millimizdə ilk oyunu nə vaxt olacaq? - AFFA açıqladı




**"Qarabağ"ın futbolçusu Riçard Almeyda DÇ-2018-in seçmə mərhələsinin Şimali İrlandiyaya qarşı Bakıda keçiriləcək oyununda Azərbaycan millisinin heyətində ilk dəfə meydana çıxa bilər.**

Bu haqda qol.az-a açıqlamasında AFFA-nın Mətbuat və İctimaiyyətlə Əlaqələr Departamentinin rəhbəri Mikayıl Nərimanoğlu məlumat verib. O bildirib ki, Almeydanın millimizdə oynamasıyla bağlı sənədlər toplanaraq FİFA-nın müvafiq komitəsinə göndəriləcək.

O deyib ki, böyük ehtimalla Riçard Almeydanın iyunun 10-da Bakıda Şimali İrlandiya komandası ilə oyuna qədər Azərbaycan millisində oynaması üçün bütün hüquqi prosedurlar həllini tapacaq. M.Nərimanoğlu onu da deyib ki, Almeydanın martda Almaniya ilə oyunda meydana çıxması isə gözlənilmir.

Qeyd edək ki, milliləşdirilmiş əcnəbi oyunçuların bir komandada oynamasına razılığı FİFA-nın Oyunçuların Statusu Komitəsi verir. Adətən bu komitə federasiyanın ünvanladığı müraciətə 3 ay müddətində cavab verir.

Xatırladaq ki, "Qarabağ"ın 27 yaşlı braziliyalı yarımmüdafiəçi olan Riçard Almeyda milli komandamızda oynamağa razılıq verib. Bu il Riçard Almeydanın Azərbaycanda yaşamağının 5 ili tamam olduğunu nəzərə alaraq AFFA müvafiq hüquqi prosedurlara başlayıb.


**"Qaya Mətbuat Yayımı" MMC!**

**- İstənilən qəzet və jurnallar həm də sərfəli qiymətə:**

- Əgər siz qəzet və jurnalların rahatlıqla evinizə və ya ofisinizə çatdırılmasını;
- Mətbuatı aldıqdan sonra abunə haqqını ödəmək və bu ödənişin formasını sərbəst seçmək hüququndan istifadə etmək;
- Tirajınızda lazım gəldikdə dəyişikliklər etmək;

**Ən başlıcası ayda 26 dəfə nəşr olunan "Yeni Müsavat" - 0.60 AZN və bundan əlavə 2500 adda yerli və xarici nəşrlər.**

- Abunə yazılmaq üçün uzağa getmək lazım deyil.

**Telefonla zəng etməyiniz kifayətdir:**

**Bakı şəh. 564-63-45; 598-35-22**

- Respublikanın digər böyük şəhərlərinə də abunə qəbul olunur.


# Sərhəddən keçirilən nəqliyyat vasitələrinə gömrük nəzarəti gücləndirilir

**Martın 1-dən etibarən "Azərbaycan Respublikası Prezidentinin 2008-ci il 22 aprel tarixli 744 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Giriş-çıxış və qeydiyyat" idarələrarası avtomatlaşdırılmış məlumat-axtarış sistemi haqqında Əsasnamə"də dəyişiklik edilməsi barədə" Azərbaycan prezidentinin 21 may 2016-cı il tarixli 918 nömrəli Fərmanı ilə Dövlət Gömrük Komitəsinin üzərinə qoyulan vəzifələrin icrasına başlanılacaq.**

Dövlət Gömrük Komitəsinin Mətbuat Xidmətindən "APA-Economics"ə verilən məlumata görə, həmin fərmana əsasən gömrük orqanlarına verilən səlahiyyətlər müvəqqəti idxal və ixrac gömrük proseduru ilə gömrük sərhədindən keçirilən mal və nəqliyyat vasitələri üzərində gömrük nəzarətinin daha da gücləndirilməsinə imkan verəcək.

Beləliklə, fiziki şəxslər tərəfindən müvəqqəti gətirilən və ya aparılan mal və ya nəqliyyat vasitələrinin vaxtında qaytarılması gömrük orqanları tərəfindən ciddi nəzarətə götürüləcək. Fiziki şəxslər gömrük orqanları qarşısında götürdükləri öhdəliyi yerinə yetirmədikləri, yəni müvəqqəti gətirdiyi və ya apardığı mal və ya nəqliyyat vasitələrini vaxtında qaytarmadıqları halda, sərhədkeçmə zamanı məhdudiyyətlə üzləşəcəklər.

Fərmanın icrası ilə əlaqədar mövcud normativ hüquqi aktlarda müvafiq dəyişikliklər aparılmış və bu dəyişiklər ölkəmizə turist axınının artmasına mane olan halların aradan qaldırılmasına ölkəmizə səyahət edən turistlərin sayının artmasına da şərait yaradacaq.

# Bu gündən "TRT-1"in rəqəmli yayımına başlanacaq

**Türkiyənin "TRT-1" televiziya kanalı martın 1-dən Azərbaycanda rəqəmsal yayıma başlayacaq.**

TRT-nin Bakı nümayəndəliyindən APA-ya verilən məlumata görə, TİKA, Milli Televiziya və Radio Şurası (MTRŞ) və Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin Teleradio İstehsalat Birliyi arasında əldə olunmuş razılığa əsasən "TRT-1" telekanalının yayımı bərpa edilib.

Qeyd edək ki, Azərbaycanda rəqəmli TV yayımına keçildikdən sonra TRT-nin yerüstü yayımı ötən ildən dayandırılıb. Noyabrın 1-dən etibarən Bakı şəhəri və Abşeron yarımadasında, dekabrın 1-i, 10-u və 20-si bölgələrdə analoq TV yayımı dayandırılıb. Azərbaycanda yalnız rəqəmli TV yayımı həyata keçirilir. "TRT-1" Azərbaycan və Türkiyə arasında hökumətlərarası müqaviləyə uyğun olaraq Radiotezliklər üzrə Dövlət Komissiyasının 8 dekabr 1995-ci il tarixli razılığı əsasında yayımlanır.

YENİ MÜSAVAT
N 46 (6660) 1 mart 2017

# Energetika Nazirliyində qalmaqal - keçmiş işçisi idarə rəisini əxlaqsızlıqda ittiham edir

## "Dedi ki, ərə gedənə kimi mənimlə yaşa..."

**Energetika Nazirliyinin Dövlət Qaz Nəzarət İdarəsində baş məsləhətçi işləmiş Ülkər Qasımova "Yeni Müsavat"ın redaksiyasına müraciət edərək, idarə rəisinin əxlaqsız təklifini qəbul etməyi üçün işdən çıxarıldığını iddia edib.**



35 yaşlı Ülkər Qasımova bildirib ki, 11 il dövlət qulluğunda işləməsinə baxmayaraq, özünün də xəbəri olmadan onun işlədiyi ştat ləğv edilib və işdən azad olunub: "Mən Dövlət İqtisad Universitetinin İnzibati idarəetmə fakültəsini bitirmişəm. 2005-cı ildə "Azəriqaz" İstehsalat Birliyində işə daxil olmuşam. 2006-cı ildə prezident sərəncam imzalayıb və bizi Energetika Nazirliyinin tərkibinə verib. Biz Energetika Nazirliyinin Dövlət Qaz Nəzarət İdarəsinin işçiləri olmuşuq. Qanuni dövlət qulluğu olaraq mən 11 ildir ki, o idarədə baş məsləhətçi mühasib vəzifəsində çalışıram. 2016-cı ilin iyun ayının 24-də bizim rəhbərlik dəyişildi, Hacıqulu Rəvan oğlu Sadıqov rəhbərliyə gəldi. Təzə rəhbər gəldikdən sonra idarədə mübahisələr başladı. O, qarşısına məqsəd qoymuşdu ki, köhnə rəisin vaxtında çalışan işçilərin heç biri bu idarədə qalmayacaq. İşçiləri məcbur edirdi ki, özləri ərizə yazıb çıxsınlar. Təxminən 7 ay ərzində 15-20 nəfər qanuni dövlət qulluqçusu və müddətli əmək müqaviləsi ilə çalışanlar işdən çıxarıldı.

Mənə gəlincə, oktyabrın əvvəlində məzuniyyətə çıxmalı idim. Məzuniyyətdən qayıtdıqdan sonra Hacıqulu Sadıqov məni kabinetinə çağırdı və əxlaqsız təklif etdi. Bildirdi ki, əgər bu idarədə qalıb işləmək istəyirsənsə mənim təklifimi qəbul etməlisən. Dedi bilirəm ki, sən evli deyilsən, subaysan. Ərə gedənə kimi gəl mənimlə yaşa, sənin bütün ehtiyaclarını da özüm ödəyəcəyəm. Bu mənim üçün gözlənilməz və dəhşətli bir hal idi. O an şok keçirdim. Təbii ki, bu təkliflə razılaşmadım. Dedim ki, gedin nə istəyirsiniz edin, mən qanuni dövlət qulluqçusuyam. 11 ildir işləyirəm. Həm də məcburi köçkünəm. Dedi ki, bunların ona aidiyyəti yoxdur. Təhdid etdi ki, gör səni işdən necə çıxaracağam".

**Ülkər Qasımova işdən çıxarılmasının detallarını belə açıqladı:** "Təsadüfən o ərəfələrdə mən xəstələndim, yüksək qızdırma keçirdim və işə gedə bilmədim. İşə qayıtdıqda isə xəstəxanadan bülleten gətirib təqdim etdim. Ancaq mənə bildiriş verildi ki, yanvar ayının 9-dan etibarən işdən azad olunuram. Dedilər ki, ixtisara düşmüşünüz. Bizim idarənin rəisi Hacıqulu Sadıqov nazirə xidməti müraciət ünvanlayıb ki, mənim ştatım ixtisar olunsun. Nazirlikdən də müsbət cavab verilib və mənim ştatım ixtisar olunub. Mənə müfəttiş işləmək təklif olundu. Ancaq buna razı olmadım. Çünki mənim təhsilim o istiqamətdə deyil, qaz təsərrüfatından anlayışım yoxdur. Bu işi qəbul etsəydim və bacarmasaydım, o zaman məni dövlət qulluğu funksiyalarını yerinə yetirə bilmədiyimə görə müvafiq maddə ilə çıxara bilərdi. Onların ixtiyarı yoxdur ki, məni öz vəzifəmdən aşağı bir ştata göndərsinlər. Ancaq Hacıqulu Sadıqov vəzifə səlahiyyətlərindən sui-istifadə edərək bu addımı atdı".

**Şikayətçinin sözlərinə görə, ona başqa iş təklif olunsa da, ərizəsi qəbul olunmayıb:** "Mən Hacıqulu Sadıqovun haqsızlığı ilə bağlı cənab nazir Natiq Əliyevə müraciət etdim. Orada mənə şərt qoydular ki, səni qaz təsərrüfatı idarəsinə baş məsləhətçi vəzifəsinə təyin edəcəyik, ancaq cənab nazirdən üzr istəməlisən. Mən razılaşdım, ərizə yazdım. Müvəqqəti olaraq müqavilə ilə fəaliyyətə başladım. Sonra isə imtahan verib daimi olaraq dövlət qulluğuna başlayacaqdım. Ərizə yazdım, üstündən 20 gün keçdi və mənə dedilər ki, ərizən itib. İkinci ərizəni yazıb kadrlar şöbəsinin müdiri Əsəd İsmayılova verdim. Bir müddət keçdi, yenə də ərizədən səs-soraq çıxmadı. Fevralın 8-də mən artıq heç bir nəticə olmadığını görüb bütün aidiyyəti dövlət qurumlarına, ölkə rəhbərliyinə müraciət etdim. Onlar da bu müraciətləri energetika naziri Natiq Əliyevə göndərirlər. O da cavab yazır ki, siz ixtisara düşmüşünüz, işdən azad edilmisiniz və sair. Ancaq mənim işdən çıxarılmağımın səbəbini heç kim araşdırmır".

**Şikayətçi iddia edir ki, Hacıqulu Sadıqovun 57 yaşı var və bu yaşa kimi bir dəfə də olsun dövlət işində çalışmayıb:** "O müvəqqəti müqavilə ilə işə götürülmüşdü və mərhələli şəkildə imtahan verməli idi. Ancaq heç bir imtahan vermədən 3 ay ərazində nazirliyin əmri ilə dövlət qulluqçusu təyin edildi. Mən işimə bərpa olunmağımı tələb edirəm. Haqq-ədalət bərpa olunmalıdır. Məni işdən çıxaran Hacıqulu Sadıqov isə orada qeyri-qanuni oturub, çünki heç bir imtahandan keçməyib. O hətta latın qrafikasını belə tanımır. Necə ola bilər ki, o insana məmur adı verilsin, Dövlət Qaz Nəzarət İdarəsində rəis olsun, ancaq biz işdən çıxarılaq. Məndən başqa bir əməkdaşımız da - Elxan Hüseynov işdən qeyri-qanuni çıxarılıb və o da işi məhkəməyə verib. Mən xahiş edirəm ki, aidiyyəti dövlət qurumları bu məsələyə diqqətlə yanaşsınlar".

**Qeyd edək ki, bu məsələ daha öncə də mətbuatda işıqlandırıldığından Dövlət Qaz Nəzarət İdarəsinin Rəisi Hacıqulu Sadıqov haqqında səsləndirilən iddialarla bağlı "Qafqazinfo"ya açıqlama verib. Deyilənləri təkzib edən rəis işdən çıxarılan əməkdaşın ona şər atdığını bildirib:** "İşdən çıxan biri nə deməlidir? Şər atmalıdır da. 57 yaşım var, Ülkər mənim oğlum, qızım yaşındadır. Özü bu yolun yolçusudur deyə, bizə də şər atır. Hətta valideynləri ondan imtina edib. Tam qərəzli mövqedir. İxtisara düşüb, biz ona başqa bir iş təklif etdik, qəbul etmədi. Bir neçə sayt bu haqda yazıb, ancaq biri zəng vurub mənim fikrimlə maraqlanmır. Yazıblar ki, latın əlifbasını bilmir, heç maraqlandılar ki, bilirəm ya yox? Bunların hamısı yalandır".

❑ Nərgiz LİFTİYEVA

# Apelyasiya Məhkəməsi də Əli İnsanovu həbsdə saxladı

**Bakı Apelyasiya Məhkəməsində həbsdə olan sabiq səhiyyə naziri Əli İnsanovun şikayətinə baxılıb. APA-nın məlumatına görə, məhkəmə şikayəti təmin etməyib.**

Qeyd edək ki, bir neçə gün əvvəl **Qaradağ rayon Məhkəməsində Əli İnsanov**un barəsində olan həbs qətimkan tədbirinin ev dustaqlığı ilə əvəz edilməsi barədə vəsatətə baxılıb. Məhkəmə vəsatəti təmin etməyib. Apelyasiya şikayəti həmin qərardan verilib.

Qeyd edək ki, bir müddət əvvəl Ə.İnsanov barəsində Cinayət Məcəlləsinin 234.1-ci (satış məqsədi olmadan qanunsuz olaraq narkotik vasitələri və ya psixotrop maddələri şəxsi istehlak miqdarından artıq miqdarda əldə etmə və ya saxlama), 315.2 (Hakimiyyət nümayəndəsinə xidməti vəzifələrini yerinə yetirərkən həyat və sağlamlıq üçün təhlükəli olmayan zor tətbiq etməklə müqavimət göstərmə, xidməti vəzifələrini yerinə yetirməsi ilə əlaqədar ona və ya onun yaxın qohumlarına qarşı belə zor tətbiq etmə və ya zor tətbiq etmə hədəsi ilə hədələmə, bu maddədə göstərilən şəxslərə qarşı həyat və sağlamlıq üçün təhlükəli olan zor tətbiq etmə) və 317-2.1-ci (Cəzaçəkmə müəssisələrində və ya istintaq təcridxanalarında saxlanılan şəxs tərəfindən qadağan olunmuş əşyaların hazırlanması, saxlanılması, gəzdirilməsi, daşınması və ya istifadəsi, eyni əməllər təkrar törədildikdə) maddələri üzrə cinayət işi başlanıb.



Əli İnsanov

**Ə.İnsanov 2005-ci ilin oktyabr ayında həbs olunub. O, dövlət vəsaitlərinin mənimsənilməsində və dövlət aktivlərinin qanunsuz özəlləşdirilməsinin təşkilində ittiham olunub. 2007-ci ilin aprel ayında əmlakı müsadirə olunmaqla 11 il müddətinə azadlıqdan məhrum olunub. Əfv Komissiyasının növbəti iclası keçirilib.**

# Bir savaşın ildə 53 min dəfə pozulan atəşkəsi...



Xalid KAZIMLI

**Qarabağ savaşı dünyanın ən absurd müharibəsi deyil, amma dünyanın ən absurd atəşkəs rejimi bu münaqişədədir. Bu savaşda tərəflər nəyin uğrunda mübarizə apardıqlarını bilir. Ortadakı "nifaq alması" mənasız siyasi-ideoloji səciyyə daşımır, bu, heç müasir dünyada yenidən alovlanmış din-məzhəb savaşı da deyil.**

Qarabağda torpaq, ərazi, yaşam arealı uğrunda müharibə gedir. Bu savaşda qalib gələn öz gələcək nəsillərinin rifahını, dolanışığını təmin edəcək.

Hətta Qarabağ torpağı qara, boz qayalıqlardan, bataqlıqlardan ibarət olsa da, onu düşmənə, hər tələb edənə vermək olmazdı.

Tarixi təcrübə göstərdi ki, insan oğlu bataqlıq və səhraların üzərində belə cənnət guşələri yaratmaq qüdrətindədir. Məsələn, 69 il əvvəl İsrail dövləti quru, bərəkətsiz, bir hissəsi daş-qayalıq, bir hissəsi də bataqlıq olan bir ərazidə qurulub. Amma indiki İsrailin kibutsalarının hər biri sanatoriyaya oxşayır.

Yəni əsas odur ki, adamın ayağının altında torpaq olsun. Ondan sonrası başqa qayğıdır.

*(Yeri gəlmişkən, Qarabağ dağı-aranıyla birlikdə elə İsrail boydadır).*

Bu baxımdan dünyanın ən bərəkətli, ən verimli torpağına malik olan Qarabağdan nə biz vaz keçə bilərik, nə də ermənilər elə asanlıqla ondan əl çəkənə oxşayırlar.

Burada, bu məsələdə kompromis, güzəşt söhbəti yoxdur, ermənilər Qarabağ torpaqlarını azad etməyə məcbur olana qədər bütün qüvvələri ilə direşəcəklər.

Məhz bu üzdəndir ki, dünyanın ən absurd atəşkəs rejimi bu savaşda hökm sürür. O rejim bir gecədə 145, bir həftədə 1000 dəfədən artıq, bir ayda 4300, bir ildə təxminən 53 min dəfə pozulursa, ona atəşkəs demək olarmı?

Bu, əməlli-başlı müharibədir. Sadəcə, təmas xəttindəki qoşunlar cəbhə xəttini yarmağa, yeni-yeni ərazilər işğal etməyə təşəbbüs göstərmir.

Kəşfiyyat-diversiya qrupları, artilleriya qurğuları isə il on iki ay və gecə-gündüz işləyir, ağır və yüngül çaplı silahlar susmaq bilmir. Snayperlər bir gün də olsun gözlərini nişangahdan, barmaqlarını tətikdən çəkmirlər.

Hər gün təmas xəttində tonlarla sursat məsrəf olunur, milyonlar gedir.

Beynəlxalq təşkilatlar, qüdrətli dövlətlər bunun adına "atəşkəs rejimi" deyir, onun pozulmaması, pozulanda tez bərpa olunması üçün hər gün saat-saat telefon danışıqları aparır, orda-burda görüşlər təşkil edirlər.

Müharibə isə davam edir. Bu, gor qonşularının çəpər başından etdiyi davaya oxşasa da, hər halda qarşılıqlı söyüşmə ilə, nifrət təzahüratı ilə bitmir, az qala hər gün gənclər ölür, şəhid olur, yaralanır.

Bu müharibədə gənc övladlarını itirən valideynlər üçün fərqi yoxdur ki, onlar "atəşkəs rejimi"nin pozulması zamanı həlak olublar, yoxsa qızğın döyüş əməliyyatları zamanı. Bu, onlar üçün böyük faciə, vətən üçün itkidir.

Bəzən atəşkəsin pozulmasının ilk təşəbüsçüsünün kim olması barədə istər ölkə daxilində, istərsə də böyük paytaxtlarda ziddiyyətli fikirlər səslənir. Heç bir tərəf "bəli, atəşkəsi mən pozmuşam" demir, deməz.

Əslində isə atəşkəs ilk dəfə 1988-ci ildə, düz 29 il bundan qabaq pozulub. Ondan sonrakılar sadəcə atəşlərin fasilələrlə davam etdirilməsidir.

Bu, yalançı atəşkəsdir, böyük dövlətlərin sırf Azərbaycanın əl-qolunu tutmaq üçün bizə sırınan (nə yazıq ki, bizim də onu qəbul etməyə məcbur oldğumuz) hərbi-siyasi sazişdir. Ancaq o, sülh sazişi olmadığı üçün son 23 ildə yüz minlərlə dəfə pozuntuya məruz qalıb.

Əsl atəşkəs o zaman olacaq ki, Ermənistan işğal etdiyi torpaqları sonuncu qarışına qədər boşaldacaq (buna məcbur olacaq), Azərbaycan isə Dağlıq Qarabağda yaşayan ermənilərin hüquqlarının təminatını beynəlxalq zəmanətlə öz üzərinə götürəcək.

Bu gedişatla o arzulanan gün hələ uzaqdadır. İndilikdə "çəpər savaşı" və absurd atəşkəs rejimi davam edir.

**Bu müharibədə qalib gəlməyin yeganə yolu savaşdan vaz keçməmək, usanmamaq, onu davam etdirməkdir. Bu, bizə baha başa gələcək, amma Qarabağı itirmək qat-qat böyük itki olar.**



# Yaxşılığı dosta, müttəfiqə edərlər...

Zahid SƏFƏROĞLU
zsafaroglu@gmail.com

**Güney Qafqazdakı bəlaların hamısının kökündə Rusiya amilinin dayandığı artıq çoxdan daşlaşmış həqiqətdir. Bu gerçək-aksiom Qarabağda 25 fevral insidentindən sonra yenidən gündəmə gəldi, müzakirə mövzusu oldu.**

Rəsmi səviyyədə deyilməsə də, əksər təhlilçilər insidentin arxasında Rusiya dəst-xəttinə açıq işarə vurdular, rusların erməninin əli ilə belə bir hadisəni törətməsini mümkün saydılar, hətta Azərbaycanda az öncə 1-ci vitse-prezident təyinatını motiv qismində göstərdilər. Bunu həm də şimal qonşumuzun son vaxtlar Bakının Avropa Birliyi ilə yeni çərçivə sənədi imzalamağa hazırlaşması və Bakıda Cənub Qaz Dəhlizinin inşasını sürətləndirməklə bağlı təzəcə başa çatmış 3-cü beynəlxalq müşavirəyə məxsusi reaksiyası da saymaq olar.

Rusiya belədir. Onu nə bölgədə daimi sabitlik və ədalətli sülhün bərqərar olması maraqlandırır, nə də regionun inkişafı və bölgə ölkələrinin bir-biri ilə, Avropa ilə inteqrasiyası. O da gerçəkdir ki, Avropanın enerji təhlükəsizliyi məsələsində də Kreml öz monopolist mövqeyini kiminləsə bölüşməyə çox aqressiv yanaşır.

Belə vəziyyətdə yeganə optimal yol bölgədə Rusiya təsirini azaltmağa yönəlik layihə və proseslərə qoşulmaq, tədricən Moskvanın təsir zonasından uzaqlaşmaq, qat-qat etibarlı olan, qardaş Türkiyənin də yer aldığı NATO təhlükəsizlik sisteminə doğru addımlamaqdır - hansını ki, qonşu Gürcüstan uğurla həyata keçirməkdədir. Əgər hətta işğalçı Ermənistan da buna altdan-altdan can atırsa, onun prezidenti Moskvanın reaksiyasından qorxmayaraq, Brüsseldə NATO baş katibi ilə görüşürsə, Azərbaycan niyə də gecikməlidir?

Söhbət təkcə Avropa Birliyi ilə, NATO ilə inteqrasiyadan getmir. Eyni zamanda Rusiyanın iqtisadi-maliyyə durumunu yaxşılaşdıran, onun regionda manevr imkanlarını artıran işbirliklərindən uzaq durmaqdan gedir. Məsələn, Gürcüstan artıq illərdir ki, öz silahlı qüvvələrini ABŞ və qonşu Türkiyənin hesabına təzədən, NATO standartları əsasında qurmaqda, peşəkar ordu yaratmaqdadır. Yanılmırıqsa, orada gənclərin ordu sıralarına çağırışı da dayandırılıb. Gürcü ordusunun hərbi parkı da Rusiya silah-sursatı ilə deyil, xeyli dərəcədə Qərb və Türkiyə silahları ilə komplektləşdirilib.

Yeri gəlmişkən, Gürcüstan 100 ədəd Türkiyə istehsalı olan "EJDER" zirehli döyüş maşını almağa hazırlaşır. Bu haqda ölkənin Baş Qərargah rəhbəri Vladimir Çaçibaya deyib. Əlbəttə ki, qardaş ölkənin getdikcə böyük silah satıcısına çevrilməsi sevindiricidir. Çünki bu, ölkənin regionda və dünyadakı nüfuzunu göstərməklə yanaşı (Türkiyənin güclənməsi Azərbaycanın güclənməsi deməkdir), onun büdcəsi üçün böyük para deməkdir. Eyni məntiqlə Gürcüstanın silah məsələsində Moskvadan asılılığının heçə enməsi, Rusiya büdcəsinin isə itirməsidir. Söz düşmüşkən, nə qədər deyilsə ki, Ankara və Moskva tərəfdaş ölkələrdir, göründüyü kimi, onlar bölgədə həm də bir-birinə rəqibdir.

Məsələ ondadır ki, Azərbaycan da ən azından, silah ticarəti məsələsində Rusiyanın payını qardaş Türkiyə, Pakistan, İsrail hesabına ciddi şəkildə azalda və onu minimuma endirə bilər. Yaxud Bakı Moskva qarşısında birmənalı şərt qoya bilər ki, Rusiya tezliklə Qarabağ məsələsində ciddi dönüşü təmin eləməsə, ərazilərimizin boşaldılmasına kömək eləməsə, onunla silah ticarəti dondurulacaq.

Axı, biz niyə də işğalçının 1 nömrəli müttəfiqini maliyyə cəhətcən gücləndirməli, üstəlik, ondan hərbi asılılığa düşməliyik? Yaxşılığı həqiqi dosta, müttəfiqə, dərdimizi çəkənə edək də. Rusiya yaxşılıq bilən deyil. İşğal rejimi daha nə qədər uzanmalıdır ki, bunu anlayaq? Müasir silahları və döyüş sistemlərini isə təkcə Rusiya istehsal eləmir ki. Moskva rəsmiləri özləri də dəfələrlə etiraf ediblər ki, "biz silah satmasaq, Azərbaycan onu başqa ölkələrdən alacaq".

Kəsəsi, balansı pozmaq zamanı çatıb. Onsuz da Rusiya bizə edə biləcəyi ən böyük pisliyi edib. Ən uzağı, Dağlıq Qarabağdakı separatçı rejimi tanıya bilər. Nə olsun? Əvəzində bölgədə Gürcüstanın ardınca Azərbaycanı da itirər, Türkiyə ilə münasibətləri gərginləşər. Əsas odur ki, Qərb dövlətləri, demokratik dünya, Türkiyə qondarma "dövləti" tanımasın.

**Tanımayacaq da! Necə ki, Abxaziya və Cənubi Osetiya məsələsində Rusiya beynəlxalq aləmdə tək qaldı, Qarabağ məsələsində də elə olacaq. Heç Kremlin satelliti Ermənistan Gürcüstanın iki separatçı qurumunu tanımadı - təzyiqlərə rəğmən. Çünki tülkü erməni də yaxşı bilir ki, rusun mövqeyi həlledici deyil...**



# "Yenə o bağ olaydı..."- Mikayıl Müşfiqin sökülən heykəli qalmaqala çevrildi

## Prezident İlham Əliyev məsələnin hərtərəfli araşdırılması və günahkarların cəzalandırılması ilə bağlı aidiyyəti orqanlara tapşırıq verib; mədəniyyət və turizm naziri "Azəravtoyol" rəhbərliyin özbaşınalıqda günahlandırdı

**"Azəravtoyol" ASC-nin Mikayıl Müşfiqin abidəsini götürməsindən sonra yaranmış qalmaqal daha da böyüyüb. "Azəravtoyol" ASC-nin abidənin müvəqqəti götürüldüyü və ərazinin təmirindən sonra yerinə qaytarılacağı, o cümlədən heykəlin qorunmasını təsdiqləyən fotoları yaymasından sonra da tənqidlər səngimir.**

**Moskva Dövlət Universitetinin Bakı filialının rektoru, professor Nərgiz Paşayeva** "Azəravtoyol" ASC tərəfindən paytaxtın İnşaatçılar prospektində, "Statistika dairəsi" adlanan ərazidə nakam şair Mikayıl Müşfiqin heykəlinin sökülməsini kəskin pisləyib. Professor Paşayeva haqqin.az-a açıqlamasında bunları deyib: "Bu, vandalizim və barbarlıqdır. Böyük şairin xatirəsinə qarşı törədilmiş günahdır və təhqirdir".

N.Paşayeva müvafiq dövlət orqanlarını və ictimaiyyəti bu vandalizm aktına təcili müdaxilə etməyə, habelə bu barbarlığa yol verən "Azəravtoyol" rəhbərliyini cəzalandırmağa çağırıb.

**Azərbaycan PEN-klubunun prezidenti Çingiz Abdullayev** hadisəni acı ironiya ilə şərh edib.

"Bununla kifayətlənmək lazım deyil, gəlsinlər Yazıçılar İttifaqının da binasını söksünlər, hansı ki, orada Stalin dövründə repressiyalara məruz qalmış Azərbaycan yazıçılarının adları var. Üstəlik müsəlmanlar haqqında xoşagəlməz şerlər yazan Sabirin heykəlini də dağıtmaq pis olmazdı, yaxud bütün şerlərini fars dilində yazdığına görə Nizaminin, vətənində ölməli olduğu halda Suriyada qətlə yetirilməyi üstün tutan Nəsiminin heykəlini dağıtmaq üçün nəyi gözləyirlər?"-yazıçı haqqin.az-a açıqlamasında deyib.

Çingiz Abdullayev "Azəravtoyol"un rəhbərliyinə təkliflərini davam etdirərək onları "eyni səbəblərdən", yəni məzarı başqa ölkədə olan və ümumiyyətlə üç dildə yazdığı üçün Füzulinin monumentini də dağıtmağa çağırıb. Yazıçı bildirib: "Bununla da dayanmaq olmaz. Bir halda ki, Müşfiqin heykəlini söküblər, gəlsinlər bütün qalan heykəlləri də söksünlər...".

**Xalq şairi Sabir Rüstəmxanlı** məsələ ilə bağlı bir çox adamlarla danışdığını deyib: "Əvvəlcə onu deyim ki, Müşfiqin heykəlinin qoyulduğu yer biz ziyalıların heç vaxt xoşuna gəlməyib. Son zamanlar orada yaxınlıqda restoranların tikilməsi, bir çox iaşə obyektlərinin açılması bu yeri bir qədər də gözdən salmışdı. Əvvəl heykəlin arxasında kitabxana var idi, indi onu restoran əvəz edib. Bir neçə yolun kəsişməsində salınan parkda bir küncdə Müşfiqin heykəlinin qoyulması çox əlverişsiz idi. Çünki Müşfiq günlərində orada heç bir tədbir keçirmək mümkün deyildi. İndi də məlum olur ki, əslində heykəlinin oradan götürülməsi, Müşfiqə olan hörmətsizlikdən deyil, əksinə, ona olan yaxşı münasibətdən irəli gəlir. Belə ki, dövlət Müşfiqin heykəlini öz adına layiq bir yerə qoyacaq".

**Mədəniyyət və turizm naziri Əbülfəs Qarayev** də məsələyə sərt mövqe bildirib. "Mikayıl Müşfiqin abidəsinin götürülməsi bizim hamımızı sarsıtdı. Məsələdən xəbərdar olan kimi dərhal müvafiq tapşırıqlar verdik. Bu, tam məsuliyyətsiz yanaşmadır" deyə, nazir bildirib.



**Nazir bildirib ki, bu fakt Azərbaycan qanunlarına hörmətsizlik deməkdir**: "Müşfiqin heykəli Azərbaycanın dövlət əhəmiyyətli abidələri siyahısındadır. Ona görə də, abidənin götürülməsi mütləq müvafiq dövlət orqanları ilə razılaşdırılmalı idi. Çox narahatıq. Artıq "Azəravtoyol"un rəhbərliyi ilə ciddi söhbət aparmışıq. Bütün bərpa işləri onların hesabına aparılacaq. Mən əminəm ki, bu işi görən adamlar məsuliyyətə cəlb olunmalıdır. Biz ictimaiyyəti əmin etmək istəyirik ki, bütün proseslərə ciddi nəzarət edirik. Müşfiqin heykəli mütləq bərpa olunacaq".

"Vallah, heç özümüz də bilmirik ki, bu məsələ niyə belə qabardılır".

**"Azəravtoyol ASC"nin mətbuat katibi Anar Nəcəfli** kult.az-a danışarkən deyib. O, Müşfiqin abidəsinin götürülməsinin bütün qurumlarla razılaşdırıldığını bildirib: "Ötən ilin yayından etibarən "Sovetski"nin yenidən qurulması işləri layihəsinə start verildi. Layihə çərçivəsində Statistika Komitəsinin və Nərimanov heykəlinin ətrafı və Füzuli meydanında yenidənqurma işlərinin görülməsi planlaşdırıldı. Bu layihə də bütün qurumlarla razılaşdırılıb. Eləcə də Mədəniyyət və Turizm Nazirliyi ilə. İndi Müşfiqin abidəsinin götürülməsinə nazirlik, mətbuat niyə belə sərt reaksiya verir, özümüz də bilmirik. Biz vandalizm aktı törətmirik. Əslində, abidənin yerləşdiyi məkan heç də Müşfiqə yaraşan yer deyil. Biz abidəni götürmüşük, aşağısındakı qranitlərə belə əl vurmamışıq. Hazırda həmin ərazidə ağır texnika işləyir, park salınır. Abidə orada qalsaydı, ciddi zərər görərdi. Biz orada daha geniş park salıb, abidəni də olduğu kimi yerinə qoyacağıq".

"Azəravtoyol" rəsmisi bakipost.az-a isə deyib ki, dövlət proqramına uyğun olaraq həmin ərazi genişləndiriləcək və orada 5000 kv.m-lik park və yaşıllıq zonası salınacaq: "Həmin ərazidəki "Statistika dairəsi" ləğv ediləcək. Geniş park salınacaq. Müşfiqin büstü də həmin parkda ucaldılacaq. Düşünürəm ki, bu, Müşfiqsevərlər üçün xoş xəbərdir".

Günün ikinci yarısında **prezidentin ictimai-siyasi məsələlər üzrə köməkçisi Əli Həsənov** AZƏRTAC-a bildirib ki, prezidenti İlham Əliyev Azərbaycan ədəbiyyatının parlaq nümayəndələrindən olan Mikayıl Müşfiqin abidəsinin sökülməsindən ciddi narahat olub. Dövlətimizin başçısı məsələnin hərtərəfli araşdırılması və günahkarların cəzalandırılması ilə bağlı aidiyyəti orqanlara tapşırıq verib.

**Əli Həsənov bildirib ki, prezident tarixi əhəmiyyət kəsb edən tikililərin, mədəniyyət abidələrinin qanunvericiliyə uyğun şəkildə aidiyyəti dövlət orqanları ilə razılaşdırmadan, icazəsiz sökülməsini yolverilməz hesab edir və bundan sonra da belə əməlləri törədənlər ciddi şəkildə cəzalandırılacaqlar.**

❑ "YM"

# Manatın kursunun sabitliyi sosial-siyasi sabitliyə bərabərdirmi?

**Fevral ayının əvvəlindən başlayaraq manatın məzənnəsi dollara qarşı müəyyən qədər möhkəmləndi və təxminən bir aya yaxındır ki, 1 dollar 1.73-1.74 AZN ətrafında möhkəmlənib. Bu sabitlik səbəbindən valyuta bazarındakı ajiotaj da müəyyən qədər sakitləşib. Lakin biznesi strukturlarında çalışanlar manatın məzənnəsinin uzun müddət bu səviyyədə qalacağına ümid etmirlər. Buna baxmayaraq cəmiyyətdəki gərginlik müəyyən qədər azalıb. Sanki manatın məzənnəsindəki sabitlik sosial-siyasi sabitliyin yaranması üçün də bir əsasdır.**

*Bəs, görəsən hökumətin manatı stabil saxlamaqda əsas məqsədi sosial-siyasi sabitliyə nail olmaqdırmı?*

“Yeni Müsavat”ın sualını cavablandıran **iqtisadçı ekspert Qubad İbadoğlu** bildirdi ki, manatın məzənnəsinin sabitləşməsi hələ ki sadə insanların həyatında heç bir müsbət rol oynamır: “Hesab etmirəm ki, manatın məzənnəsinin qısa bir müddətdə sabit qalması kimlərinsə sosial-iqtisadi durumunu yaxşılaşdırıb. Sadə insanların həyatında hələ ki, müsbət dəyişiklik hiss olunmur. Gündən-günə artan qiymətlər son nəticədə əhalinin xərclərini də artırır. Manatın möhkənlənməsi son nəticədə qiymətlərin ucuzlaşmasına gətirib çıxartmır. Əksinə manat nə qədər ucuzlaşsa da qiymətlər artmaqda davam edir. Atan xərclər dəyişməz qalan gəlirlərlə müqayisədə vəziyyəti sosial baxımdan daha da gərginləşdirir. Bu baxımdan mən hesab edirəm ki, manatın məzənnəsinin müəyyən səviyyədə stabil qalması sosial baxımdan ciddi dəyişikliklərə səbəb ola bilməyəcək. İqtisadi qanunlara uyğun olaraq bu əslində istehlak mallarının qiymətinin stabilləşməsinə gətirib çıxarmalı idi. Ancaq son zamanlar bizim müşahidələrimiz onu göstərir ki, qiymətlər bahalaşmaqda davam edir. Xüsusilə də ən çox bahalaşmaya məruz qalanlar elə idxal mallarıdır”.

**Q.İbadoğlunun sözlərinə görə, məzənnə siyasəti Azərbaycanın hazırda həyata keçirdiyi iqtisadi siyasətlə uzlaşmır:** “Çünki Azərbaycanın iqtisadi siyasətinin əsas istiqamətlərindən biri qeyri-neft sektorunun inkişaf etdirilməsi, eyni zamanda idxalı əvəz edən yerli istehsalın formalaşması, bunun bazasında da ixrac potensialının artırılmasıdır. Bugünkü məzənnə siyasəti ölkədə istehsalı deyil, idxalı stimullaşdırır. Bu da əhalinin sosial vəziyyətini daha da pisləşdirir. Bu da o qənaətə gəlməyə əsas verir ki, Mərkəzi Bank manatı sabit saxlamaq üçün bütün valyuta ehtiyatlarını səfərbər edib. Bunun üçün kifayət qədər valyuta sərf olunur. Bu siyasət nə sosial, nə də iqtisadi hədəflərə uyğun deyil, əksinə Azərbaycan iqtisadiyyatının kiçilməsinə gətirib çıxaracaq. Milli iqtisadiyyatın beynəlxalq bazarlardan asılılığını daha da gücləndirəcək”.



İqbal Ağazadə: “Manatın sabit olmasının arxasında maliyyə sabitliyi olmalıdır”



Qubad İbadoğlu: “Manat sabitləşsə də, sadə insanların həyatında müsbət dəyişiklik hiss olunmur”

**Ümid Partiyasının sədri İqbal Ağazadə** isə hesab edir ki, manatı bu şəkildə uzun müddət sabit saxlamaq mümkün deyil: “Ancaq hökumətin nə məqsədlə bunu etdiyini demək çətindir. Düşünürəm ki, manat bu şəkildə çox davam etməyəcək. Konkret olaraq mart ayının sonunda, Novruz bayramı ərəfəsində manatın məzənnəsi yenidən oynamağa başlayacaq, dollara qarşı ucuzlaşacaq. Manatın sabit olmasının arxasında maliyyə sabitliyi olmalıdır. Neftin qiyməti sabit deyil. Qalxıb-enən şkala üzrə hərəkət edir. Azərbaycanın neftdən gələn gəlirləri azalıb. Həm qiymətə görə, həm də hasilatın azalmasına görə neft gəlirləri məhdudlaşıb. Azərbaycanda daxili bazarın tələbatını ödəyən istehlak mallarının 70 faizi xaricdən gətirilir. Mütəmadi olaraq idxal məhsullarının alınmasına görə ölkədən külli miqdarda valyuta çıxır, ancaq bir o qədər valyuta daxil olmur. Bu proses də mütləq şəkildə manatın dəyərdən düşməsi ilə nəticələnəcək”.

**Müxalifət lideri onu da vurğuladı ki, manatın məzənnəsindəki sabitliyin birbaşa sosial-siyasi sabitliyi təmin etdiyini demək mümkün deyil:** “Çünki Azərbaycanda sosial siyasətlə ictimai-siyasi vəziyyəti xarakterizə edən siyasət hələlik bir-birindən məsafəcə xeyli uzaqdır. Adətən sosial-iqtisadi böhranlar siyasi kataklizmlərə gətirib çıxarır. Arzu edək ki, Azərbaycanda sosial-iqtisadi böhran siyasi kataklizmə gətirib çıxartmasın. Bu ölkə üçün problem yarada bilər. Ancaq bizim kimi ölkələrdə bu baş verir. Xüsusilə qeyd etmək istəyirəm ki, mart, aprel, may ayları iqtisadi baxımdan ən ağır aylardır. Çünki köhnə məhsulların azaldığı bir dövrdür, kənd təsərrüfatı hesabına dolanan insanlarda da təsərrüfat malları tükənməyə doğru gedir. Ona görə də bu aylar sosial-iqtisadi baxımdan ağır hesab olunur. Azərbaycandakı iqtisadi vəziyyət isə hələ ki, müsbət bir impuls vermir ki, vəziyyət nəyin əsasında dəyişə bilər. Çünki ölkəyə məhsulların əksəriyyəti xaricdən gətirilir. İstehlak mallarına görə külli miqdarda valyuta ödənilir”.

❑ Nərgiz LİFTİYEVA



## Ermənistan iqtisadiyyatı geriləyib

**Ermənistanın Milli Statistika Xidməti 2016-cı ilin iqtisadi göstəricilərini açıqlayıb. Novator.az-ın məlumatına görə, açıqlamada qeyd olunur ki, ötən il Ermənistanda ümumi daxili məhsul (ÜDM) 0,2% artaraq 10,5 milyard dollara yaxınlaşıb. Bu artımın son 7 ilin ən aşağı göstəricisi olduğu bildirilir.**

Adambaşına ÜDM-in 3,5 min dollar olduğu bəyan edilib.

Hesabatda qeyd olunur ki, ötən ilin ilk rübündə iqtisadiyyat 4,7%, ikinci rübündə 2,6% artıb. Üçüncü rübdə 2,6%, dördüncü rübdə 1% azalma qeydə alınıb.

Ermənistanda ötən il tikinti sektorunun 11,3%, kənd təsərrüfatının 5,8% gerilədiyi, sənayedə, ticarət və xidmət sahəsində isə artım olduğu vurğulanır.

Xatırlatma: Azərbaycanın Dövlət Statistika Komitəsi bəyan edib ki, 2016-cı ildə ölkədə 59,9 milyard manatlıq (33,9 milyard dollar) və ya 2015-ci ildəkindən 3,8 faiz az ümumi daxili məhsul istehsal edilib. Ümumi daxili məhsulun əhalinin hər nəfərinə düşən dəyəri 6,2 min manat (3,5 min dollar) olub.ABŞ Senatı “iflas kralı”nı ticarət naziri vəzifəsinə təsdiq etdi.

## 79 yaşlı milyarder ABŞ-ın ticarət naziri oldu




**ABŞ Senatı səs çoxluğu ilə 79 yaşlı milyarder Uilbur Rossu Ticarət Nazirliyinin rəhbəri vəzifəsinə təsdiq edib.**

Bu barədə BBC xəbər yayıb.

Donald Trampın bu namizədi demokrat senatorlar tərəfindən müqavimət görməyib, nəticədə Rossun lehinə 72, əleyhinə isə 27 səs verilib.

Uilbur Ross “N M Rothschild & Sons”un Nyu-York ofisində maliyyəçi kimi fəaliyyətə başlayıb və iflaslar sahəsində məsləhətçi kimi işlədiyi üçün “iflas kralı” ləqəbi qazanıb. 1990-cı illərin əvvəllərində bir sıra investorlar gələcək prezidenti bu biznesdən sıxışdırıb çıxarmağa çalışarkən o, Donald Trampa Atlantik-Sitidə üç kazinosuna nəzarəti qorumağa yardım edib.

**“Forbes” jurnalının 2,5 milyard dollar həcmində dəyərləndirdiyi sərvətini Ross iflasa uğramış şirkətlərin səhmlərini alaraq daha sonra satmaqla qazanıb.**

# Nazir vergi ödəyicilərinin hamısına “bir gözlə baxılmayacağını” dedi



**Azərbaycanda vergi ödəyicilərinə yanaşma diferensiallaşdırılacaq. Burada əsas yanaşma kiçik və orta sahibkarlıq subyektləri ilə iri və xüsusi rejimli müəssisələrlə iş prinsiplərini ayırmaqdır.**

Bu barədə vergilər naziri Fazil Məmmədovun Avropadaxili Vergi Administrasiyaları Təşkilatının (IOTA) saytında yerləşdirilmiş məqaləsində deyilir.

Nazir məqaləsində göstərir ki, Vergilər Nazirliyi buna qədər də daim canlı və dinamik qurum kimi fəaliyyət göstərib, öz inzibati resurslarını və sistemdaxili strukturunu iqtisadiyyatın dəyişən tələblərinə uyğun qurub, zərurət yarandıqca vergi inzibatçılığında və idarəetmə sistemində islahatlar aparıb. Bununla belə, milli vergi administrasiyasındakı son dəyişikliklər istər mahiyyət, istərsə də əhatə baxımından daha genişdir.

Məqalədə deyilir ki, vergi sisteminə yeni baxış bucağı, ilk növbədə, iki mühüm prinsip üzərində qurulur. Bunlardan birincisi və ən önəmlisi “fərdi yanaşma” prinsipidir. İndiyədək vergi xidmətində işin əsas ağırlığı böyük dövriyyəsi olan vergi ödəyiciləri ilə aparılan işlərə yönəldilirdi və dövriyyələrindən asılı olmayaraq bütün vergi ödəyicilərinə (iri, orta və kiçik) eyni inzibati mexanizmlər tətbiq edilirdi. (APA)

**Fazil Məmmədov yazır**: “Yeni dönəmdə vergi administrasiyasının ilkin vəzifəsi bu yanaşmanı dəyişmək, hər kateqoriya vergi ödəyicisinə ona uyğun yanaşmalar formalaşdırmaqdır. Bu məqsədlə beynəlxalq təcrübədə geniş istifadə olunan ”dövriyyə intervalları” prinsipini vergi inzibatçılığının bütün sahələrində tətbiq etməklə, vergi ödəyicilərinə münasibətdə yanaşmanı diferensiallaşdırmaq, daha səmərəli, çevik və şəffaf inzibatçılıq formalaşdırmaq nəzərdə tutulur. Burada əsas yanaşma kiçik və orta sahibkarlıq subyektləri ilə iri və xüsusi rejimli müəssisələrlə iş prinsiplərini ayırmaq, hər bir sahibkarlıq qrupuna fərdi yanaşmanı, eləcə də fiskal və inzibatçılıq yükünün düzgün bölüşdürülməsini təmin etməkdir. İkinci mühüm prinsip isə sahibkarlıq subyektləri ilə “partnyorluq münasibətlərinin qurulması və dərinləşdirilməsi” prinsipidir".

**Nazir bildirir ki, Vergilər Nazirliyi sahibkarlıq subyektləri ilə partnyorluq münasibətlərinin qurulmasına artıq bir neçə ildir başlasa da, yeni yanaşmada bu münasibətlərin konkret əsaslara keçilməsi və dərinləşdirilməsi, vergi ödəyicilərinin öhdəliklərinin dəqiqləşdirilməsi, onlara müasir və innovativ xidmətlərin göstərilməsi əsas götürülüb. Bu məqsədlə yenə də beynəlxalq təcrübədən faydalanaraq intizamlı vergi ödəyiciləri üçün “yaşıl dəhliz” prinsipi əsasında innovativ yeniliklərə söykənən fərdi və sürətli ünvanlı xidmətlər sisteminin tətbiqi qərara alınıb.**

YENİ MÜSAVAT
N 46 (6660) 1 mart 2017

**Ermənistan silahlı qüvvələrinin fevralın 24-dən 25-nə keçən gecə bütün cəbhə boyu törətdiyi irimiqyaslı təxribatların qarşısını alarkən şəhid olmuş hərbi qulluqçularımız Aqşin İsmayıl oğlu Abdullayev, Şahlar Yaşar oğlu Nəzərov, Tural Əbdül oğlu Haşımlı, Zülfü Rəhim oğlu Qədimov və Zakir Nazim oğlu Cəfərovun nəşləri ATƏT və Beynəlxalq Qızıl Xaç Komitəsinin (BQXK) nümayəndələrinin vasitəçiliyi ilə fevralın 27-də döyüş meydanından təxliyə edilib.**

# 25 fevralın 5 şəhidinin həyat hekayələri

## Onlardan 2-si körpələrinin doğulmasını görmədən vətən uğurundan canlarını fəda edib



Şəkinin Kiş kənd sakini, kəşfiyyatın bölük komandiri, şəhid Abdullayev Aqşin İsmayıl oğlu

Ordubad rayon, Dırnıs kənd sakini, şəhid Haşımov Tural Əbdül oğlu

Ağdam sakini Cəfərov Zakir Nazim oğlu

Ağdam rayonu, Mərzili kənd sakini, şəhid Qədimov Zülfü Rəhim

Yardımlı Peştəsər kənd sakini Nəzərov Şahlar Yaşar oğlu

Fevralın 28-də isə şəhidlərimizin nəşləri doğulduqları torpaqlara aparılıb və dəfn olunub.

Onu da qeyd edək ki, fevralın 28-də Müdafiə Nazirliyi daha bir şəhid verməyimiz haqqında məlumat yayıb. Məlumatda qeyd olunur ki, Ermənistan silahlı qüvvələrinin təxribatı nəticəsində düşmənlə döyüş toqquşmasında yaralanan əsgər Əhmədov Elvin Süleyman oğlu hərbi tibb müəssisəsinə çatdırılsa da, bütün təxirəsalınmaz tədbirlərin görülməsinə və həkimlərin səyinə baxmayaraq aldığı həyatla uzlaşmayan yara səbəbindən şəhid olub.

Şəhidlərimiz haqqında sosial şəbəkələrdə və mediada məlumatlar yayılıb. Şəhid olan hərbiçilərimizi tanıyanlar, sosial şəbəkələrdə onlar barəsində öz xatirələrini paylaşıblar. Şəhidlərimizin sosial şəbəkə və mediadan topladığımız həyat hekayələrini təqdim edirik:

**Şəhid olmuş 5 hərbi qulluqçudan biri Ağdam rayonunun Mərzili kənd sakini olan 1988-ci il təvəllüdlü Zülfü Qədimovdur.** O, müddətdən artıq hərbi xidmətdə olub. Məcburi köçkün kimi isə Beyləqan şəhərində məskunlaşıblar. Z.Qədimov 19 fevral 2012-ci ildə ailə qurub. Övladı yoxdur. Şəhid Zülfü Qədimov yaşadığı Beyləqan rayonunda yerləşən Şəhidlər xiyabanında dəfn edilib.

**Şahlar Nəzərov 1990-cı ildə Yardımlı rayonunun Peştəsər kəndində dünyaya göz açıb.** Şəhidimiz, elə doğulduğu kəndin qəbiristanlığında dəfn olunub. Bildirilir ki, Şahlar Nəzərovun əmiləri də hərbçi olublar. Şəhidin qohumları milli.az saytına deyiblər ki, o, təzəlikcə ailə qurmuşdu: "Şahlar yaxşı oğlan idi. Vətəni canından çox istəyirdi. Onun əmiləri də hərbçi olublar. Şahlar ötən ilin avqust ayında ailə həyatı qurmuşdu. Bir-iki aydan sonra onun övladı dünyaya gələcək. Təəssüf ki, o, övladını görə bilmədi. Şahların atası ağır xəstədir".

**Digər şəhidimiz Tural Haşımlı da yeni ailə qurubmuş və o da dünyaya göz açacaq övladını görmədən həlak olub.** Tural Haşımlı 1988-ci ildə Ordubad rayonunun, Dırnıs kəndində dünyaya göz açıb. Tural Haşımlının hərbi rütbəsi baş leytenant olub. Bildirilir ki, o, 7 ay öncə ailə həyatı qurubmuş.

**Digər şəhidimiz Şəkinin Kiş kənd sakini, 1982-ci il təvəllüdlü mayor Aqşin Abdullayevdir.** Aqşin Abdullayev kəşfiyyat bölüyünün rəisi olub. Onun 3 övladının olduğu bildirilir. Aqşin Abdullayev də fevralın 28-də doğulduğu kənddə dəfn olunub.

**Həmin gecə şəhid olan digər hərbi qulluqçumuz Zakir Cəfərovdur.** Zakir Cəfərov 1996-cı il mayın 3-də Bakının Keşlə qəsəbəsində anadan olub. 2011-ci ildə Bakı şəhəri R.Orucova adına 109 saylı məktəbdə orta təhsilini başa vurub və həmin ildə də Azərbaycan Memarlıq və İnşaat Universitetinin nəzdində İnşaat Kollecinin "Avtomobil yolları və aerodromların tikintisi, istismarı və təmiri" ixtisasına qəbul olunub. Əslən Ağdam rayonundan olan şəhid Keşlə kənd qəbiristanlığında dəfn olunub.

Şəhidin tabutuna bükülmüş Azərbaycanın üçrəngli bayrağı atasına təqdim edilib.

**Allah bütün şəhidlərimizə rəhmət etsin!**

❑ Əli RAİS



### Türkiyədən şəhidlərlə bağlı açıqlama

"Türkiyə olaraq Azərbaycanın dərdi bizim dərdimiz, sevinci bizim sevincimizdir".

**APA-nın "Milliyet"ə istinadən verdiyi məlumata görə, bu sözləri Türkiyənin baş naziri Binəli Yıldırım partiyasının parlament qrupunun toplantısında çıxışı zamanı deyib.**

B.Yıldırım təmas xəttində baş verən son toqquşma zamanı həlak olan Azərbaycan əsgərlərinə rəhmət diləyib: "Azərbaycan xalqının acısını paylaşırıq. Ermənistan-Azərbaycan müharibəsi, Dağlıq Qarabağ bölgəsi illərdir qanayan yaradır. Azərbaycan torpaqları ermənilər tərəfindən işğal edilib və bu günə kimi problem həll olunmayıb. Qardaş Azərbaycanın haqlı mübarizəsində hər zaman onun yanındayıq".

"Atəşkəsi pozan, pozuntulara yol açan təqsirkar Ermənistandır".

APA-nın "Posta" qəzetinə istinadən verdiyi məlumata görə, bunu **Türkiyənin Milliyyətçi Hərəkat partiyasının sədri Dövlət Bahçeli** deyib.

O bildirib ki, Dağlıq Qarabağ münaqişəsi hələ də həll olunmayıb, Türkiyənin də iştirak etdiyi ATƏT-in Minsk qrupu ədaləti təmin edə bilməyib: "Artıq zaman daralır, səbr tükənir. Ermənistan Azərbaycan torpaqlarından dərhal çəkilməlidir. Türk millətinin ürəyi Dağlıq Qarabağda döyünür. 25 il əvvəl Xocalıda itirdiyimiz qardaşlarımıza Allahdan rəhmət diləyirəm".

# Ermənilər yaydıqları video ilə özlərini ifşa etdilər

## **Ekspert:** "Hərbiçilərimiz tərəfindən neytral ərazidə qurulan post yalnız düşmənin müşahidəsini aparmaq, onun hərəkətləri ilə bağlı müəyyən məlumatları əldə etmək məqsədi daşıyıb"

**Ermənistan mediası fevralın 24-dən 25-nə keçən gecə düşmənin bütün cəbhə boyu törətdiyi irimiqyaslı təxribatların qarşısını alarkən şəhid olmuş zabit və əsgərlərimizin video görüntülərini yayıblar. Düşmən tərəfi informasiya məkanında da təxribata əl ataraq bildirir ki, guya ilk olaraq Azərbaycan tərəfi hücuma keçib və hərbçilərimizin neytral ərazidə olmaları da bunun sübutudur. Lakin elə düşmənin özünün yaydığı videodan da bunun ağ yalan olması isbat olunur. Belə ki, video materialdan da açıq şəkildə görünür ki, şəhid olan hərbiçilərimizin üzərilərində heç bir silah-sursat və digər döyüşdə istifadə olunan hərbi avadanlıqlar yoxdur. Ekspertlər bildirirlər ki, adicə bu nüansın özü belə, düşmənin yalan informasiya yaymasını sübut edən faktordur.**

Məsələ ilə bağlı "Yeni Müsavat"a **hərbi ekspert Üzeyir Cəfərov** danışıb. Ekspert bildirib ki, biz susduqca ermənilər hədlərini aşaraq, yalan ardınca yalan yayırlar:

"Bu faktın özü də bir daha onu göstərir ki, Azərbaycan əsgərləri və zabitləri orada heç bir diversiya, kəşfiyyat əməliyyatı aparmayıblar. Susmaq yox, erməninin ağzından vurmaq lazımdır. Bizim neytral ərazidə komandir öz səlahiyyətləri çərçivəsində müşahidə aparmaq, bəzi məlumatları əldə etmək məqsədi ilə həmin postu qurub. Biz susuruq, ermәni də deyir ki, baxın görün diversantlar necə hücuma keçiblər və onları vurmuşuq. Orada heç bir diversant yoxdur. Bizim ön xətdə olan zabit və əsgərlərimiz adi qaydada müşahidələr aparıb, müəyyən qeydlər edib, düşmənin hərəkətlərini izləyib gedirlər. Videoda geyimi digər zabitlərin geyimindən fərqlənən hərbiçimiz isə müddətdən artıq qulluq edən hərbi qulluqçudur. Allah hamısına rəhmət etsin. Onun da əynində "bronjilet" var. Bu hərbiçimiz postun bir növ cavabdehi kimi ora nəzarət edir. Neytral ərazidə qurulan həmin post bizim hərbiçilər tərəfindən yalnız və yalnız düşməni müşahidə etmək, onun hərəkətləri ilə bağlı müəyyən məlumatları əldə etmək məqsədi ilə qurulub. Düşmən zabitləri də hərbiçilərimizi məhz həmin postda olduqları zaman vurublar. Mütləq deyil ki, onların əllərində silah, başlarında kaska olsun. Bu əsgərlər ora hər hansı hərəkəti yerinə yetirməyə gəlməyib. Sadəcə olaraq, komandirin qərarıdır ki, ora baxır və müəyyən qeydlər aparır, ön xətdə düşmənin texnikasının və ya şəxsi heyətinin yerdəyişməsini müşahidə edirlər. Məsələnin məğzi budur".

**Ekspert bildirib ki, sosial şəbəkələrdə insanlarımız diqqətli olmalıdırlar:**

"Biz susduqca, ermənilər ağızlarına gələni yazırlar. Bizim bəzi vətəndaşlarımız da sosial şəbəkələrdə hay-küy salıblar ki, onların niyə kaskası, silahı yoxdur. Xahiş edirəm ki, öz əsgər və zabitimizə hörmətlə yanaşaq. Onlar, sadəcə olaraq ön xətdə vəzifə borclarını yerinə yetiriblər. Vəziyyətə və şəraitə uyğun olaraq, komandirlər qərarlar qəbul edirlər. Mütləq deyil ki, onlar həmin qərarın yerinə yetirilməsi zamanı tam şəkildə hərbi geyimdə olsunlar. Yəni orada kaska, avtomat və mühəndis-istehkam belləri olmaya da bilər. Məsələni bu cür başa düşürəm və hərbiçi kimi yanaşmam bundan ibarətdir".

**Üzeyir Cəfərov ermənilərin yaydıqları videoda görünən xüsusi ipin mahiyyəti barəsində də danışıb və ekspert bildirib ki, elə bunun özü də erməniləri ifşa edən məsələdir:** "Hərbidə ümumi qaydadır ki, öndə mühəndis-istehkamçı gedir və o, cığır açır. Eyni zamanda o, həmin getdiyi yeri də yoxlayır ki, birdən burada mina olar. Həmin ip, arxadan gələnlərin cığırdan kənara çıxmaması üçündür. Bunu başa düşmək üçün elə də böyük bir hərbi biliyə malik olmaq lazım deyil. Həmin ipin konkret olaraq funksiyası ondan ibarətdir ki, ön xəttə müşahidə üçün gedən hərbiçilər, cızılmış yolla hərəkət etsinlər. Ora neytral ərazidir və düşmən orada pusqu da qura, mina da basdıra bilər. Buna görə də xüsusi ip çəkilir. Hadisə gecə saatlarında olub və orada gecə saatlarında fənər və ya hər hansı bir başqa avadanlıq işlətmək mümkün deyil. İpin məqsədi yol göstərməkdir. Müdafiə Nazirliyi sussa da, biz, bu vəziyyəti real şəkildə bilirik. Orada heç bir hücumdan söhbət gedə bilməz. Hücuma gedən adamın silahı, avadanlığı olur. Bir daha deyirəm ki, hərbiçilərimiz sadəcə müşahidə aparmaq üçün orada olublar və müşahidə postunda düşmənin zərbəsinə məruz qalıblar. Heç bir hücumdan söhbət belə gedə bilməz. Ermənilər günlərdir ki, təxribatlarına, yalanlarına davam edirlər. Ancaq bunların ağ yalan olduğunu ifşa etmək lazımdır".

❑ Əli RAİS

YENİ MÜSAVAT
N 46 (6660) 1 mart 2017

# Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin əməkdaşı uşaq oğurluğunda ittiham olundu

## Övladı oğurlanan ana Cəmilə Bağırovanın və qardaşının "çirkli pul" yuyulması əməliyyatlarını da ifşa edəcəyini deyir

**Birləşmiş Ərəb Əmirliklərinin (BƏƏ)Dubay Əmirliyində Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin (AQUP DK) adı qarışan qovğa yaşanır. Dubay Əmirliyində bank sektorunda çalışan Qırğızıstan Respublikasının vətəndaşı Merim Beishekeyeva Azərbaycan vətəndaşının onun azyaşlı övladını oğurlamaqda ittiham edir. İşdə AQUP DK-nın vəzifəli şəxsinin adı "çirkli pul" yuyulmasında keçir.**



Merim Beishekeyeva bu ilin fevralında Bakıda olub, bir çox dövlət qurumlarına müraciət edib. Ölkə başçısına, baş prokurora, Milli Məclisin sədrinə, ombudsmana, AQUP DK-nın sədrinə müraciətlər ünvanlayıb. Yerli və xarici KİV-ə də başına gələnlər haqda müraciətlər yollayıb. AQUP DK-ya qəbula gedib, amma onu qəbul etməyiblər.

Onun nümayəndəsi Abdulla Əfəndizadə deyir ki, Merim Beishekeyeva Azərbaycan vətəndaşı Davud Bağırovla 2011-ci ildə ailə həyatı qurub. Birgə nikahdan 2 noyabr 2012-ci il təvəllüdlü qızları Ceyla Bağırova anadan olub. ABŞ-ın Nyu York şəhərində doğulan C.Bağırovaya bu dövlətin vətəndaşlığı verilib. Sonradan ailədə D.Bağırovun hərəkətləri üzündən problem yaranıb. Merim Beishekeyeva D.Bağırovun onu incitdiyindən, ailəyə baxmadığından 14 iyul 2015-ci ildə Dubay İbtidai Şəriət Məhkəməsinə "nikahın pozulması, azyaşlı Ceyla Davud qızı Bağırovanın anasının himayəsində qalması, alimentin tutulmasına" haqda iddia təqdim edib. Məhkəmənin gedişatı zamanı D.Bağırov polisə yalan, böhtan xarakterli məlumatlar verib. Həyat yoldaşının pozğun həyat tərzi yaşadığını, narkotiklərdən istifadə etdiyini, spirtli içki aludəçisi, fahişəliklə məşğul olduğunu bildirib.

Nümayəndə deyir ki, D.Bağırovun polisə verdiyi məlumatla əlaqədar M. Beishekeyeva saxlanıb, 8-9 saat ərzində onu dindiriblər. Onun narkotik aslılığı, spirtli içki aludəçisi, zöhrəvi xəstəliklərinin olub-olmamasını aydınlaşdırmaq üçün ekspertizalar təyin edilib. Ekspertizaların nəticəsi M. Beishekeyeva haqda şikayətdə göstərilən iddiaların əsassızlığını ortaya qoyub. Nümayəndə deyir ki, Merim Beishekeyeva ali təhsildir, 3 xarici dili yüksək səviyyədə bilir, əvvəllər bank sistemində məsul vəzifələrdə çalışan gənc xanımdır.

Nümayəndə bildirir ki, M.Beishekeyeva dindirmələrlə əlaqədar saxlanıldığı müddətdə D.Bağırov onun yaşadığı mənzilə girib, oradan sənədləri, azyaşlı qızı Ceyla Bağırovanı oğurlayıb. Uşağı 3 oktyabr 2015-ci ildə Dubaydan Türkiyəyə aparıb, oradan isə Bakıya gətirib. Nümayəndə deyir ki, müştərisi bütün bu olaylara D.Bağırovun bacısı AQUP DK-ın əməkdaşı Cəmilə Davud qızı Bağırovanın rəhbərlik etdiyi qənaətindədir.

Nümayəndə bildirib ki, Dubay məhkəməsində Merim Beishekeyevanın iddiası üzrə hazırlıq iclasında tərəflərə vətəndaşları olduqları ölkələrdə məhkəmələrə müraciət etmək hüquqları izah edilib.

Lakin iddiaçı və cavabdeh iddiaya Dubay məhkəməsində baxılmasını istəyiblər. Dubay məhkəməsində proses keçirildiyi vaxtda D.Bağırov Azərbaycanda Səbayel Rayon Məhkəməsinə Merim Beishekeyevaya qarşı oxşar iddia verib. Səbayel Rayon Məhkəməsi iddianı təmin edib.

Dubay Əmirliyinin birinci instansiya məhkəməsi isə Merim Beishekeyevanın iddiasını təmin edərək nikahı pozulmuş hesab etməklə azyaşlı Ceyla Bağırovanın anasının himayəsində qalmasını, uşağın ona qaytarılmasını və aliment ödənilməsini qət edib. Sonradan BƏƏ Ali Məhkəməsi öz qərarı ilə bu qətnaməni qüvvədə saxlayıb. Həmin qərardan sonra D.Bağırov Dubaya getməyib.

M. Beishekeyeva övladı oğurlanandan sonra saxta sənədlər düzəldilməklə Azərbaycana gətirildiyini də dövlət qurumlarına müraciətində qeyd edib. M. Beishekeyeva 5 fevral 2017-ci ildə anası ilə birlikdə Azərbaycana gəlib. 8 fevral 2017-ci ilə qədər dəfələrlə azyaşlı qızı Ceyla Bağırova ilə görüşməyə cəhd edib. Davud Bağırov Azərbaycanda çox nadir halda, çox qısa müddətə gəlib-getdiyindən onu tapa bilməyiblər. Övladının Davudun anası Ramidə Əhmədova və bacısı AQUPK-də uşaq hüquqlarının müdafiəsi üzrə məsul vəzifədə işləyən Cəmilə Bağırovanın yanında ola biləcəyini təxmin etdiyindən onların ünvanlarına gediblər. Onlara zəng vurub qızı ilə heç olmasa onların iştirakı ilə 10-15 dəqiqə görüş istəyib. Uşağa gətirdikləri hədiyyələri təqdim etmələrinə şərait yaradılmasına yalvarsalar da keçmiş qaynanası və baldızı ona rəhm etməyiblər.

Nümayəndə deyir ki, bunun əvəzində müştərisinin ünvanına hədələr yağdırılıb. Cəmilə Bağırova komitə sədri Hicran Hüseynova ilə çox yaxşı münasibəti olduğunu onun diqqətinə çatdırmaqla, yüksək vəzifəli şəxslərlə əlaqələrinin olduğunu deməklə hüquqlarını çox qabardacağı təqdirdə Bakıdan gedəndə gömrükdə və Sərhəd Xidmətində onun çantasından, cibindən narkotik tapıla biləcəyi ilə hədələyib. Nümayəndə Merim Beishekeyevanın övladının sənədlərin saxtalaşdırılması ilə bağlı apardıqları araşdırmalarının nəticələrindən də danışıb. Deyib ki, Cəmilə Bağırova öz səlahiyyətlərindən sui-istifadə edərək 12 dekabr 2012-ci ildə Səbayel rayon Qeydiyyat Şöbəsinin rəhbərliyinin razılığı ilə azyaşlı Ceyla Bağırovaya AZ-II № 970077, 1479-cu nömrə ilə 12 dekabr 2012-ci il tarixi ilə qeydiyyatdan keçmiş doğum şəhadətnaməsi alınıb.

Şəhadətnamə alınarkən Merim Beishekeyeva qızı ilə Amerikada, Davud Bağırov isə Dubayda olublar. Merim Beishekeyeva uşağı dünyaya gətirənə qədər D.Bağırovla Bakıdan 2012-ci ilin sentyabrında çıxıblar aylar sonra -2013-cü ilin aprelində Bakıya gəliblər. Nümayəndə sual edir: Merim Beishekeyeva və Davud Bağırov Azərbaycanda olmadıqları halda həmin doğum şəhadətnaməsini necə verilib və ya alınıb?

Nümayəndə bundan başqa müştərisi Merim Beishekeyevaya istinadla Cəmilə Bağırovanı qardaşı D.Bağırov vasitəsi ilə "çirkli pulların" yuyulmasında suçlayıb. Deyib ki, müştərisi Bağırovların bütün "çirkli pul" yuyulması əməliyyatları haqda məlumatları faktlarla sübut edəcək.

❑ **E.MƏMMƏDƏLİYEV**

**P.S** *Yazıda adı hallanan hər kəsin mövqeyini dərc etməyə hazırıq.*



# Həbsdə olan daha bir MTN generalının vəziyyəti ağırlaşdı

## Sübahir Qurbanovun vəkili hüquqlarını müdafiə etdiyi şəxsin ekspertizadan keçirilməsini istəyib

**Ləğv edilmiş MTN-nin Monitorinq Mərkəzinin sabiq rəisi, general-mayor Teymur Quliyev, Transmilli İqtisadi Cinayətkarlığa Qarşı Mübarizə Baş İdarəsinin sabiq rəisi, general-mayor Sübahir Qurbanov, Əməliyyat-Texniki İdarəsinin rəisi, general-mayor Natəvan Mürvətova, həmin qurumun digər vəzifəli şəxsləri Füzuli Əliyev, Zaur Məmmədov, Natiq Alıyev, Fərhad Atayev, Anar Şirəliyev, Eşqin Əliyev və Elşad Əzizovun cinayət işi üzrə məhkəmənin növbəti iclası keçirilib.**

Musavat.com xəbər verir ki, cinayət işi Bakı Hərbi Məhkəməsinin sədri, hakim Həbib Həsənovun sədrlik etdiyi kollegiyada Sabunçu rayon Məhkəməsinin inzibati binasında araşdırılır.

Jurnalistlərin iştirakına icazə verilməyən məhkəmə iclasında zərərçəkmiş şəxslər mülki iddia ilə çıxış ediblər. 100-dən çox zərərçəkmişdən 25-i mülki iddia ilə məhkəməyə müraciət edib. Məhkəmə iddiaları qəbul edib.

Mülki iddia qaldıranlar arasında Dövlət Təhlükəsizlik Xidməti (DTX) də var. DTX mülki iddiada agentlərə verilməsi üçün ayrılan 1 milyon manatı tələb edib.

Təqsirləndirilənlərdən general Sübahir Qurbanovun vəkili Azər Tağıyev musavat.com-a deyib ki, hüquqlarını müdafiə etdiyi şəxs səhhəti ilə bağlı vəsatətlə çıxış edib. O, vəziyyətinin ağır olduğunu və ekspertizadan keçirilməsini istəyib.

İttihama görə, ləğv olunmuş Milli Təhlükəsizlik Nazirliyinin sabiq baş idarə və idarə rəisləri Sübahir Qurbanov, Teymur Quliyev, Natəvan Mirvətova, eləcə də həmin qurumun digər vəzifəli şəxsləri - Füzuli Əliyev, Zaur Məmmədov, Natiq Alıyev, Fərhad Atayev, Anar Şirəliyev, Eşqin Əliyev və Elşad Əzizov 2004-2015-ci illər ərzində mütəşəkkil dəstə tərkibində xidməti vəzifələrinin icrası ilə əlaqədar hakimiyyətdən və öz qulluq mövqelərindən sui-istifadə ediblər.

Dəstə üzvlərinin sahibkarların psixi və fiziki zorakılıqlara məruz qalmaqla xəsarətlər almaları, sərbəst buraxılmaları müqabilində tələb olunan vəsaitin əldə olunması üçün ayrı-ayrı şəxslərə və kommersiya banklarına qarşı külli miqdarda borc və kredit öhdəliklərinin yaranması kimi ağır nəticələrə səbəb olan, özlərinin və yaxın qohumlarının şəxsiyyəti üzərində zor göstərmə, tutma, həbsə alma və barələrində rüsvayedici məlumatlar yayma hədəsi ilə fiziki və psixi təsirlər göstərilməklə 162 zərər çəkmiş şəxsin ümumilikdə 18 milyon 437 min manat, o cümlədən 6 milyon 449 min manat məbləğində külli miqdarda pul vəsaitlərini, 5 milyon 693 min manat dəyərində zərgərlik məmulatları və daşınmaz əmlaklarını quldurluq və hədə-qorxu ilə tələb etməklə ələ keçirmələrinə, 5 milyon 295 min manat məbləğində nağd pul vəsaitlərini rüşvət kimi almalarına, həmçinin dövlət büdcəsindən xidməti vəzifələrinin icrası üçün ayrılmış 1 milyon manat məbləğində pul vəsaitlərini vəzifə saxtakarlığı ilə mənimsəmələrinə dair şübhələr müəyyən olunub.

❑ **İlkin MURADOV**



# Heykəlin repressiya olunması

Zamin HACI
zaminhaci@gmail.com

(Topxanadakı tənha armuda ithaf edilir)

**Mikayıl Müşfiqin heykəlinin "Azəravtoyol" tərəfindən sökülməsinə münasibətdə cəmiyyətimiz çox kəskin olaraq hiddətləndi, bu isə bizi sevindirməyə bilməz. Demək elmə, mədəniyyətə hörmətimiz hələ də qalmaqdadır. Canlı adamı sökub böyrü üstdə qoyasan, sağlam ayağını xəstəxanada kəsəsən, evini sökəsən, şərləyib zindana salasan - heç bu qədər münasibət bildirən olmazdı. Hətta "ruskoyazıçnı" şairlərimizdən Çingiz Abdullayev də dilə gəlib hayqırmışdır.**

37-ci ildə Müşfiqi də repressiyadan elə Çingiz müəllimin katibi olduğu Azərbaycan Yazıçılar Birliyi qorumuşdu. Stalin yeddi dəfə maşın, qara paltarlı "bandotdel" əməkdaşları göndərib, ancaq Müşfiqi apara bilməyiblər. Xalq imkan verməyibdir. Səkkizinci dəfə isə maşın özü yolda xarab olmuşdur. Bundan sonra Müşfiqi qaytarıb deputat seçiblər, hər il də Pitsundaya, Qaqraya gedib sanatoriyada rus turist qadınlarla mazaqlaşaraq "Lenin", "Sarı dana", "Ana yurdum Vyetnam" kimi şanlı poemalar yazmışdır. Ta SSRİ dağılana qədər. Ondan sonra da Müşfiqi milli deputatxanaya üzv seçdik, "El atası" şeirini yazdı. Nəsə, uzun söhbətdir. Onun guya repressiya olunması müxalifətçilərin uydurmasıdır.

Özü də adamın "Azəravtoyol"a yazığı gəlir. Əslində yayılan və hər anından qan daman foto-video reportajlardan belə görünürdü ki, doğrudan da heykəl dağıdılmayıb, yolun təmiri ilə bağlı nəsə qırağa qoyulubdur, bəlkə yerinə qaytarılacaqdı. Ancaq kimə deyirsən... Bizim poeziya sevərlər bunu bağışlaya bilməzdi.

Hərçənd, öz aramızda qalsın, Müşfiqin o abidəsinin yeri (köhnə "Sovetski"nin baş tərəfində bir ara küçədir) heç də yaxşı deyil. Orda şairi ziyarət edən, heykəli önündə foto çəkdirən neçə adam tanıyırsınız? Çünki faktiki yolun içində idi. Eyni qalmaqal bu yaxında başqa şairimiz Xətainin heykəli ilə bağlı da qopmuşdu. Hamı yazırdı ki, bəs hökumət yolu genişləndirmək adıyla heykəli götürmək istəyir, bu pis haldır və sairə. Bir nəfər də demədi ki, atam-qardaşım, Xətaiyə hörmətiniz varsa o heykəl elə yolun içindən götürülməlidir! O necə heykəldir ki, qarşısına gedib ziyarət etmək də mümkün olmur? Özünü gərək maşınların altına atasan. Sənətkara, dahi şəxsiyyətə heykəl qoyanda onu ziyarət etmək istəyən şəxslərin hərəkət sərbəstliyini də nəzərə almaq lazımdır. Bütün dünyada belədir.

Mədəniyyət xəbərləri haqda bu qədər, keçək iqtisadi sferaya. Bu qış Bakının və Sumqayıtın qaz təchizatında səbəbi hökumət tərəfindən heç izah edilməyən böyük fasilələr yarandı. Örnək üçün, son bir ayda Binəqədinin qazını bəlkə 15 dəfə kəsiblər. Eyni siqnallar Əhmədlidən, Nərimanovdan, Yasamaldan və başqa yerlərdən də daim gəlir. Özü də adi vaxtlardan fərqli olaraq indi qazın qəza və ya hansısa başqa ciddi, anlaşılan səbəbdən kəsilməsi hiss edilmir. Sadəcə, səhər saat 9-dan axşam saat 6-ya qədər qazı dibdən bağlayırlar. İqtisadçı ekspert Natiq Cəfərli bu sirli hadisənin səbəbini tapıbdır: sən demə, yapistlər həmin qazı xaricə satırlar. Bunun statistik məlumatdan aydın görmək olur. 2017-ci ilin yanvarında Azərbaycandan xaricə satılan qazın həcmi keçən ilin eyni dövrünə nisbətdə 7 dəfəyə yaxın artıbdır! O cümlədən, qaz satışından gələn pullar da 16 dəfə artıb. Bəlkə bu müddətdə qaz istehsalımız artıb, ya nəsə təzə yataqlar istismara verilib? Yox. Quzu kimi susmağa məcbur azərbaycanlıların qazını kəsib xaricilərə satırlar.

Mən bu istiqamətdə bir az düşündüm və ağlıma ideya gəldi: bəlkə qazın üstünə millətin də müəyyən hissəsini qoyub xaricə sataq, gedib orda gün görsünlər?

**Mikayıl Müşfiq sağ olsaydı "Yenə o qaz olaydı" şeiri yazardı bu vəziyyətdə. "Yenə o qaz olaydı, Yenə soba yanaydı, Yemək bişirəydiniz, Çay dəmləyə biləydiniz, Uşaqlar donmayaydı. Arzuya bax, a millət, Sənə çox olsun zillət" və sairə.**

**İqtidarda idarəçiliklə bağlı mümkün dəyişikliklər gündəminin əsas müzakirə mövzularından biridir. Birinci vitse-spiker təyinatından sonra struktur və kadr islahatlarına başlanılacağı anonsları eşidilməkdədir. Əvvəlki illərdəki ənənəvi kadr islahatından imtina ediləcəyi, vəzifələrdə daha çox gənclərə, xaricdə təhsil alanlara, çoxlu dil bilənlərə, ən əsası isə ölkə daxilindəki mövcud situasiyanı düzgün qiymətləndirənlərə üstünlük veriləcəyi qeyd olunur. Bir növ iqtidarın köhnə komandadan uzaqlaşıb, yeni işlək komanda quracağı vurğulanır.**



# İqtidarın kadr islahatlarında müxalifət də yer ala bilər - şok iddialar

## Müxalifətdən açıqlamalar; idarəçilikdə ənənəvi siyasətdən imtina etmək mümkünmü?

İqtidarın kadr islahatlarında əks düşərgənin, yəni müxalifətin də potensialından istifadə edə biləcəyi ilə bağlı iddialar var. Müxalifətçi gənclərdən də xaricdə təhsil alan, çoxlu dil bilən, ölkədəki mövcud durumu düzgün analiz edənlər kifayət qədər çoxdur. İqtidarın həm də bu addımla cəmiyyətə barış mesajı ünvanlanmaq niyyətində olduğu, bunun arxasında dünyaya da bəzi mesajların göndəriləcəyi barədə iddialar var.

**Ümid Partiyasının sədri İqbal Ağazadə** hakimiyyətin gerçək kadr islahatları aparacağına inanmır: "Hökumət fərq qoymadan cəmiyyətə, millətə və dövlətə xeyir verə biləcək hər bir insandan doğru-dürüst istifadə etməlidir. Əslində problemlərin həlli kadrların düzgün yerləşdirilməsi və onlardan düzgün istifadəyə bağlıdır. Hesab edirəm ki, müxalifətdə təmsil olunmasalar belə, hakimiyyətə müxalif olan elə insanlar var ki, onlara görəv verilsə, sevə-sevə millətə, dövlətə xeyir verə bilərlər. Hökumət bunları nəzərə almalıdır. Açığı hələ ki, iqtidarın müxalifətin potensialından istifadə edə biləcəyini real görmürəm. Ölkəmizin problemləri çoxdur, amma hər birindən çıxış yolu var. Azərbaycan-Ermənistan cəbhəsindəki vəziyyətdən də çıxış yolu var. Sadəcə düzgün, ardıcıl siyasət aparmaq lazımdır. Əgər bu cür ağır problemdən çıxış yolu varsa, deməli iqtisadi, sosial sahələrdən də çıxış yolları var. Sadəcə kadrları düzgün yerləşdirib, buna uyğun da siyasət aparmaq lazımdır".

**ADR hərəkatının rəhbəri, iqtisadçı ekspert Qubad İbadoğlu** bu istiqamətdə fərziyyələrə danışmağı düzgün saymır: "Hələ ki, bu istiqamətdə real iradə, istək, maraq gözə dəymir. Bu günləri Azərbaycan iqtisadiyyatının düzgün idarə edilməsi üçün ingilis dilini bilmək əsas kriteriya sayıla bilməz. Bu gün iqtisadiyyatın islah edilməsi üçün ilk növbədə, bu islahatları apara biləcək, daşıyacaq, ona rəhbərlik edə biləcək, bütövlükdə məsuliyyəti də öz üzərinə götürəcək şəxslərə ehtiyac var. Necə ki, vaxtı ilə Rusiya, Çexiya və Polşa kimi ölkələrdə bu işi görüblər. Xalqın özünün güvəndiyi, inandığı, etibarı olduğu, etimad göstərdiyi, Azərbaycan idarəçiliyində təcrübəli şəxslər bu işi görə bilərlər. Ortadan aşağı və yuxarı ranqlı kadrların dəyişməsinə ehtiyac görmürəm. Çünki Azərbaycan idarəçiliyində elə kadrlar kifayət qədər çoxdur. Problem ali idarəetmədəki idarəçilikdən doğur. Bunun üçün də kompleksli islahatlara böyük ehtiyac var. Bu da ilk növbədə, siyasi iradə tələb edir".

**"Turan" İnformasiya Agentliyinin rəhbəri Mehman Əliyev** iqtidarın müxalifətin potensialından istifadəsinin mümkünsüz olduğunu qeyd etdi: "Hakimiyyətdə oliqarxlarla bağlı problemlər hələ ki, çoxdur. Müxalifətin ora girməsi hakimiyyətin problemlərini daha da artıracaq. Bunun üçün iqtidar bunu etməyəcək. Hakimiyyət əslində bunu çoxdan etməli idi. Hesab edirəm ki, Azərbaycanda sistemli böhranın yaranması vətəndaş cəmiyyətinin sıradan çıxarılmasından irəli gəlir. Yəni cəmiyyət bu proseslərdə iştirak etməyib. Ona görə də, bu vəziyyət yaranıb, kim nə istəyibsə, onu da edib. Əgər normal münasibətlər olsaydı, ortaya mədəni mübahisələr platforması ilə düzgün qərar çıxır. O zaman hər şey ölçüb-biçilir, cəmiyyətin xeyrinə olan qərarlar verilir. Bizdə isə hakimiyyət hamını kənarlaşdırdı ki, ona nəzarət etməsin, şəxsi maraqlarını rahat həyata keçirə bilsinlər. Bunun da adını dövlətçilik qoydular. İki ildir yaşadığımız böhran davam edir. Bu istiqamətdə təkliflər verilir, lakin hakimiyyət öz işindədir. Heç bir islahat aparmayıb, normal platforma ortaya qoymayıb. Bizlər isə gözləmə mövqeyindəyik. İslahatlar qaçılmazdır, çünki islahatdan çıxış yolu üçün bundan başqa variant yoxdur. Bəziləri deyir ki, neftin qiyməti artacaq və o zaman vəziyyət düzələcək. Ola bilər ki, neftin qiyməti qalxsın. Amma nəzərə almaq lazımdır ki, bu il və 2018-ci ildə neftin istehsalının Azərbaycanda həcmi iki dəfə aşağı düşəcək. Nəticədə neftin qiyməti qalxsa da, nəyəsə təsir etməyəcək. Qazdan da heç nə qazanmırıq. Çünki 50 milyarda yaxın investisiya lazımdır ki, onu da xarici dövlətlər qoyacaqlar. Bütün bunlara görə biz nəyə ümid etməliyik?"

❑ **Cavanşir ABBASLI**

# Avropa Azərbaycanlıları Konqresinin qurultayı keçirilib

## Sahil Qasımov Avropa Azərbaycanlıları Konqresinin prezidenti, iş adamı Füzuli Məmmədov birinci vitse-prezidenti seçilib



**Fevralın 27-də Niderland Krallığının Amsterdam şəhərində Avropa Azərbaycanlıları Konqresinin (AAK) V Qurultayı keçirilib. Diasporla İş üzrə Dövlət Komitəsinin mətbuat xidmətindən APA-ya verilən məlumata görə, qurultaya Avropanın 27 ölkəsindən 91 nümayəndə qatılıb.**

Qurultayda Azərbaycan prezidentinin ictimai-siyasi məsələlər üzrə köməkçisi Əli Həsənov və Diasporla İş üzrə Dövlət Komitəsinin sədri Nazim İbrahimov da iştirak edib. Ə. Həsənov Azərbaycan prezidentinin Avropa Azərbaycanlıları Konqresinin V Qurultayının iştirakçılarına müraciətini oxuyub. Sonra Ə. Həsənov çıxış edərək AAK-ın fəaliyyəti barədə fikirlərini bildirib, qurultayın işinə uğurlar arzulayıb: "Azərbaycan dövləti xaricdə yaşayan soydaşlarımıza hər zaman dayaq olub və bundan sonra da dəstəyini əsirgəməyəcək. Eyni zamanda, xaricdəki həmvətənlərimizin yaşadıqları ölkələrdə cəmiyyətə inteqrasiya etməsi, ictimai rəyə təsir imkanlarına malik olması bizim üçün əhəmiyyətli və vacib məsələdir".

Sonra Azərbaycan prezidentinin 28 dekabr 2016-cı il tarixli sərəncamı ilə yüksək dövlət təltiflərinə və fəxri adlara layiq görülmüş AAK üzvlərinə mükafatlar təqdim olunub. Toplantının yekununda AAK-ın rəhbər orqanlarına seçkilər keçirilib, İcraiyyə Komitəsinin yeni tərkibi təsdiq olunub. S.Patzer-İsmailova Avropa Azərbaycanlıları Konqresinin fəxri prezidenti, Benilüks Azərbaycanlıları Konqresinin sədri Sahil Qasımov Avropa Azərbaycanlıları Konqresinin prezidenti, iş adamı Füzuli Məmmədov birinci vitse-prezidenti seçilib. Ukrayna Azərbaycanlıları Birləşmiş Konqresinin sədri Rövşən Tağıyev, Estoniya parlamentinin sabiq deputatı Eldar Əfəndiyev, Alman Azərbaycan Mədəniyyət Cəmiyyətinin sədri Yaşar Niftəliyev, Rusiya "OTDO" hüquq firmasının sədri Samir Məmmədov təşkilatın vitse-prezidentləri seçiliblər.

**N.İbrahimov bildirib ki, Diasporla İş üzrə Dövlət Komitəsi Avropa Azərbaycanlıları Konqresinə hər zaman olduğu kimi bundan sonra dəstək göstərəcək. Dövlət Komitəsinin sədri Avropada Azərbaycan həqiqətlərinin yerli ictimaiyyətə çatdırılması, kütləvi informasiya vasitələri ilə əlaqələrin inkişaf etdirilməsi, soydaşlarımızın yaşadıqları ölkələrin siyasi həyatında daha fəal iştirakının təmin olunması üçün AAK-ın yeni rəhbərliyinin fəal işləməli olduğunu bildirib.**

YENİ MÜSAVAT
N 46 (6660) 1 mart 2017

# Böyük sülhə aparan yolu necə açmalı? - Gündəmin sualı



# Müharibə artıq başlayıb - Qarabağla bağlı SOS xəbərdarlıqları

## Ekspertlərə görə, vəziyyət ötən ilin aprel öncəsinin eynidir; Beynəlxalq Böhran Qrupu isə güclü diplomatik səylər olmazsa, döyüşlərin qızışacağı barədə xəbərdarlıq edir; müharibəni tətikləmək kimin marağındadır?..

**Cəbhə xəttindəki 25 fevral insidentindən sonra müharibə mövzusu yenidən gündəmə gəlib. Artıq baş verən erməni təxribatı ilə bağlı BMT baş katibi Antonio Qutteres, ATƏT-in Minsk Qrupu həmsədrləri, Türkiyə, İran, bir sıra digər ölkələr bəyanat verərək, narahatlıqlarını bildirib. Lakin təcrübə göstərir ki, belə bəyanatlarla "donuzu darıdan çıxarmaq" mümkün məsələ deyil.**

Xüsusən də söhbət həmsədr dövlətlərdən, beynəlxalq təşkilatlardan gedir. Onlar həmişəki kimi, "tərəfləri danışıqlara çağırırıq" kimi növbətçi bəyanatlarla kifayətləndilər, işğalçını nəhayət, adı ilə çağırmağa yenə cürətlənmədilər. Bunsuz - yəni Ermənistanın işğalçı siyasətinə hüquqi qiymət verilməyincə isə, Qarabağ konflikti öz həllini tapmayacaq. Demək, sülh danışıqları da səmərə verməyəcək və müharibə həmişə qapını kəsdirəcək.

***

Zatən, o, onsuz da qapıdadır. Tanınmış politoloq və tarixçi alim, beynəlxalq miqyasda Azərbaycanın haqq işini müdafiə edən azsaylı rusiyalı ekspertlərindən biri Oleq Kuznetsov isə hesab edir ki, Qarabağda müharibə artıq başlayıb. Musavat.com-un məlumatına görə, bu barədə o, rusdilli Vesti.az saytındakı məqaləsində yazır: "Fevralın 24-25-də münaqişə zonasında vəziyyətin kəskinləşməsi və hər iki tərəfdən itkilərlə nəticələnməsi şübhə yox ki, rəsmi İrəvanın regionda situasiyanı pozmağa yönəlmiş aktiv səylərinin qanunauyğun nəticəsidir. Fevralın 20-də Azərbaycanın işğal altındakı ərazilərində "Arsaq" terrorçu kvazidövlətə "qanunilik" verməyə yönəlmiş üzdəniraq "referendum"un keçirilməsi 30 ildir gedən erməni-Azərbaycan müharibəsinin ən yeni tarixində özünəməxsus dönüş nöqtəsi oldu".

**Analitikə görə, bu addımla İrəvan münaqişənin dinc yolla həll ümidlərini birdəfəlik basdırmış olub:** "Çünki tamamilə aydındır ki, rəsmi Bakı "Arsaq"la bağlı heç bir danışığa getməyəcək. 20 fevraldan sonra yeni müharibə artıq reallığa çevrilmiş oldu, 24-25 fevral döyüşləri isə onun xəbərçisi sayıla bilər. Bunun ardınca zorakılıq spiralı açıla-açıla gedəcək. Mahiyyət etibarilə Qarabağdakı işğalçı rejimin hərəkətləri nəticəsində situasiya ötən ilin aprel öncəsi vəziyyətinə çevrilib. Yalnız bir fərq var ki, əgər ötən il Azərbaycan yalnız işğal altındakı əraziləri azad eləmək istəyirdisə, bu il üstəlik, qondarma və terrorçu "Arsaq" dövlətinmi məhz eləmək vəzifəsi var".

**Ekspertin fikrincə, bundan sonrakı hadisələr yalnız eskalasiyanın artması istiqamətində gedə bilər:** "Əgər Azərbaycan lap elə indidən terrorçu "Arsaq" saxta dövləti ilə İŞİD arasında bərabərlik işarəsi qoymaqla təbliğat ritorikasını gücləndirsə, - hansını ki, bu yaxınlarda mən özümün bir sıra yazı və çıxışlarımda, həm də beynəlxalq auditoriya qarşısında etmişəm, - o zaman eskalasiyanın apogeyi genişmiqyaslı müharibə olacaq və dünyanın heç bir aparıcı dövləti Dağlıq Qarabağda erməni-Azərbaycan cəbhəsində döyüş əməliyyatlarına qarışmayacaq. Əks halda, onların beynəlxalq terrorçulara münasibətdə ikiüzlü "ikili standart" siyasəti çılpaqlığı ilə aydın olacaq. Azərbaycanın işi təkcə mənəvi yox, həm də hüququ nöqteyi-nəzərdən haqq işidir. Ona görə də Ermənistanla müharibədə mən Azərbaycan silahına uğur arzu edirəm".

***

Bu arada mənzil-qərargahı Brüsseldə yerləşən Beynəlxalq Böhran Qrupu (BBQ) 2017-ci ildə dünyanı təhdid edə biləcək böhranlardan söz açan hesabatını açıqlayıb. Hesabatda dünyanın ən narahat bölgələrindən biri kimi Qarabağ münaqişəsi bölgəsindəki vəziyyətdən də bəhs edilir (Virtualaz.org). Sənəd müəllifləri ötən ilin aprel hadisələrini xatırladaraq, Dağlıq Qarabağda gərginliyin qaldığını, 2017-ci ildə bu gərginliyin artma təhlükəsinin böyük olduğunu vurğulayırlar. BBQ bildirir ki, diplomatik cəhdlər olmasa, 2017-ci ildə Qarabağda döyüşlərin qızışacaq və bundan daha çox dinc əhalinin əziyyət çəkəcək, düşmənçilik tələfatlarla nəticələnəcək, insanlar öz ev-eşiklərini tərk etməli olacaq.

Hesabatda hər iki tərəfin silahlandığını, həm Azərbaycan, həm də Ermənistanın bir-birinin ərazisini dağıda biləcək silahlara malik olduğunu qeyd edilir. "Son hadisələr hər iki tərəfin qarşıdurmaya hazır olduğunu göstərir", - deyə analitiklər xəbərdarlıq edir. Onların fikrincə, Bakı da, İrəvan da, döyüşlərə başlasalar, güclü regional təzyiqlə üzləşəcəklərini bilirlər. "Amma hər iki tərəf düşmənçiliyin öz xeyrinə olacağını düşünər. Bakı diplomatik səylərin nəticə vermədiyini görərsə, durumu dəyişməyə yenidən can ata, İrəvan aprel döyüşlərindəki uğursuzluğun başlanğıc olmadığını nümayiş etdirməyə çalışa bilər" - sənəddə vurğulanır.

BBQ ekspertlərinə görə, Qarabağ probleminin yeganə həll yolu güzəştli danışıqlardır. "Lakin hər iki tərəfdə müharibə ritorikasının üstünlük təşkil etməsi, ən başlıcası isə, hər iki ölkədə bir-biri ilə əlaqəsi olmayan nəsillərin yetişməsi, yeni xalqlar arasında ünsiyyətin olmaması sülhün əsas əngəlləridir" - müəlliflər qeyd edir.

Hesabatda habelə Minsk Qrupu həmsədrlərinin münaqişənin nizamlanması prosesində xeyli zəifliyi bildirilir. BBQ Minsk Qrupunda "sükanı" Moskvanın ələ aldığını, 2016-cı ilin aprel döyüşlərindən sonra atəşkəsə Rusiyanın nail olduğunu xatırladır və digər həmsədrlərin Kremlin liderliyinə qarşı çıxmadıqlarını, özlərinin isə problemə biganə yanaşdıqlarını qeyd edir. "Yeni ABŞ administrasiyası Qarabağ məsələsi ilə hələ ki maraqlanmayıb. Fransanın da başı prezident seçkilərinə qarışıb. AB-nin təsiri isə güclü olsa da, məhduddur" - təşkilat bildirir. "Amma Moskvanın da Bakı və İrəvan üzərində nüfuzunun həddi var. Digər tərəfdən, Qarabağ probleminin tam həllinin Moskvanın maraqlarına uyğun olub-olmaması sual altındadır" - qurum hesabatında bildirir.

***

**Beləcə, beynəlxalq səviyyəli ekspertlər də Dağlıq Qarabağ ətrafındakı situasiyanın partlayış xarakterli olması haqda SOS siqnalları verməkdədirlər. Məntiqlə heç bir dövlətin marağında olmayan böyük müharibədən qaçmağın tək yol isə böyük sülhə aparan yolu bir an öncə açmaqdır. Bu isə müstəsna olaraq, işğalçının 1 nömrəli strateji müttəfiqi Rusiyadan asılıdır.**

❑ **Analitik xidmət**

---

# Azərbaycan üçün Qarabağı azad etmək şansı yaranıb

## İşğalçı ölkənin prezidenti növbəti dəfə rəsmi Bakını hərbi əməliyyatlara sövq edən mövqe sərgilədi; **Zahid Oruc:** "Son durum hücumqabağı sakitliyə bənzəyir..."

**Ermənistan son hərəkətləri ilə Qarabağ məsələsinin danışıqlar yolu ilə həllinə tərəfdar olmadığını, müharibə yolu seçdiyini bir daha təsdiqləmiş oldu. Bir sıra ekspertlər böyük müharibənin başlayacağı təqdirdə Rusiyanın Ermənistana hərbi dəstək verə biləcəyini vurğulayır. Ancaq rəsmi Bakı hər dəfə bəyan edir ki, o, özünün beynəlxalq miqyasda tanınmış sərhədləri daxilində hərbi əməliyyatlar keçirməyi qarşısına məqsəd qoya bilər və döyüşlərin Ermənistan sərhədləri daxilinə keçməsi istisnadır.**

**Professor İlham Rəhimov** "Yeni Müsavat"a son müsahibələrinin birində maraqlı fikirlər söyləmişdi. "Aprel döyüşləri zamanı Rusiyanın Ermənistan tərəfdə vuruşmaması Azərbaycandakı "Moskva qoymaz" xofunu darmadağın etdi. Bu, aprel döyüşlərinin ən ciddi nəticələrindən biri hesab edilə bilər", - deyə İ.Rəhimov bildirmişdi. Tanınmış hüquqşünas onu da demişdi ki, işğal faktının davam edəcəyi və dünya birliyinin konfliktin həllinə yönəlmiş səyləri ciddi nəticə verməyəcəyi təqdirdə Azərbaycan əraziləri azad etmək hüququnu özündə saxlayır.

"S.Sərkisyanın ölkə daxilindəki dayaqlarının zəiflədiyi, Azərbaycanın isə hərbi arsenalını gücləndirdiyi bir vaxtda geniş hərbi əməliyyatların başlamasını bəzi müşahidəçilər ölkəmizin şansı hesab edirlər. Ermənistan hərbi birləşmələrinin təxribat hücumundan sonra Dağlıq Qarabağda yaranmış hərbi gərginlik isə erməniləri ciddi şəkildə narahat edir "(Hurriyyet.org). Ermənistanın keçmiş müdafiə naziri Vaqarşak Artünyan bildirib ki, ermənilər müharibə vəziyyətində olduqlarını dərk etməlidirlər: "Biz müharibəyə hazırlaşmalıyıq, əks təqdirdə itkilərimiz və ümumiyyətlə, ölkə olaraq itirdiklərimiz böyük olacaq".



Zahid Oruc

**Deputat Zahid Oruc** Azərbaycanın hərbi əməliyyatlara başlaması haqda təkliflərə belə reaksiya verdi: "Əvvəlcə cəbhə xəttində yaranmış son vəziyyətin dəqiq hərbi-siyasi təyinatını verməyə çalışsaq, deməliyik ki, müharibə şəraiti səngərlərə toplanmış hərbi texnika və sursatın düşmənə qarşı hərəkətə keçirilməsindən daha çox, hədəfi dəqiq və az itkilərlə məhv etmək deməkdir. Son dərəcə yaxın təmas xətti və müasir nəzarət sistemləri şəraitində belə məqsədi həyata keçirmək olduqca çətindir. Qurulan diversiya planları, kəşfiyyat və pusqu əməliyyatları 2-ci Dünya müharibəsindən daha fərqli bir döyüş şəraitini ortaya qoyur. Burada məsafədən idarə olunan texnologiyalar təsadüfi itikləri aradan qaldırır və hər bir ordu birləşməsindən fərqli yanaşmalar, taktiki davranışlar tələb edir. Son itkilərimiz göstərdi ki, səngərlə müqayisədə cəmiyyətimizin ötən ildən bəri davam edən ruh yüksəkliyini qoruyub saxlamaq hər gün döyüş təhlükəsi qarşısında dayanan qüvvələrimizin mənəvi-psixoloji dayanıqlığından az əhəmiyyət kəsb etmir".

**Z.Oruc qeyd etdi ki, Birinci Qarabağ müharibəsindəki məhrumiyyətlər, məğlubiyyət silsilələri və onu illər ərzində təhtəlşüurumuzun alt qatına yerləşdirməyimiz səbəbindən cəmiyyət səngərdən gələn hər bir itki xəbərini təkcə ağrı və üzüntü ilə deyil, həm də düşmənin güclülüyü haqda yanlış qənaətlə qarşılamalı deyil:** "Onsuz da hər gün müharibədir və söhbət daimi atışmalardan getmir. Savaşın gətirdiyi gərginlik həyat tərzimizə, yaşayışımıza təsir edir və o üzdən bir millət olaraq daha yüksək direniş, toparlanma gücünə malik olmağı bacarmaq lazımdır. Əslində Qarabağdakı son vəziyyət beynəlxalq şəraitə və danışıqlar prosesinin iflasa uğramasına tamamilə adekvatdır. Sülh limiti tükəndiyindən, vasitəçilər heç bir alternativ təklif edə bilmədiyindən və Azərbaycan hərbi balansı öz xeyrinə dəyişdiyindən ötən ilin aprelindəki uğuru davam etdirməyə çalışır. Hər halda son durum hücumqabağı sakitliyi bənzəyir. Düşmən boşluq axtarır və nazik nöqtələrdən zərbə yetirmək üçün fürsət güdür. Qətiyyən buna yol vermək olmaz! Azərbaycan zabitlərini üzüqoylu torpağa yuvarlayan və həmin kadrları ordusunu, cəmiyyətin qalxınması səhnəsinə çevirən düşmənin generalını mütləq atəşin hədəfinə vermək lazımdır. İtkilərdə balans pozulanda vəziyyət nəzarətdən çıxa bilər".

**Bu arada Ermənistan prezidenti Serj Sərkisyan isə fevralın 27-si Brüsseldə Avropa İttifaqı Şurasının prezidenti Donald Tuskla görüşündən sonrakı brifinqdə bir daha məkrli niyyətini sərgiləyib. Novator.az-ın məlumatına görə, Sərkisyan deyib**: "Ermənistan güzəştlərə hər nə qədər hazır olsa da, əsas məsələ Dağlıq Qarabağ xalqının öz gələcəyini azad iradə əsasında müəyyən etmək haqqıdır. Başqa yanaşma ola bilməz. Dağlıq Qarabağ xalqının öz müqəddəratını təyin etmək haqqı yalnız beynəlxalq hüququn əsas müəyyənedici sənədləri ilə bəyan olunmayıb, vasitəçilərin - ATƏT-in Minsk qrupunun həmsədrlərinin çoxsaylı bəyanatlarında da əks edilərək tanınıb".

**1989-cu ildən Dağlıq Qarabağ separatçılarının komandanı, 1993-cü ildən isə Ermənistanın müdafiə naziri olan S.Sərkisyanın bu mövqeyi sülh danışıqlarının mənasız olduğunu təsdiqləyir və Azərbaycanı savaş yolunu seçməyə vadar edir.**

❑ **E.PAŞASOY**

YENİ MÜSAVAT
N 46 (6660) 1 mart 2017

# Kürd bayrağı qalmaqalı...

## Məsud Bərzaninin Türkiyədə müstəqil dövlətin başçısı kimi qarşılanması narazılıq yaradıb

**Şimali İraqdakı Kürd Muxtariyyətinin lideri Məsud Bərzaninin 27 fevralda Türkiyəyə səfəri zamanı təmtəraqlı qarşılanma törəni qardaş ölkəni bir-birinə vurub. Müxalifət partiyaları Məsud Bərzaninin qarşılanma mərasiminin, Türkiyə prezidenti və baş naziri ilə keçirilən görüşlərin müstəqil bir dövlətin başçısının rəsmi səfəri zamanı tətbiq olunan protokol qaydaları kimi həyata keçirildiyini bəyan edib.**

Onlar hakimiyyətdən izahat istəyib. M.Bərzaninin qarşılanması zamanı müstəqil dövlət kimi tanınmayan Şimali İraq Kürd Muxtariyyətinin bayrağının hava limanında Türkiyənin dövlət bayrağı ilə yanaşı qaldırılması, prezident Rəcəb Tayyib Ərdoğanla və baş nazir Binəli Yıldırımla Bərzaninin görüşündə də eyni halın təkrarlanmasını Türkiyə müxalifəti Kürdüstanın müstəqilliyinin tanınması anlamına gəldiyini bildirərək hakimiyyətdən bunun da izahatını tələb edir.

*Bəs doğrudanmı qeyd olunanlar Şimali İraq Kürd Muxtariyyətinin müstəqil dövlət kimi tanınması anlamı daşıyırmı? Rəsmi Ankaranın Bərzaniyə bu qədər yüksək jesti nə üçündür və dorudurmu?*

**Politoloq Qabil Hüseynli** bildirdi ki, həqiqətən də Məsud Bərzaninin səfərinə tətbiq edilən protokol qaydası müstəqil dövlət başçısının səfərində tətbiq olunan protokol qaydalarına uyğun şəkildə həyata keçirilib. Bu isə bir neçə məqama görə doğru deyildi: "Əvvəla, İraqın ərazi bütövlüyü və ya onun federallaşması istiqamətində hələ ki, heç bir addım atılmayıb və dünya vahid İraq dövlətini tanıyır. O cümlədən Türkiyənin özü də dəfələrlə İraqın ərazi bütövlüyünü tanıdığını bəyan edib. Amma bu qarşılanma mərasimi və keçirilən rəsmi görüş mərasimləri, xüsusilə də Kürdüstan bayraqlarının hava limanında və Türkiyə rəsmiləri ilə keçirilən görüşlərdə Türkiyə Cümhuriyyətinin bayrağı ilə yanaşı qaldırılması tamamilə mövcud status-kvonu, mövcud siyasi vəziyyəti ehtiva etmir. Çünki İraq öz əraziləri üzərində təkcə Şimali İraqdakı Kürdüstan muxtariyyətindən başqa digər ərazilərdə də tam suverenliyini demək olar ki, bərpa edib. BMT də İraqın mövcud sərhədlər daxilində suverenliyini qəbul edib və müdafiə etməkdədir. Eləcə də bütün dünya dövlətləri İraqın mövcud sərhədləri daxilindəki suverenliyini qəbul edirlər. İndi Türkiyənin bu addımı sözün həqiqi mənasında heyrət doğuran bir addımdır. Yəni muxtar respublika xarici əlaqələrini yalnız mərkəzi hakimiyyətlə, yəni indiki situasiyada rəsmi Bağdadla razılaşdıraraq həyata keçirməlidir. Onun rəhbərliyinin xarici ölkələrə səfəri də Bağdadın verdiyi diplomatik pasportlarla həyata keçirilməlidir. Məsələn, mən əminəm ki, şimali İraqdakı Kürd Muxtariyyətinin diplomatik pasportu yoxdur, Məsud Bərzani Türkiyəyə böyük ehtimalla Türkiyənin diplomatik pasportu ilə gəlib. İndi isə Ərdoğanın belə bir addım atmasını yozmaq xeyli çətindir".



**Politoloq vurğuladı ki, İraq tərəfi bu davranışa çox ciddi reaksiya verəcək və İraq-Türkiyə münasibətlərində yeni bir gərginlik dönəmi yaşanacaq:** "Türkiyəyə bu lazımdırmı? Mən söyləyərdim ki, Türkiyəyə bu lazım deyil və hətta Türkiyənin özünün suverenliyi üçün ciddi problemlər yaradan bir addımdır. Bərzani İraqın Şimalındakı Kürd Muxtariyyətini tamamilə müstəqilləşdirməyə çalışır və tez-tez də rəsmi Bağdadı müstəqillik referendumu keçirməklə təhdid edir. Amma bunların heç biri baş verməyib. Bu baş verməyibsə indidən bu məsələni baş vermiş məsələ kimi təqdim etməyə çalışmaq siyasi etiketlərin heç bir qaydalarına uyğun gəlmir. Siyasətdə daimi qaydalar olmadığı kimi bu məsələdə də Türkiyə müəyyən məsələlərə güzəştlə yanaşmağa məcburdur. Amma böyük bir müsəlman dövlətinin içərisində ayrılıqçı qüvvələrə dövlət kimi yanaşmaq səviyyəsində dəstək vermək çox pis bir presedentin başlanğıcını qoymaq deməkdir və gələcəkdə bumeranq effekti verib Türkiyənin özünə də qayıda bilər. Bu məsələləri çox dərinləşdirmək istəmirəm, amma onu bilirəm ki, baş verənlər həm çətin başa düşülür, həm də yanlış olduğunu da söyləmək mümkündür".

**Q.Hüseynli qeyd etdi ki, bayraq dövlət müstəqilliyinin ən başlıca atributlarından biridir. Özü də bu bayrağın hava limanında qarşılanma mərasimində müstəqil bir dövlətin bayrağı ilə yanaşı taxılması həmin bayrağın statusunu daha qaldırır. Ərdoğanın və Bərzaninin birlikdə mətbuat konfransı keçirməsi, görüşlərə tətbiq edilən protokol qaydaları Bərzaninin hazırkı statusuna uyğun gələn protokol qaydaları deyil**: "Tətbiq edilən protokol qaydaları dövlət himninin olmamasını çıxsaq müstəqil bir dövlətin başçısının başqa bir müstəqil dövlətə rəsmi səfərində tətbiq edilən protokol qaydaları ilə eynidir.

Bəziləri iddia edir ki, Türkiyə rəhbərliyi Şimali İraq Kürd Muxtariyyəti ilə PKK-nın birliyini əngəlləmək, münasibətlərində parçalanma yaratmaq üçün Bərzani ilə bu qədər sıcaq münasibət qurur. Məncə bu düzgün yanaşma deyil. PKK PKK-lığında, kürdlər də öz iddialarında həmişə qalacaqlar. Bu gün Türkiyənin addımları daha çox Məsud Bərzaniyə sərf edir və Bərzani Muxtariyyətin müstəqilliyinin tanıdılması istiqamətində addımlar atır. Bayrağının Türkiyənin bayrağı ilə yanaşı qoyulmasını bu istəyinin gerçəkləşməsi istiqamətində əldə edilmiş uğur sayır. Bərzaninin sabah Türkiyə ilə münasibətlərdə necə davranacağı məlum deyil. Bu nöqteyi-nəzərdən hesab edirəm ki, Türkiyə iqtidarının apardığı bu siyasətin kürdləri parçalayacağı, kürdlərin mübarizəsinə təsir edəcəyi barədə deyilənlər doğru və uzaqgörən yanaşma deyil".

❑ **Etibar SEYİDAĞA**

# Suriyada "Fırat Kalkanı" dilemması

## Türkiyə ordusu ya Menbicdə kürdlərlə savaşmalı, ya da Raqqaya gedərək kürdlərlə birlikdə İŞİD-ə qarşı döyüşməli olacaq

**Suriya ordu qüvvələri "Fırat Kalkanı" əməliyyat qüvvələrinin irəliləyişinin qarşısını alıb. Hələb istiqamətindən irəliləyən Suriya ordusu əl-Bab qəsəbəsinin cənub hissəsini ələ keçirib və bu zaman faktiki olaraq Türkiyə ordusunun ölkənin içərilərinə doğru yolunu kəsib.**




Rusiyanın "Sputnik" agentliyinin məlumatına görə, əl-Bab qəsəbəsi yaxınlığında Tadef adlı kəndin kənddə Suriya ordusu ilə "Fırat Kalkanı" əməliyyatında Türkiyə ordusunun dəstək qüvvəsi hesab olunan "Azad Suriya Ordusu" qruplaşması arasında toqquşma baş verib. Qarşıdurma daha sonra Rusiyanın işə qarışmasından sonra dayandırılıb. Toqquşmada Türkiyə ordusu hərbçiləri olmayıb, yalnız ASO qüvvələrinin cənuba doğru irəliləməsi ilə iki qüvvə arasında atışma başlayıb. Lakin rusların müdaxiləsindən sonra tərəflər atəşi dayandırıblar. Daha əvvəl əl-Bab yaxınlığında da ASO və Suriya Ordusu arasında toqquşma baş vermişdi.

Hazırda faktiki olaraq əl-Babın cənubunda ərazini tamamilə nəzarətə götürən Suriya ordusu Menbic şəhərinə yaxınlaşıb. Hazırda Türkiyə ordusu və Suriya ordusu Menbicə doğru eyni məsafədə yerləşir. Menbicə doğru irəliləyən Suriya ordusu bir neçə kəndi İŞİD-dən geri alıb. Bununla da Suriya Ordusu ilə kürdlər, daha doğru Suriya Demokratik Qüvvələri arasında faktiki olaraq sərhədlər götürülüb.

Bir sıra ekspertlərə görə, Suriya ordusunun kürd qüvvələri ilə öz arasındakı bölgəni İŞİD-dən təmizləyərək faktiki olaraq SDQ ilə qonşu olması rusların planıdır. Bununla Türkiyə ordusunun faktiki olaraq cənuba doğru yolu kəsilir. İndi yeganə yol Menbicə doğru irəliləmək və burada SDQ ilə toqquşmanın olmasıdır. Bu isə amerikalıların maraqlarına ziddir və bu toqquşma hər şeydən çox Vaşinqtonun Suriyanın şimalındakı siyasətinə ziddir. Çünki Vaşinqton Menbicə yetişməyə deyil, Türkiyə ordusunun Raqqaya doğru irəliləməsi və burada SDQ ilə birlikdə İŞİD-in paytaxtını ələ keçirmə əməliyyatına qatılmasına çalışır. Suriya ordusunun əl-Babın cənubunu ələ keçirməsi faktiki olaraq Türkiyə ordusunun yolunu kəsir və onu seçim qarşısında qoyur. Bu vəziyyətin yaranmasında müəyyən mənada xarici işlər naziri Mövlud Çavuşoğlunun Suriyanın bütün ərazisini azad etməklə bağlı açıqlamasının da rolu var. Çünki Türkiyənin cənuba doğru gedib daha çox Suriya ərazilərini tutması Dəməşqlə yanaşı, Rusiyanın da maraqlarına cavab vermir.

Suriya ordusunun son hərəkəti faktiki olaraq Türkiyənin Suriyanın içərilərinə doğru irəliləməsinin qarşısını kəsmək mahiyyəti daşıyır. Türkiyənin bu vəziyyətdə irəliləməsi üçün yeganə yolu ordunun kürdlərin nəzarətindəki kantonlara hücum etməsi olacaq ki, bu da Vaşinqtonu narahat edir. Üstəlik Türkiyə ordusunun indi Raqqa əməliyyatına qoşulması üçün Suriya ordusunun nəzarəti altındakı bölgədən keçməsi lazım olacaq. Bu isə müəyyən mənada proseslərin Suriya hökuməti və Rusiyanın nəzarəti altına düşməsi anlamına gəlir.

**Beləliklə, ruslar faktiki olaraq Türkiyə ordusunun Suriyanın içərilərinə doğru irəliləməsinin qarşısını alır. Türkiyə ordusu ya Menbicə - kürdlərlə savaşa, ya da Rusiyanın icazəsi ilə Raqqaya ABŞ-ın komandanlığı altında kürdlərlə birlikdə İŞİD-ə qarşı döyüşməli olacaq.**

❑ **KƏNAN**

# Ərdoğan "Hürriyət"ə sərt təpki

**Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğan Pakistan səfəri öncəsi İstanbul Atatürk hava limanında jurnalistlərə açıqlama verib.**



Rəcəb Tayyib Ərdoğan

Avropa.info xəbər verir ki, Türkiyə Ordusunun Baş Qərərgah rəisi Hulusi Akarla birgə keçirdiyi mətbuat konfransında Ərdoğan "Hürriyət" qəzetinin orduda hicab qadağasının götürülməsi əleyhinə yazdığı "Qərərgah narahatdır" yazısına sərt münasibət bildirib.

"Baş qərargah başçımızla dünən keçirdiyimiz görüş Əl Bab əməliyyatının başa çatdırması ilə bağlıydı. Türkiyə-ABŞ-Rusiya arasındakı danışıqları müzakirə etdik. Əl Bab əməliyyatı tamamlanıb, amma bu prosesin bitməsi anlamında deyil. Bizim hədəfimiz Cerablus, Dabık, Əl Bab və sonra da k Mənbiç, Rakkadır. Artıq həm masada olacağıq, həm də ərazidə.

**Digər bir məsələ də qəzetdə ön səhifədə yazılmış bir yazıdır. Bunlar bizləri narahat etdiyi kimi, TSK-nı da narahat edir. Bizim narahat olduğumuz məsələdən TSK -nin da narahat olmaması olmazdı. Biz bir bədənin üzvü kimiyik. Burada edilən tərbiyəsizlik, səviyyəsizlikdir. Dövləti, hökuməti bir-birinə düşmən kimi təqdim etməyə heç kəsin haqqı və səlahiyyəti yoxdur. Bunlar köhnə vərdişlərdir. Artıq geridə qaldı. Hər kəs yerini və mövqeyini biləcək" deyə Ərdoğan bildirib.**

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az



YENİ MÜSAVAT
N 46 (6660) 1 mart 2017

**Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi**

**Fevralin 24-dən 25-nə keçən gecə Ermənistanın işğal altındakı ərzilərdəki hərbi bölmələrinin Azərbaycan ordusuna qarşı həyata keçirdiyi xain hücumunun arxasında hansı niyyətlərin olması barədə fərqli təxminlər irəli sürülür. Bir qisim ekspertlər hesab edir ki, apreldə keçiriləcək parlament seçkiləri ərəfəsində Ermənistan hakimiyyətinə Qarabağda qələbələr hava və su kimi lazım olduğu üçün bu cür təxribatlara əl atılıb. Ancaq əksini söyləyənlər də var.**





# Cəbhədəki son təxribatda "Rusiya izi" - Kreml Qərbə üz tutan Sərkisyanı cəzalandırır?

## Rusiya prezidentinin yaxın adamının sözlərinə görə, İrəvan "aprel müharibəsi"ndə azad olunmuş əraziləri qaytarmağa çalışır; azərbaycanlı ekspertlər isə fərqli düşünür: "Sərkisyan Rusiyanın köpəyidir, amma sadiq köpəyi deyil..."

Bir sıra müşahidəçilərin fikrincə, əslində cəbhədə növbəti gərginliyə şərait yaradıb Azərbaycanın güclü, müasir silahlarla təchiz olunmuş ordusunun sarsıdıcı zərbələri nəticəsində yeni itkilər vermək Serj Sərkisyan iqtidarının prezident seçkilərinə ən azı bir il tez vida etməsi ilə nəticələnə bilər. Ona görə də hesab olunur ki, təmas xəttində status-kvonu saxlamaq Sərkisyan hakimiyyəti üçün sərfəlidir. Bəs, təmas xəttində gərginliyi kim körükləyir, sualına cavaba olaraq bəzi ekspertlər şimal qonşumuzu nişan verirlər. Xüsusilə də Rusiya XİN başçısı Sergey Lavrovun "Dağlıq Qarabağ Azərbaycanın daxili işi deyil" açıqlamasından sonra Qarabağ ermənilərinin "referendum" keçirməsi, davamlı olaraq təmas xəttiboyunca təxribatlara əl atmasının arxasında Kremlin iradəsinin yer aldığı güman edilir.

Yeri gəlmişkən, S.Lavrovun sözügedən bəyanatından bir müddət sonra Azərbaycanın dövlət başçısı keçirilən tədbirlərin birində açıq şəkildə bəyan etdi ki, Dağlıq Qarabağ Azərbaycanın daxili işidir və Bakı heç vaxt Azərbaycan ərazisində ikinci erməni dövlətinin yaradılmasına imkan verməyəcək. Hesab olunur ki, Bakının prinsipial mövqeyi Moskvanı heç də razı sala bilməzdi və Azərbaycana qarşı təxribatların arxasında "rus barmağı"nın olması mümkündür.

Digər versiyalar da var. Fevral döyüşlərindən əvvəl Azərbaycan prezidenti Brüsselə uğurlu səfər etdi və bu səfərdə Avropanın aparıcı qurumlarının rəhbərləri ilə Bakı-Avropa İttifaqı əməkdaşlıqları, qaz anlaşmaları mövzusunda uğurlu müzakirələr apardı. Münhen səfərində də əməkdaşlığın yeni imkanlarından bəhs olundu. Təbii ki, Azərbaycanda təsirini artırmağa çalışan Kreml bu əməkdaşlığı məmnunluqla qarşılaya bilməz.

Daha sonra xəbər yayıldı ki, Ermənistan prezidentinin də Avropa səfəri nəzərdə tutulub və NATO, həmçinin Avropa İttifaqı rəsmiləri ilə görüşlər planlaşdırılır. Bu günlərdə həmin səfər reallaşdı. Heç şübhə yoxdur ki, Moskva Ermənistanın Qərbə yönəlik reveranslarını da cavabsız buraxmaq istəməzdi. Bu mənada gümanlara görə, Rusiya təmas xəttində ciddi gərginliyə səbəb olmaqla hər iki tərəfi "cəzalandırmaq" istəyir. Xatırladaq ki, aprel döyüşləri ərəfəsində də Azərbaycan və Ermənistan prezidentlərinin ABŞ-dakı Nüvə təhlükəsizliyi sammitində iştirak etmişdilər, döyüşlər də tədbirin son günü başladı.

**"Atlas" Araşdırmalar Mərkəzinin rəhbəri Elxan Şahinoğlu** bildirdi ki, Azərbaycan və Ermənistan rəhbərliyinin Avropa səfərləri ilə baş verənlər qarasında elə bir əlaqə görmür: "Bakı və İrəvan keçən il Avropa İttifaqı ilə assosiativ saziş imzalamadılar. Buna baxmayaraq, atəşkəs keçən il də intensiv pozulurdu". **Ekspertə görə, Rusiya Qarabağda savaşda maraqlı deyil**: "Çünki Moskvada bilirlər ki, uzunmüddətli savaş nəticəsində Azərbaycanın öz torpaqlarını geri qaytarması imkanları var. Bu isə Kremlin maraqlarına cavab vermir. Kreml İrəvan kimi status-kvonun davam etdirilməsini istəyir. Belə vəziyyətdə Kreml həm Ermənistana, həm də Azərbaycana təzyiq etmək imkanını qoruyur. Digər tərəfdən, Dağlıq Qarabağda başlayacaq savaşın Şimali Qafqaza inikas olunması təhlükəsi var ki, Rusiya bundan ehtiyat etməyə bilməz. Dağlıq Qarabağda uzunmüddətli müharibə Azərbaycan ətrafında dəstək bloku formalaşacaq. Bu qrupda Türkiyə, Pakistan, ərəb dünyasının bir hissəsi və Şimali Qafqazdakı xalqlar yer alacaqlar. Bu qrup Rusiyanın işğalçı Ermənistana verdiyi dəstəyə qarşı çıxacaq. Ona görə də Rusiyanın Ermənistan vasitəsilə Azərbaycanı təkləməsi mümkün deyil. İndi 1990-cı illər deyil ki, Rusiya Ermənistan vasitəsilə torpaqlarımızı işğal etsin".

**Politoloq Elçin Mirzəbəyli** isə hesab edir ki, bu barədə birmənalı fikir söyləmək çətindir: "Amma Rusiyanın son dövrlərdə sərgilədiyi aqressiv davranışları nəzərə alsaq, belə bir ehtimalı da istisna etmək olmaz. Digər tərəfdən, cəbhə xəttində baş verən təxribatı Sərkisyanın NATO-nun tədbirinə qatılması ilə əlaqələndirmək doğru olmazdı. Sərkisyan nə qədər NATO-nun tədbirinə qatilir-qatılsın, Ermənistanın Rusiyanın forpostu olduğu reallığı dəyişməyəcək. İndiki halda nə Sərkisyan, nə də NATO bu reallığı dəyişmək iqtidarında deyil. Sərkisyanın Rusiyaya qarşı çıxa biləcəyini düşünmək belə mümkün deyil. Xüsusilə də seçki ərəfəsində. Sərkisyan Rusiyanın köpəyidir, amma təbii ki, sadiq köpəyi deyil. Onun Rusiyaya arxa çevirməsi yalnız o halda baş verə bilər ki, Rusiya çox ciddi və həm də qarşısıalınmaz parçalanma təhlükəsi ilə üz-üzə qalsın. İndiki durumu prezidentlərin ABŞ görüşü ərəfəsində mövcud olan vəziyyətlə əlaqələndirmək də zənnimcə, doğru olmazdı. Rusiyanın Ermənistanı cəzalandırması üçün elə bir səbəb də yoxdur. İşğalçı ölkə onsuz da Rusiyanın təsir dairəsindən çıxmaq istəmir və belə bir istəyin olduğunu da düşünmürəm".

"Qarabağdakı vəziyyətin gərginləşdirilməsinə görə məsuliyyət İrəvana aiddir". Bunu isə Km.ru saytına müsahibəsində Rusiya prezidentinin səlahiyyətli nümayəndəsi, **İctimai Palatanın üzvü, politoloq Sergey Markov** deyib (Axar.az). O, İrəvandakı hakim rejimin Qarabağda vəziyyəti gərginləşdirməklə erməni ictimaiyyətini öz tərəfinə çəkməyə çalışdığını bildirib: "Biz hazırda hər şeyi dəqiq bilmirik, amma Ermənistan hərbi nümayəndələrinin bəyanatlarına əsasən, gərginliyi böyük ehtimalla onların özləri başladıblar. Xatırladım ki, keçən ilin aprelində vəziyyət əksinə idi. O zaman Ermənistan bir neçə yüksəklik və bir kənd itirdi. İrəvan böyük ehtimalla itirdiklərini geri almaq qərarına gəlib. Birinci hədəf keçmiş illərdə yaradılmış, amma 2016-cı il aprelindən sonra konfiqurasiyasında dəyişikliklər edilmiş müdafiə xəttinin bərpasıdır".

**S.Markovun fikrincə, burada ikinci məqsəd son zamanlar populyarlığını itirmiş Ermənistan prezidentinin mövqelərinin gücləndirilməsidir:** "Digər tərəfdən, müharibə Ermənistana əvvəllər tərəflərə təklif edilmiş məşhur diplomatik formulların İrəvan tərəfindən həyata keçirilməməsi ilə bağlı beynəlxalq tənqidlərə cavab verməyə imkan yaradır. Bu sənədlərə görə, Ermənistan Azərbaycana Dağlıq Qarabağ ətrafındakı əraziləri verir, Azərbaycan isə öz növbəsində bu ərazilərdə demilitarizasiya aparır. Aydındır ki, müharibə faktı İrəvana imkan verir ki, "biz necə mübadilə edə bilərik, axı burada müharibə gedir" sözlərini desin. Ermənistan bununla danışıqlarda öz mövqeyini sərtləşdirmək üçün əsas əldə edir. Başqa bir məqam da var. Uzun müddət ərzində Ermənistan ordusunun Azərbaycan ordusundan güclü olduğu hesab edilirdi, amma Aprel döyüşləri göstərdi ki, bu, belə deyil. Məncə, hazırkı gərginliyin əsas səbəblərindən biri də erməni ordusunun döyüş ruhunun qaldırılması və erməni xalqının öz ordusuna inamının bərpa edilməsidir".

**Rusiyanın prosesləri tətiklədiyi barədə iddialara da toxunan Markov Moskvanın Qarabağ konfliktində bitərəf olduğunu söyləyib:** "Moskvanın bu konfliktdə mövqeyi hər kəs üçün sülhdür. Aprel müharibəsi Vladimir Putinin hər iki ölkənin prezidentinə zəng etməsindən sonra bitdi. Burada əsas məqam odur ki, müharibəni bitirməyən tərəf Rusiyadan heç bir dəstək almayacaq. Bu, Moskvanın təsir rıçaqıdır. Rusiya hələlik fasilə götürüb və bir az gözləyir. Bütün informasiyaları toplayıb, hazırkı gərginliyin incəliklərini tam müəyyən edəndən sonra hərəkətə keçəcək".

**Markov Ermənistanın hücuma keçməsinin 4 səbəbini və əsas planını açıqlayıb. Onun sözlərinə görə, İrəvan "aprel müharibəsi"ndə azad olunmuş əraziləri qaytarmağa çalışır:** "Birinci hədəf müdafiə xəttinin birliyini gücləndirmək, ikinci hədəf isə Ermənistan prezidentinin son zamanlar düşən nüfuzunu artırmaqdır. Sarkisyan "kiçik qalibiyyətlə" buna nail olmaq istəyir. Bundan başqa, müharibə İrəvana münaqişə tərəflərinə təklif edilmiş həll düsturundan yayınmağa imkan verir".

Kremlə yaxın politoloq 25 fevral hücumunun daha bir səbəbinin olduğunu vurğulayıb. "Uzun müddət Ermənistan ordusunun Azərbaycan ordusundan güclü olduğu haqda danışılırdı. Lakin "aprel müharibəsi" bunun belə olmadığını göstərdi. Hesab edirəm ki, erməni ordusunun döyüş ruhunun qaldırılması, erməni xalqında orduya inamın artırılması bu hücumun əsas səbəblərindən biridir", - deyə o bildirib.

"Ermənilərin məqsədi təmas xəttinə beynəlxalq müşahidəçiləri yerləşdirmək, monitorinqlər təşkil etməkdir. Bununla istəyirlər ki, özlərini arxayın hiss edərək torpaqlarımızdan geri çəkilməsinlər". Bu fikirlər isə Milli Məclisin deputatı Rasim Musabəyova məxsusdur. Onun sözlərinə görə, Azərbaycan həmin təklifi qəbul etməyib. "Çünki şərtimiz ondan ibarətdir ki, erməni qoşunları işğal edilmiş ərazilərimizi tərk etməlidir. Yalnız belə olan halda bölgəyə müşahidəçi gələ bilər. Eyni zamanda ermənilərin cəbhədə təxribatlar törətməsi Ermənistanda keçiriləcək parlament seçkiləri ilə bağlıdır. Sərkisyan hakimiyyəti xalqa iqtisadi baxımdan hansısa müsbət nəticələr təqdim edə bilmir. Nəzərə alınsa ki, aprel döyüşlərindən də ermənilər məğlub çıxıb, ona görə indi çalışırlar ki, hansısa üstünlük qazansınlar. Amma bu hədəflərinə nail ola bilməyəcəklər" - deyə, R.Musabəyov qeyd edib.

YENİ MÜSAVAT
N 46 (6660) 1 mart 2017

# Milli mətbuatın arxiv fondu yaradılır

## Nazir: “Arxivə nüsxə verməyən mətbuat orqanları bağlanılacaq”

**Fevralın 28-də Milli Kitabxanada kitabxanaların pulsuz məcburi nüsxələrlə təchizatı ilə bağlı respublika müşavirəsi keçirilib. “Yeni Müsavat”ın məlumatına görə, tədbirdə nəşriyyat və poliqrafiya müəssisələrinin nümayəndələri, jurnal və qəzet redaktorları, ziyalılar iştirak edib.**

Müşavirədə **Mədəniyyət və turizm naziri Əbülfəs Qarayev** çıxış edib. Nazir çıxışında milli mətbuatın arxiv fondunun yaradılmasının zəruri olduğunu bildirib: “Kitabxana işi haqqında” və “Nəşriyyat işi haqqında” qanunlara əsasən, Milli Kitabxananın ölkə ərazisində nəşr olunan kitablardan 4 nüsxə, qəzet və jurnallardan isə 2 pulsuz məcburi nüsxə almalı və onların əsasında milli mətbuatın arxiv fondu yaradılmalıdır".

**Nazir qeyd edib ki, nüsxələrini vaxtlı-vaxtında Milli Arxiv Fonduna verməyən mətbuat orqanları bağlanılacaq. Həmçinin bildirib ki, bütün mətbuat orqanlarının çap buraxılış sisteminə ciddi nəzarət olunması üçün xüsusi komissiya yaradılıb**: “Son vaxtlar dünya mətbu məkanı xeyir dəyişib. Biz indi görürük ki, mətbuat artıq canlı formasından çıxaraq bəzən elektron formasında fəaliyyət göstərir. Sözsüz ki, bu açıq məkandır. Lakin bu gün kitabxanalara müraciət edəndə ki, filan vaxtı hansısa jurnal və ya qəzetdə hansısa məqaləni çıxıb, guya internetdə nə vaxtsa olub onu tapmaq lazımdır, lakin nə həmin mətbuatı, nə jurnalı, nədə onu çapa hazırlayan insanı, onların izlərini tapa bilmirik. Vaxtı ilə birgünlük mətbuatlar, birdəfəlik buraxılan jurnallar var idi. Bəzən onları dırnaqarası jurnalistlər hansısa məqsədləri üçün istifadə edir, kimlərəsə hədə-qorxu gəlirdilər. Biz indi o dövrü keçmişik. Lakin indi qanunlar işləyir və hər bir sahədə o qanunun aliliyini tətbiq etmək bizim borcumuzdur. Beləliklə, nazirlik bu işlərin gücləndirilməsi məqsədi ilə əmr imzalayıb. Əmrə əsasən xüsusi komissiya təşkil olunub. Komissiyanın ixtiyarı var və borcudur ki, bütün mətbuat orqanlarının buraxılış sisteminə daxil olsunlar, onlara nəzarət etsinlər və nüsxələrin vaxtlı- vaxtında Milli Arxiv Fonduna verilməsi üçün müvafiq inzibati işlər görsünlər. Buna təəccüblənmək lazım deyil, bu təbiidir. Bizim məqsədimiz odur ki, Azərbaycan mətbuatında zərrə qədər də olsa məqalə çıxırsa onun tarixini saxlayıb, gələcək nəsillərə təqdim edək. Bu hər bir mətbuat orqanının rəhbərinin marağında olmalıdır. Əgər tariximizi saxlamaq istəyiriksə, məcburi nüsxələr kitabxanalara verilməlidir. Bu, öz tarixinə hörmət edən cəmiyyətin vəzifəsidir. Biz bu işi daha sərt şəkildə edəcəyik, cərimələr tətbiq olunacaq. Fiziki şəxslər üçün 200 manat, hüquqi şəxslər üçün 700 manat cərimə nəzərdə tutulub. Əgər 2-3 dəfə belə bir faktlar müəyyən olsa həmin mətbuat orqanının bağlanılması barədə işlər aparılacaq”.







**Mətbuat Şurasının sədri Əflatun Amaşov** da çıxış edib. MŞ sədri bunları qeyd edib: “Biz çalışmalıyıq ki, Azərbaycan ərazisində çıxan bütün qəzetlər ümumiyyətlə problem olmadan arxivdə formalaşsın. Biz öz yaratdığımızın qalmasın istəyiriksə onları birmənalı olaraq kitabxanalara verməliyik. Beləliklə, o nüsxələr daha keyfiyyətlə qorunub saxlanılacaq”.

Azərbaycan Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun icraçı direktoru Vüqar Səfərli də çıxış edərək bildirib ki, milli mətbuatın arxiv fondunun yaradılmasına dəstək vermək borcumuzdur: “Buna çətinlik yaradan məsələlərdən biri ölkədə mətbu orqanlarının çox olmasıdır. Sovet dövründə barmaq sayılı qədər mətbuat var idi və nüsxələr məcburi olaraq kitabxanaya göndərilirdi. Lakin sonradan mətbəələrin sayının çoxaldığı üçün bu proses ləngidildi. Bildiyimiz kimi, bu gün qəzetlərin əksəriyyəti özəl mətbəələrdə çap olunur və onların nüsxələri kitabxanalara göndərilməlidir. Ancaq bu məcburi edilməlidir. Qəzet rəhbərləri gərəkdir ki, 10 nüsxə kitabxanalar üçün versin. Onsuz da bu gün qəzetlərin satış vəziyyəti o qədər də yaxşı deyil. Qəzetlərin arxivdə saxlanılması həm qəzet üçün həm də Milli Arxiv üçün əhəmiyyətlidir. Axtarsaq bu gün qəzetlərin əksəriyyətin arxivi yoxdur”.

Tədbirdə digər çıxışçılar da qeyd edib ki, Milli Kitabxanada Azərbaycan mətbuatının və nəşr məhsullarının arxiv fondunun yaradılması işinin nizama salınması zəruridir və Milli Arxiv Fondunda mühafizə olunan nəşrlərin gələcək nəsillərə çatdırılması üçün Milli Kitabxananın yeganə məkandır.

❑ **Xalidə GƏRAY**

**Fotolar müəllifindir**

# Şeyxin missiyası - QMİ sədri yeni problemlə üz-üzə

## Qurum və onun rəhbərliyi dövlət və din arasındakı uçurumun götürülməsində vasitəçi ola biləcəkmi?

**Ölkədə dini vəziyyət gərginləşir. Məsələ ondadır ki, indi sakitlik olsa da, dindarlar küçələrə çıxıb aksiyalar keçirəmsə də, din-dövlət münasibətləri ya bilərəkdən, ya da bilmədən qızışdırılır və hər keçən gün narazılıq artır. Kütləvi olmasa da, həbslər davam edir, həbsxanada onlarla dindar və dini təhsilli ruhani var.**

**Həm Günəşli məscidi mübahisələrinin yenidən ortaya atılması, həm Masallıda din xadiminin namaz qıldırdığı üçün həbs olunması, həm də son olaraq Beyləqanda orta məktəb müəlliminin başörtüyü olduğu üçün məktəbdən qovulması, bir tərəfdən narazılıq və narahatlığın göstəricisidirsə, digər tərəfdən dövlətin din siyasəti ilə bağlıdır.** Məsələ ondadır ki, Azərbaycan hakimiyyəti 2014-cü ildən başlayaraq ölkədə dini situasiyanı tam nəzarət altına almaq xətti götürüb, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) səlahiyyətləri artırılıb, dövlət orqanına dini maarifçilik səlahiyyətləri verilib - baxmayaraq ki, Konstitusiyaya əsasən dövlət dindən ayrıdır, dini maarifçiliyi dövlət deyil, dini qurumlar aparmalıdır. Bundan başqa, prezident yanında millətlərarası, multikulturalizm və dini məsələlər üzrə dövlət müşavirliyi yaradılıb və bu quruma da dini maarifçilik səlahiyyətləri verilib.

**Ancaq bütün bu fəaliyyətlərin fonunda dini qadağaların, həbslərin də sayı artıb, narazılıqlar qabarıq hiss olunmağa başlayıb.** Görünən odur ki, dövlətin dini fəaliyyətləri və icmaları, yəni dini sferanı öz əlində tutması planı mümkün olmayıb. Əslində bu, daha əvvəldən mümkün deyildi, çünki istənilən halda dindarların rəsmi dini təbliğata qarşı münasibəti mənfi olur. Heç bir müsəlman ölkəsində dövlətin nəzarətində olan dini qurum və ya din xadimləri cəmiyyət üzərində birmənalı söz sahibi ola bilmir. Çünki insanlar rəsmi təbliğatın sözünü deyil, müstəqil din xadimlərinin sözünü dinləmək istəyir. Belə bir vəziyyətdə bir çıxış yolu var: Qafqaz Müsəlmanları İdarəsi (QMİ).



**Məsələ ondadır ki, hər nə qədər dövlətə yaxın, onun siyasi koordinasiyası altında olsa da, QMİ dövlət qurumu deyil, bəlli bir tarixi və ənənələri olan dini qurumdur.** Məhz bu strukturuna görə, qurum dövlət və dindarlar arasında çox mühüm körpü rolunu oynaya bilər. Dövlətin dini situasiyanı tam olaraq nəzarətə götürmək cəhdi paralel olaraq narazılığı, etirazı dərinləşdirir.

**Ancaq məsələ ondadır ki, QMİ rəhbərliyi əlində olan səlahiyyətlərə, imkanlara rəğmən, hərəkət edib üzərinə düşən.** etməli olduğu missiyanı yerinə yetirə bilmir. Bunu isə bir neçə amillə izah etmək olar. Birincisi, dövlətin içərisində Şeyxin ciddi müxalifəti var (bu barədə daha əvvəl də yazmışıq) və bu səbəbdən həmin müxaliflər Şeyxin dini camiədə güclü rolu oynamasına mane olmaq üçün onu sıxışdırır, QMİ-nin dini proseslərdə aktiv rol almasına müxtəlif şəkillərdə, gizli və aşkar maneçilik törədirlər. Şeyx isə başını daha çox bəlaya salmaq, rəqiblərinin hücumlarına məruz qalamamaq üçün sakit dayanmaq üçün ona biçilən rolla kifayətlənir.

**İkinci variant budur ki, Şeyx daha çox iş görə bilmir.** Həm QMİ-dəki mövcud kadr potensialı, daşlaşmış ənənəvi molla mühiti dövrün şərtləri ilə ayaqlaşa bilmir. Bu səbəbdən də qurumu hərəkətə gətirib hansısa aktivliyə nail olmaq mümkün olmur. İdarəyə yeni kadrların cəlb olunması, fəal iş mexanizminin qurulması istiqamətində hansısa addımlar atılmır və nəticədə QMİ faktiki olaraq proseslərin arxasınca sürünür.

**Bu məsələ ilə bağlı ən aktual suallardan biri də QMİ-nin bir dini qurum olaraq mövcud şərtlərə cavab verib-verə bilməməsi ilə bağlıdır.** Xatırladaq ki, Zaqafqaziya Müsəlmanlarının Dini idarəsinin yaradılması məsələsi nisbətə yeni hadisədir. İşğaldan sonra Qafqazı bütövlükdə işğal edən Çar Rusiyası buradakı müsəlman dini fəaliyyətlərini təşkil etmək, yerli müsəlmanların ənənəvi müsəlman dini mərkəzləri ilə əlaqələrini qoparmaq üçün uyğun model tapılması üçün uzun illər çalışmalar aparıb. 1823-cü ildə Zaqafqaziya Müsəlmanları Ruhani İdarəsi və şeyxülislam vəzifəsi təsis olunur, 1872-ci ildə bu Çar ikinci Aleksandrın imzaladığı fərman əsasən sünni və şiə dini idarələri yaradılır. 1944-cü il mayın 25 - 28-də Zaqafqaziya Müsəlmanlarının birinci Qurultayı ilə bugünkü QMİ-nin əsası qoyulub. İdarə ənənəvi sünni və şiə icmalarını birləşdirib, Şeyxülislam şiə məzhəbinin, onun birinci müavini müfti isə sünni məzhəbinin ruhani rəhbəri hesab olunur. Hər nə qədər iradlara məruz qalsa da, həm məzhəblərin bir arada olması, həm də vahid mərkəz olaraq qurulması və şura prinsipləri əsasında fəaliyyət göstərməsi QMİ-nin imkanlarını genişləndirir. QMİ-nin Qazilər Şurası və Elmi-Dini Şura adlı iki əsas fətva orqanı var. Bu orqanları daha da aktivləşdiririb, cəmiyyətdəki nüfuzlu və savadlı din xadimlərini bura daxil etməklə ölkə müsəlmanlarının dini-mənəvi məsələləri ilə bağlı müvafiq fətva və qərarlar vermək olar. Bununla da faktiki olaraq dini fəaliyyət üzərində xarici ölkə təsirlərini azaltmaq, yerli dindarları QMİ mərkəzli yerli din xadimlərinə bağlılığını möhkəmləndirmək olar.

**Təbii ki, bunu etmək üçün ilk növbədə dövlətin bu istiqamətdə ən azından maneçiliyi olmamalı, eləcə də Şeyxülislamın qətiyyətli mövqeyi, aktiv fəaliyyəti olmalıdır. Əks təqdirdə din sahəsində problemlər qalacaq.**

❑ **Kənan RÖVŞƏNOĞLU**

YENİ MÜSAVAT
N 46 (6660) 1 mart 2017

# Nyu Yorkda doğma "Azərbaycan" restoranı - qutab, dolma, aş...

## "Azərbaycan Evi" və "Azərbaycan" restoranının sahibəsi Münəvvər Vahabova əməkdaşımıza nələr danışdı?

**Nyu Yorku az-çox tanıyandan sonra bu gözəl şəhərdə özünə yuva qurmuş, məskən salmış azərbaycanlılardan da danışaq. Məlum, son illər Azərbaycandan sürətlə başlanan mühacir dalğası əsasən Avropa ölkələrini əhatə edib. 2015-ci ildə bununla bağlı həyata keçirdiyimiz "Avropadakı mühacirlər" layihəsi sözügedən mənzərəni, reallıqları göz önünə sərmişdi. Amma Amerikadakı azərbaycanlılar... yeni və tam fərqli kateqoriyadır. Buna orada yaşayan hər bir həmyerlimizlə söhbətdən sonra bir daha əmin oluruq. Təzyiq, təqib səbəbindən yox, sırf daha yaxşı yaşamaq üçün "Amerikanı yenidən kəşf edənlər"dir onlar. Gəldikləri gündən dişləri-dırnaqları ilə çalışan, yeni həyat qurmaq üçün hər şeyi sıfırdan başlamağa hazır olan cəsur həmyerlilərimizdən danışırıq.**




Və heç biri də söhbət zamanı süni bəhanələrdən, yalançı təzyiq ssenarilərindən mədət ummur. Açıq-açıq "Mən daha yaxşı yaşamaq istəyirdim", deyirlər və hekayələrini danışmağa başlayırlar.

Bu barədə növbəti yazılarımızda. Hələliksə...

Nyu York, Con F.Kennedi aeroportunda təyyarədən enən kimi, bir az ürkək şəkildə ətrafa göz gəzdirəndə min ilin tanışı kimi yaxınlaşan, çoxdandır görmədiyi qohumuna qovuşur kimi məni qucaqlayan ilk Nyu Yorklu azərbaycanlı barədə yazıram. Münəvvər Vahabova adı Azərbaycan oxucularına tanışdır. Azərbaycanla bağlı Nyu Yorkda keçirilən tədbirlərin əsas təşkilatçısı, Nyu York Azərbaycan Evi və Nyu York Azərbaycan Qadınlar Cəmiyyətinin sədri zaman-zaman medianın xəbərlər lentində görünür. Dediyim kimi, Nyu Yorkun mərkəzində, əlamətdar günlərdə, ermənilərə qarşı keçirilən aksiyalarda, anım tədbirlərində hər zaman ön plandadır. Üstəlik, unudulmaz "Azərbaycan" restoranının sahibəsi kimi də burda yaşayan həmyerlilərimiz onu yaxşı tanıyırlar.

Düşünün, Nyu Yorkun çoxmillətli bölgəsi sayılan Bruklinin mərkəzi küçələrindən birində, üzərində "Azərbaycan" yazılmış böyük bir restoran... İçəridə milli musiqi və mətbəxdən gələn milli yeməklərin qoxusu. Qutab, dolma, aş... Müsahibə boyunca sanki Bakıdan ayrılmamış kimi hiss etdim özümü. Münəvvər xanım deyir ki, elə onun məqsədi də budur - Nyu Yorkda yaşayan azərbaycanlılar vətən özləmini, həsrətini az da olsa burda xəfiflətsinlər. Əylənmək istəyəndə də bura gəlsinlər, ortaq dərdlərimiz olanda da ürəklərini burda boşaltsınlar. Söhbətimiz də elə bu mövzularda olur. "Azərbaycan Evi"nin yaranması, burda keçirilən tədbirlər, bir azərbaycanlının Amerika macərası...

Mən 10 ildi Amerikadayam. Gələn gündən belə bir ocağımız olsun istəmişəm. "Azərbaycan Evi"ni 2014-cü ilin oktyabrında yaratdıq. O, həm Azərbaycanı tanıtmaq, həm də maddi problemləri həll etmək üçün restoran kimi fəaliyyət göstərir. Amma bunun restoran kimi fəaliyyət göstərməsi ikinci dərəcəlidir. Bu məkan Azərbaycanın, onun mətbəxinin tanınması üçün böyük işlər görür, onu xaricilərə tanıdır. Azərbaycan xalqı çox qonaqpərvərdir. Xalqımızın mətbəxi, musiqisi, tarixi çox zəngindir. Biz bunları tanıtmaq istəyirik.

Burda - Bruklində təkcə amerikanlar yox, bir çox millətlərin nümayəndələri yaşayır. Restoranın üzərinə böyük hərflərlə "Azərbaycan" sözünü yazmamız da bu səbəbdəndir - vətənimizin adını görsünlər, tanısınlar. Bu, bizim üçün fəxarətdir. Başqa ştatlardan qonaq gələnlər bu lövhəni görən kimi mütləq ayaq saxlayır, tanış olur və yeməklərimizdən dadırlar. Bilirsiz ki, Azərbaycandan yeni gələn insanlar olur. Onların adaptasiya olunmasında, ilk anlarında, günlərində yardım etmək də bizim üzərimizə düşür. Bizdən bunu heç kim tələb etmir. Amma çalışırıq ki, bizdən yardım istəyən şəxslərin əlindən tutaq.

***- Nyu Yorkda azərbaycanlılar çoxdur?***

- Mən burdakı azərbaycanlıları tanıyıram. Düzdür, diqqət kənarında qalanlarla yaxından tanışlığım yoxdur. Amma əksər həmvətənlərimiz çalışırlar ki, gəlsinlər, bizimlə tanış olsunlar. Axır zamanlar gələnlərin sayı bir az çoxalıb.

***- Nə ilə bağlıdır bu artım?***

- Bəlkə yolların açılması, artıq gəlmənin asan olması, insanların dost-tanışların burda olduğu halda xəbərləşib gəlmələri də səbəb ola bilər.

***- Bəs azərbaycanlıların Amerikaya uyğunlaşma prosesi necə gedir? Siz cəmiyyətin sədri olaraq bu durumu hər kəsdən daha yaxşı bilirsiz çox güman ki. Fərqli cəmiyyət, fərqli dünya... Nədə əziyyət çəkir azərbaycanlılar?***

- Təbii, tam fərqli. Bura gəldiyi ilk günlərdə insana elə gəlir ki, təzə doğulub. Ölçü vahidləri, dərəcə vahidləri başqa, çəki vahidi başqa... İnsan hər şeyə sıfırdan başlayır. Həm siyasi, həm iqtisadi, həm təhsil sahəsində ciddi fərqlər var. Məsələn, mən ixtisasca müəlliməyəm. Burda da həmin sahə üzrə fəaliyyətimi davam etdirirəm. Eyni zamanda öz sahəm üzrə təhsil alıram. Uşaqlarım da burda "high school"da oxuyurlar. Ona görə demək istəyirəm ki, burda təhsil almaq çətindir.

***- Münəvvər xanım, Avropaya gedən azərbaycanlı mövzusu artıq cəmiyyət üçün aydındır. Sosial müavinət, nisbətən rahat yaşama istəyi, təzyiqlərdən qurtuluş. Yaşamını davam etdirmək üçün Amerikanı seçən azərbaycanlı isə yeni kateqoriyadır...***

- Azərbaycanlıların Amerikanı seçməsinin ilkin səbəbi çox güman ki, maddi səbəbdir. Burda işləmək, pul qazanmaq, ailələrinə pul göndərmək imkanları artır. Amma ilk növbədə dil problemi var. Nyu York çox bahalı şəhərdir və burada yaşamağı bacarmaq lazımdır. Belə bir deyim var ki, Nyu Yorkda yaşamağı bacaran adam dünyanın hər yerində yaşaya bilər. Bunun üçün fədakar olmaq, işləməkdən qorxmamaq, irəli getməyi sevmək lazımdır.

***- Yerli əhalinin gəlmələrə münasibət necədir? Onları rahatlıqla qəbul edirlər, ya kənarlaşdırma, diskriminasiya cəhdləri hiss olunur?***

- Xeyr, diskriminasiya barədə söhbət gedə bilməz. Hər kəs savadına, xarakterinə görə özünə yer tuta bilir. Demokratik ölkədir. Hər şeyi əldə etmək mümkündür.

***- Bir azərbaycanlının Amerikada yaşayıb, baş çıxara bilməsi üçün nələr vacibdir? Nə qədər qazanmalıdır ki, bu problemlərin öhdəsindən gələ bilsin?***

- Ağlı başında olan, işləməyi sevən adam burda yaşaya bilir. Burda evsiz, küçədə yaşayan amerikanlar da var. Hansı ki, həm ingilis dilini bilir, həm sənədləri var. Amma gələn miqrantlar da işləməyi sevirlər. Burda işləməyi sevən adam ac qalmaz heç vaxt. Bizdə dil problemi çoxdur. Amerikaya gəlməyi planlaşdıranlar ilk növbədə ilk hazırlıqlarını görsünlər - dil bilgiləri olsun. Bəzən elə adamlar gəlirlər ki, nə ingilis, nə rus dilini bilirlər. Bizim yaşadığımız bölgədə hətta rus dili ilə də keçinmək olar.

***- Trampın gəlişindən sonra müsəlman ölkələrindən gələn insanlara qoyulan qadağa mövzusu aktualdır. Azərbaycan bu yasaq ölkələrin siyahısında olmasa da, narahatlıq gündəmdədir. Tramp Amerikadakı azərbaycanlılara nə vəd edir?***

- Mənim fikrimcə, azərbaycanlılara heç bir təsiri olmayacaq. Heç 7 ölkəyə qoyulan qadağanın da davamı gəlməyəcək. Qoyulan qadağa get-gedə zəifləyir. Mənə elə gəlir ki, bu təsir zamanla azalacaq. Amerikada indi rəngınə, irqinə görə insanlara qiymət verilmir. Müsəlman ölkələrindən gələn insanların hamısı isə terrorist deyil. Gec-tez bunu anlayacaqlar.

***- Amerikada yaşamaq istəyən azərbaycanlılar hansı mərhələləri keçməlidir?***

- Green Kart deyilən lotereyanı udmaq lazımdır. Bu, mümkündür. Mən sizin qarşınızda canlı nümunəyəm. 10 il bundan öncə Green Kartı qazanıb ailəmlə gəlmişəm. Tələbə statusu, işçi status, investor statusu ilə gələnlər də var. Ya da evlənmək yolu ilə bu, mümkündür. Yaxşısı budu, Amerikada yaşamaq istəyən insanlar Green Karta müraciət edib, şanslarını yoxlasınlar. İnvestor vizası ilə gələnlər isə müəyyən investisiya qoyduqdan sonra hətta Green Kart da qazana bilirlər.

***- Siz bura köçəndə uşaqlarınız kiçik yaşlı idilər. Onların bura adaptasiyası necə keçdi? İndi Azərbaycan cəmiyyəti, mentaliteti ilə bağlı nə dərəcədə məlumatlıdılar?***

- Bir oğlum, bir qızım var. Oğlumun 22, qızımın 14 yaşı var. Amma 10 il bundan öncə bura gələndə oğlum Anarın 13 yaşı var idi, qızımınsa 5. Evdə nənə tərbiyəsi görmüş bir uşaq idi. Anar necə azərbaycanlı idi, elə də qaldı. Çünki formalaşıb gəlmişdi. Amma qızım Nərmin 90 faiz amerikanlaşıb, uzaqlaşıb bir qədər. Düzdü, evdə azərbaycanca danışırıq. Mentalitetimizi itirməyəcəyik. Çalışacağıq ki, Azərbaycan mentalitetini dəyişməsin.

***- Bruklində "Azərbaycan" adlı restoran... amerikanlara nə deyir?***

- Birinci növbədə "Azərbaycan harada yerləşir" sualı yaranır. Azərbaycan sözünün mənasını soruşurlar. Biz də çalışırıq ki, onları tam məlumatlandıraq. Bizim burdakı azərbaycanlılara deyirəm ki, sizin hər bir hərəkətiniz Azərbaycan barədə təsəvvür yaradır. Çalışın elə yaşayın ki, "azərbaycanlıyam" deyəndə qürur duyasız. Bura bütün xalqların nümayəndələri gəlir. Sırf azərbaycanlıların məkanıdır desək, yanlış olar.

*M.Vahabovanın həyat yoldaşı, "Azərbaycan Evi"nin həmtəsisçisi Mirhüseyn Vahabov isə arxa planda qalmağı tərcih edir. Necə deyərlər, o, daha çox "arxa cəbhədə" vuruşur. Deyir ki, xanımının burda Azərbaycan adına gördüyü işlərlə fəxr edir və bu məsələdə ona tam dəstəyi var.*

- Bu işin əsas təsisçisi Münəvvər xanımdır. Bu evi təşkil etmək, o yükün altına girib, bu ocağı qorumaq hər adamın işi deyil. Azərbaycandan gələn hər bir şəxs üçün qapımız açıqdır. Bəzən görürsüz zəng edirlər ki, Azərbaycan gəlmişik, filan yerdəyik, bizə kömək edin. Qarşılayırıq, kömək edirik. İlk vaxt üçün də düşündük ki, niyə Nyu Yorkda Azərbaycan Evi, ocağı olmasın? Niyə Azərbaycandan gələn hər bir adam aeroportda qalmalıdır? Dəfələrlə olub ki, aeroportdan taksi ilə, qucağında uşağı, əlində çamadanı ilə həmyerlilərimiz məhz bizim ocağa gəliblər. İlk dayanacaqları bura olub. Onlar deyəndə ki, biz bura gələndə özümüzü doğma məkanda hiss edirik, bu, insana doğrudan da ləzzət edir.

Amma elə sizin müsahibə vasitəsilə də deyirəm ki, vətəndən bura gələn azərbaycanlılar üçün qapımız hər zaman açıqdır. Həftənin 7 günü açıq oluruq. Onların işlə təmin olunmasına, yerləşdirilməsinə yardım edirik. Çalışırıq ki, burda özlərini yad yerdə hiss etməsinlər.






## "Amerikaya gəldiyi ilk gün adamda elə təəssürat yaranır ki, yenidən doğulub"

**❑ Sevinc TELMANQIZI**
**Nyu York (Brunklin)**

# Avtobuslardan "sallanan" ölüm-günümüzün problemi

## Sürücülər qapılarından sallanana qədər sərnişin götürməklə insanların həyatını təhlükə altında qoyur, rəsmi orqanlar isə...

**Bakıda sərnişin avtobuslarının fəaliyyəti ilə bağlı narazılıq həmişə olub. Hər kəsə məlumdur ki, marşrut avtobusları bir çox hallarda sürətlə sürməklə ya da qapılarından sallanana qədər sərnişin götürməklə insanların həyatını təhlükə altında qoyur.**



Bu hal daha çox kartsız, birbaşa ödəniş sistemi ilə işləyən avtobuslarda müşahidə edilir. Buna isə səbəb sürücülərin onlara qoyulan günlük plandan əlavə də qazanc əldə etmək istəyidir. Bir çox ölkələrdə avtobusların hamısı kart sistemi ilə işləyir və sürücülər aylıq maaş alırlar. Azərbaycanda da bu qayda bir sıra avtobuslara tətbiq edilsə də, bu cəmi 20 faizi təşkil edir.

Sərnişinlərin avtobusdan sallanaraq həyatlarını təhlükəyə atması kimi faktlar insanların ölümü və ya ağır xəsarət alması ilə nəticələnsə də, müsbət bir nəticə yoxdur.

Son olaraq sosial şəbəkədə "Gənclik" metrosu yaxınlığında 133 saylı avtobusun sərnişinləri qapıdan sallaşa-sallaşa daşımasının video görüntüləri yayılıb. Ən təəssüfedici məqam isə ondadır ki, bu kimi halları görən Dövlət Yol Polisi əməkdaşları buna göz yumurlar.

*Sürücülərin sərnişinlər sallaşdığı halda avtobusu niyə idarə edirlər? Bu kimi hallar qanunla hansı cəzanı nəzərdə tutur?*

Nəqliyyat məsələləri üzrə ekspert İlqar Hüseynov bildirdi ki, sürücü bu yolla daha çox pul əldə etmək istəyir: "Həmin şirkətlər ki, birbaşa sərnişindaşıma ilə məşğuldurlar onlar vaxta və dayanacaqların sayına uyğun olaraq xəttə yetərincə nəqliyyat vasitəsi buraxmırlar. Əgər gün ərzində sərnişindaşıma xidmətini təşkil etmək üçün tutaq ki, 11 nömrəli marşrut üzrə 20 avtobusa tələbat varsa, 20 avtobus yerinə 10 avtobus xəttə buraxılır. Bunun nəticəsində də həm sərnişinlərin nəqliyyat vasitəsinə minərkən sıxlığı yaranır. Bundan başqa nəqliyyatda oturacaqların sayı sərnişinlərlə yetərincə dolur və sərnişinlər ayaq üstü, qapıdan sallanaraq gedir. Bu isə birbaşa həmin faktla bağlıdır ki, xəttə yetərincə nəqliyyat vasitəsinə buraxmırlar. İkincisi həmin sürücülər vətəndaşlarla birbaşa açıq ödəniş həyata keçirirlərsə, sürücünün marağındadır ki, daha çox pul əldə etmək imkanına malik olsun. Bu nəqliyyat vasitələri planla işləyir. Onlara plan qoyulur ki, sən gün ərzində bu qədər pul ödəməlisən. Sürücü o vəsaiti çıxarıb həm planı ödəməlidir, eyni zamanda da çalışır ki, artıq sərnişin hesabına bir az da çox pul qazanmaq imkanı əldə etsin. Nəqliyyat vasitələrinin qapıları açıq şəkildə idarə edilməsi qanunla yasaqdır və buna görə həmin sürücülər və eyni zamanda həmin şirkət məsuliyyət daşıyır. Ancaq çox təəssüf ki, Azərbaycanda bu məsələlərə bu və ya digər formada müdaxilələr olur. Bəzi hallarda korrupsiya faktoru ortada var. Məhz buna görə də bu kimi faktlara göz yumulur. İstər Dövlət Yol Polisi orqanları tərəfindən, istər nəqliyyat strukturlarına nəzarət edən orqanlarla sövdələşməyə gedilir və nəticədə sürücülər istədiyi kimi davranırlar".

**Ekspert "oturacaqların sayı qədər avtobusa sərnişin götürülməlidir" deyə bir qaydanın olmadığını dedi:** "Beynəlxalq praktikada da belə qayda yoxdur. Avropa ölkələrində avtobuslarda oturacaqlardan kənar salonun tutumu qədər sərnişin götürülür. Amma hər bir avtobusların salonunda sərnişinlərin dayana bilməsi üçün xüsusi duracaqlar var. Sərnişin həmin duracaqlardan və tutacaqlardan istifadə edərək rahat şəkildə avtobuslardan istifadə edə bilir. Sadəcə olaraq normadan artıq və qapılar bağlanmasına imkan verməyəcək qədər sərnişin götürülməsi həmin nəqliyyat marşrutunda olan avtobusların çatışmazlığı və sərnişinlərin sıxlığına görə yaranır. Hamı istəyir ki, mənzil başına tez çatsın. Avtobusda sallanaraq getmək qanunda bir mənalı şəkildə yasaqdır. Əgər bu cür halı müşahidə edən kameralar, eyni zamanda ərazidə Dövlət Yol Polisinin əməkdaşları varsa və bunu görüb heç bir müdaxilə etmirlərsə, hər iki tərəf, həm onu müşahidə

edən həm də o şəkildə nəqliyyat vasitəsini idarə edən sürücü və şirkət birbaşa məsuliyyət daşıyır. Bu qanunla yasaqdır. Həm də bizim Azərbaycan vətəndaşının özündə də bu məsələyə münasibət fərqli olmalıdır. Biz artıq cəmiyyətin o inkişaf prosesinə qədəm qoyuruq ki, burada cəmiyyət özü də bu məsələlərə reaksiya versin. Vətəndaş nəzarəti olmalıdır. Əgər vətəndaş bu kimi halı müşahidə edib sürücüyə iradını bildirmirsə, burada sərnişinlərin də məsuliyyəti var. Birmənalı şəkildə həm dövlət orqanlarının, həm sərnişindaşıma şirkətlərinin, həm də vətəndaş cəmiyyətinin nəzarəti olmalıdır. Çox təəssüf ki, biz bu məsələdə çox geriyik".

❑ **Günel MANAFLI**

**ÖZƏL TİBBİ SAHƏDƏ 20 İLLİK TƏCRÜBƏ!**
**Xəstəlikdən əzab çəkən insanlara Əsasən Kişilərə!**
**Diqqət!!! Axırıncı Şans!!!**

**Azərbaycanda və yaxud xaricdə diaqnozun təsdiqi və tam müalicəsi mümkün olmayıbsa, doktor VAİZ SƏMƏDOV şəxsi tibbi metodikası ilə Sizin uğurlu və daha qarantili olaraq aşağıdakı xəstəliklərinizi müayinə və müalicə edə bilər.**

- **Diaqnozu bilinməyən ağır hallar;**
- **Xərçəngə şübhəli olan prostat düyünlü adenoması. Prostatitlər;**
- **Cinsi zəiflikdən impotensiyadək, marağın və aktların azalması;**
- **Vaxtından tez toxum ifrazatı (səbəbdən asılı olmayaraq)**
- **Toy gecəsinin uğursuzluqları (kişi tibbi problemlər)**
- **Sidikdə və spermada qan;**
- **Spermanın azalması, itməsi;**
- **Kişi cinsi orqanının birdən əyilməsi, balacalması;**
- **Oğlan uşaqlarında cinsi orqanların (penisin və xayaların) yaşa görə balaca olması;**
- **Ailədə olan hormonal və infeksion səbəbli sonsuzluq;**
- **Tala-tala və hərtərəfli saçların tökülməsi;**
- **Gecə-gündüz uşaq və böyüklərdə sidik aktların pozulmaları;**
- **Baş-boyunda, onurğa-qılçaqlarda, qollar-ayaqlarda, qasıq-xayalarda ağrılar;**
- **Psixo-nevroloji gərginlik, yuxusuzluq, qorxu, yaddaşın azalması və digər qəribə olan şikayətlər.**
- **Zöhrəvi xəstəliklərdən sonra qalıqlar və ağırlaşmalar.**

---

**D-r V.Səmədovun əsas tibbi prinsipi - keyfiyyətli və təkrarsız müalicə aparmaq üçün xəstəliyin əsl və bütün səbəblərini aşkar etmək zəruridir.**

---

*Qəbula yazılmaq və ünvanı öyrənmək üçün saat 11-dən 23-ə dək, **(050) 213-88-05** nömrəsinə, **d-r Vaiz Səmədova** zəng etmək olar.*

Qəbul növbə ilə hər gün saat 12-dən sonra başlayır.

**Elan**

**Hüseynov Tofiq Əli oğluna məxsus Aşıq Molla Cümə 7b ünvanında yerləşən qeyri-yaşayış sahəsinin kupçası (N: 1113022066) itdiyinə görə etibarsız sayılsın.**



## Masazırda sürüşmə: böyük bir ərazidə çökmə və uçqun olub

**Masazır qəsəbəsində yaşayış evlərinin yaxınlığında torpaq sürüşməsi baş verib. Ekologiya və Təbii Sərvətlər Nazirliyinin (ETSN) Milli Geoloji Kəşfiyyat Xidmətinin geoloji planlama ekspedisiyasının dəstə rəisi Rafiq Həsənov APA-ya faktı təsdiqləyərək bildirib ki, Masazır qəsəbəsində "Zəli gölü" kimi tanınan ərazidə böyük bir ərazidə qeyri-bərabər çökmə, sürüşmə və bəzi sahələrdə isə uçqun prosesi müşahidə edilib.**

Onun sözlərinə görə, sürüşmə-çökmə hadisəsinin baş verdiyi ərazi maili yamacdır, yamacın maililiyi 20-25 dərəcə təşkil edir: "Ərazidəki süxurlar yuyulmaya, həll edilməyə meyllidir. Atmosfer yağıntılarının, qrunt və kanalizasiya sularının təsirindən süxurların həll olunması nəticəsində ərazidə qeyri-bərabər çökmə-sürüşmə hadisəsi baş verib. Bəzi yerlərdə qırılma qaşının hündürlüyü 20-40 sm-ə qədər dəyişir, ayrı-ayrı lokal sahələri əhatə edir".

R.Həsənov qeyd edib ki, ərazidə mərkəzləşdirilmiş drenaj şəbəkəsi, kanalizasiya xəttinin sularının yer səthinə axıdılması müşahidə olunub.



## Martın 3-dək mülayim yaz havası olacaq

**Bakıda və Abşeron yarımadasında martın 1-də hava şəraitinin dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir. Bəzi yerlərdə duman olacaq. Şimal-qərb küləyi əsəcək, gündüz cənub küləyi ilə əvəz olunacaq.**

Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Departamentindən Lent.az-a verilən məlumata görə, havanın temperaturunun Abşeron yarımadasında gecə 1-4, gündüz 9-14, Bakıda gecə 2-4, gündüz 11-13 dərəcə isti olacağı gözlənilir.

Azərbaycanın rayonlarında isə sabah hava şəraitinin əsasən yağmursuz keçəcəyi gözlənilir. Gecə və səhər bəzi yerlərdə duman, şərq rayonlarında çiskin olacaq. Qərb küləyi əsəcək.

Havanın temperaturunun gecə 0-5, gündüz 11-16 dərəcə isti, dağlarda gecə 2 dərəcə şaxtadan 3 dərəcəyədək isti, gündüz 5-10 dərəcə isti olacağı gözlənilir.

**Tibbi-meteoroloji proqnoza gəlincə isə mart ayının 3-dək Abşeron yarımadasında mülayim yaz havası meteohəsas insanlar üçün əlverişlidir.**

YENİ MÜSAVAT
N 46 (6660) 1 mart 2017

**Bakının Xətai rayonunda, Cavanşir körpüsünün yaxınlığındakı parkın baş tərəfində bir daş lövhə var idi. Həmin lövhənin üzərində “Burada 1988-ci ilin 11 dekabr tarixində zəlzələdən zərər çəkənlərə kömək məqsədi ilə Leninakanda qəzaya uğramış "İl 76" təyyarəsində həlak olanlara abidə qoyulacaq" yazılmışdı.**

# 1988-ci ildə Ermənistan səmasında məhv edilən 77 azərbaycanlı niyə unuduldu?

## “Həlak olanlara abidə qoyulacaq” yazılmış daş lövhə yoxa çıxıb: **Elman Məmmədov:** “Həmin dövrdə şəhid olmuş insanlarımız erməni terrorunun qurbanlarıdır”

Ancaq hadisənin və lövhənin qoyulmasının üstündən az qala 30 vaxt keçsə də, 77 nəfərin xatirəsinin əbədiləşdirilməsi istiqamətində addım atılmayıb. Üstəlik, bu yaxınlarda “Azəravtoyol” ASC sözügedən ərazidə təmir-bərpa işlərini həyata keçirən zaman bir neçə il əvvəl salınmış parkı da ləğv edib və avtomobil yolunu genişləndirib. Təmir gedən zaman parkın digər hissəsində ucaldılmış Şah İsmayıl Xətainin abidəsinin taleyi müzakirə mövzusu olsa da, digər istiqamətdəki daş lövhədən bəhs edən olmadı. Bu yaxınlarda aldığımız məlumata görə, parkın ərazisinin ləğvi nəticəsində həmin lövhə də götürülüb. Əslində artıq həmin ərazidə heykəl qoymağa yer də qalmayıb. Ola bilsin rəsmi qurumlar abidənin başqa ərazidə qoyulmasına qərar veriblər. Ancaq hələ ki, bununla bağlı hər hansı açıqlama yoxdur.

Bu məsələ ilə əlaqədar Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Hacıbala Abutalıbovla danışmaq istəsək də, həmişəki kimi bu, mümkün olmadı.

Mədəniyyət və Turizm Nazirliyindən isə “Yeni Müsavat”ın sorğusuna cavab olaraq “Azəravtoyol” ASC-yə müraciət etməyi məsləhət gördülər.

**“Azəravtoyol” ASC-nin mətbuat xidmətinin rəhbəri Anar Nəcəfli** isə israrlı zənglərimizi cavablandırmadı.

Əslində belə bir abidənin qoyulması erməni vandallığının ifşası baxımından çox mühüm hadisə olardı. Bununla biz həm günahsız qurbanlarımızın ruhunu şad edər, həm də dünyaya nümayiş etdirərdik ki, ermənilər hətta Azərbaycana qarşı torpaq iddiası qaldırandan, yüz minlərlə azərbaycanlını Ermənistandakı tarixi yurdlarından qovandan, onlarla insanlarımızı qətlə yetirəndən sonra da biz insani münasibət göstərib zəlzələ fəlakətinə düçar olan qonşu ölkəyə yardım əlimizi uzatmışıq. Hələ 1988-ci ilin 22 fevralında ermənilər Ağdamdan olan 2 gənci, fevralın 25-də isə Əsgərandа daha 2 azərbaycanlını qətlə yetirmişdilər. Spitakda baş verən zəlzələdən 35-40 gün əvvəl - noyabrın 3-də məhz bu şəhərdə azərbaycanlılara qarşı kütləvi qətliamlar həyata keçirilmişdi. Spitak rayonu rəhbərliyinin bilavasitə iştirakı ilə erməni silahlı dəstələri azərbaycanlı əhalinin evlərinə basqınlar etmiş, nəticədə 40-dan çox azərbaycanlı vəhşicəsinə qətlə yetirilmiş, yüzlərlə ailə ev-eşiyindən çölə atılaraq rayonu tərk etməyə məcbur qalmışdı.

O hadisələr zamanı nə baş verdiyini bir daha xatırladaq: 12 dekabr 1988-ci ildə zəlzələdə zərərçəkmiş ermənilərə yardım göstərmək məqsədilə Azərbaycandan göndərilmiş İl-76 təyyarəsi Ermənistanın Spitak rayonunun Quqark şəhərinin yaxınlığında “Stinger” raketi ilə vuruldu. Nəticədə təyyarədə olan 77 azərbaycanlıdan cəmi 1 nəfər - Babayev Fəxrəddin təsadüf nəticəsində sağ qalır. 68 nəfər azərbaycanlı sərnişin və 9 nəfər ekipaj üzvü bu terror aktının qurbanı olur. Qəzanın səbəbləri





öyrənilmədən, heç bir ekspertiza aparılmadan təyyarənin qara qutusu məhv edilir. Bu terror aktı qəza hadisəsi kimi cəmiyyətə sırınır. Təsadüfən sağ qalmış Fəxrəddin Babayev İrəvan xəstəxanasına aparılsa da, “ermənilər arasında yaralı türkə yer yoxdu”, - deyən daşnak xislətli erməni həkimləri onu müalicə etməkdən boyun qaçırırlar.

**Deputat Elman Məmmədov** “Yeni Müsavat”a açıqlamasında bir paralellik apardı: “1988-ci il fevralın 12-də ermənilər öz niyyətlərini ilk dəfə Əsgəranda ortaya qoydular. Fevralın 13-də isə Xankəndində prosesə start verdilər. Azərbaycan Mərkəzi Komitəsinin ikinci katibi Kanovalov, Mərkəzi Komitədə işləyən rəhmətlik Məhəmməd Əsədov gəlmişdi. Görün sonra nə oldu. Fevralın axırlarında Moskva "KQB"-sinin rəhbəri Qriqoryanın rəhbərliyi ilə bir qrup erməni - təbii ki, aldadıb öz sıralarına 4-5 azərbaycanlı da qoşa bilmişdilər - Sumqayıtda ermənilərin evlərini dağıtdılar, nə qədər erməni öldürdülər. Sumqayıt hadisələri ilə bağlı çox qısa müddətdə, təxminən 10-15 gün ərzində Xankəndində Birinci Dünya Müharibəsinə həsr olunmuş xatirə kompleksi-abidə var idi, ermənilər orda ondan da böyük, Sumqayıtda ölənlərə bir abidə qoydular. Ancaq həmin hadisələrdən sonrakı dövrdə, dekabr ayında zəlzələdən zərər çəkən ermənilərə köməyə gedən insanlarımız erməni terrorunun qurbanı oldular, təyyarə ilə köməyə tələsən şəxslər erməni terrorçuları tərəfindən öldürüldülər. Deyək ki, o dövr sovetlər ittifaqı, Moskva var idi, ancaq biz 1991-ci ildən biz müstəqillik qazanmışıq. Ona görə də biz həmin insanları terror qurbanları kimi anmalıyıq, onların xatirəsini əbədiləşdirmək üçün hansısa işlər görülməlidir".

**E.Məmmədov həmin ünvanda abidə qoyulması niyyətinin olmasından xəbərsiz olduğunu da vurğuladı:** “Mən bilmirdim, sizdən öyrəndim ki, orda bir daş qoyulubmuş, onu da götürüblər. Ümumiyyətlə, mən hesab edirəm ki, həmin dövrdə şəhid olmuş insanlarımız erməni terrorunun qurbanlarıdır. Onların xatirəsinə terror qurbanlarını anmaq üçün təbii ki, dövlət tərəfindən hansısa bir abidə qoyulması vacibdir”.

❑ **E.PAŞASOY**
**Foto: “YM”**

# Dövlətin məcburi köçkünlərə jesti

## Mənzillər bundan sonra yeni qaydalarla veriləcək

**Dövlət məcburi köçkünlərlə bağlı daha bir müsbətə doğru addım atıb. Belə ki, Nazirlər Kabineti tərəfindən təsdiqlənmiş “Məcburi köçkünlərin müvəqqəti yerləşdirilməsi fondunun yaşayış sahələrinin verilməsi” Qaydasına əsasən, yaşayış sahəsi məcburi köçkünlərin ailə tərkibinə uyğun olaraq müəyyənləşdiriləcək. Yeni qaydaya əsasən, yaşayış sahəsi məcburi köçkünlərin ailə tərkibinə uyğun olaraq aşağıdakı kimi müəyyənləşdirilir: ailə tərkibi 1 nəfərdən ibarət olanlara 1 otaq, ailə tərkibi 2-3 nəfərdən ibarət olanlara 2 otaq, ailə tərkibi 4-5 nəfərdən ibarət olanlara 3 otaq, ailə tərkibi 6 nəfər və 6 nəfərdən çox olanlara isə 4 otaqlı mənzil veriləcək. Köhnə qaydada ailə tərkibi 1-2 nəfərdən ibarət olanlara 1 otaq, ailə tərkibi 3-4 nəfərdən ibarət olanlara 2 otaq, ailə tərkibi 5-6 nəfərdən ibarət olanlara 3 otaq, ailə tərkibi 7 nəfər və 7 nəfərdən çox olanlara isə 4 otaqlı mənzil verilirdi.**



Qaydalara görə, məcburi köçkün 5 gün ərzində ona ayrılmış müvəqqəti yaşayış sahəsinə köçməkdən imtina etdikdə həmin yaşayış sahəsi başqa məcburi köçkün ailəsinə veriləcək.

Məcburi köçkünlər onların müvəqqəti istifadəsinə verilmiş yaşayış sahəsinə qayğı ilə yanaşmalı, həmin evdən yalnız yaşayış məqsədi ilə istifadə etməli, layihədə nəzərdə tutulmayan heç bir tikinti işlərinə yol verməməli və ümumi birgəyaşayış qaydalarına əməl etməlidir. Məcburi köçkünlər onların müvəqqəti istifadəsinə verilmiş yaşayış sahəsindən kommersiya məqsədləri, habelə qanunvericiliklə qadağan olunan hərəkətlər və ya fəaliyyətlər məqsədilə istifadə edə bilməzlər.

Məcburi köçkün ailəsinə müvəqqəti istifadə məqsədi ilə verilmiş yaşayış sahəsi onların xüsusi mülkiyyəti olmadığından, həmin evlər qanun və ya vəsiyyətnamə üzrə miras kimi başqa şəxslərə *(vərəsələrə)*, həmçinin himayəyə və ya qəyyumluğa götürülmüş şəxsin istifadəsinə verilə bilməz.

Məcburi köçkün ailəsi müvəqqəti istifadəyə verilmiş yaşayış sahəsində faktiki yaşamırsa, yaxud mənzili başqasına verərsə, Komitənin müvafiq qurumu tərəfindən mövcud qanunvericiliyin tələblərinə uyğun olaraq ev boşaldılaraq Komitənin rəhbərliyi ilə razılaşdırılmaqla, daha çox ehtiyacı olan digər məcburi köçkün ailəsinə müvəqqəti istifadəyə verilir.

Qaydada qeyd olunur ki, müvəqqəti yaşayış sahələri aşağıdakı məcburi köçkün ailələrinə verilir:

* məcburi köçkünlərin mənzil-məişət şəraitinin yaxşılaşdırılması məqsədi ilə qəbul edilmiş Azərbaycan Respublikası Prezidentinin fərmanlarında, sərəncamlarında və dövlət proqramlarında nəzərdə tutulan obyektlərdə və eyni zamanda, köçürülməsinə daha çox ehtiyac olan digər obyektlərdə yaşayan, müvafiq yerli rayon (şəhər) icra hakimiyyətləri tərəfindən bu Qaydanın 1 nömrəli əlavəsində göstərilən formada tərtib və təsdiq edilərək Komissiyaya təqdim olunmuş siyahıya daxil edilmiş “məcburi köçkün” statusu olan şəxslərə;

* yeni salınmış yaşayış kompleksinə köçürüləndək köçürülmə obyektində daimi yaşayan və həmin yer üzrə kommunal xidmətlərdən istifadə edən məcburi köçkün ailələrinə.

Məcburi köçkünlərin müvəqqəti istifadəsinə ayrılmış yaşayış sahələri onların istifadəsinə “Xüsusi təyinatlı yaşayış sahələrinin kirayə müqaviləsinin forması”nın təsdiq edilməsi barədə Nazirlər Kabinetinin 2010-cu il 29 aprel tarixli 80 nömrəli qərarı ilə təsdiq edilmiş kirayə müqavilələri əsasında verilir.

Kirayə müqaviləsi Komitənin müvafiq qurumu ilə məcburi köçkün arasında 2 nüsxədən ibarət olmaqla yazılı formada bağlanılır və bir nüsxəsi kirayəçiyə (məcburi köçkünə) verilir. Kirayə müqaviləsində müvəqqəti istifadəçinin ailə üzvləri də göstərilməklə müqavilənin predmeti, yaşayış sahəsindən müvəqqəti istifadə üzrə tərəflərin hüquq və vəzifələri müəyyən edilir. Kirayə müqaviləsi Komitənin müvafiq qurumu tərəfindən şifahi qaydada məcburi köçkünə izah edilir.

Məcburi köçkün kirayə müqaviləsində nəzərdə tutulmuş vəzifələrini yerinə yetirmədikdə, bu Qaydaya, onunla bağlanmış kirayə müqaviləsinə və qanunvericiliklə müəyyən edilmiş digər qaydalara əsasən mülki məsuliyyət daşıyır. Kirayə müqaviləsi məcburi köçkünün ona verilmiş yaşayış sahəsində qalma müddətinə şamil edilir və məcburi köçkün yaşayış sahəsindən çıxdıqda və ya çıxarıldıqda, onunla bağlanmış kirayə müqaviləsi ləğv edilir.

Məcburi köçkün ailələrinin onların müvəqqəti istifadəsinə verilmiş yaşayış sahələrinə köçürülməsi Komitənin vəsaiti hesabına həyata keçirilir.

**Köçürülmə zamanı aşağıdakı hallarda məcburi köçkünlərə yeni yaşayış sahəsi verilmir:**

* müvəqqəti yaşayış sahəsinin verilməsi zamanı köçürülmə obyektində qeydiyyatda olub, lakin orada faktiki yaşamayan məcburi köçkünlərə;

* məcburi köçkün düşdükdən sonra mənzil qanunvericiliyinə və ya mülki hüquqi əqdlərə əsasən ayrıca yaşayış sahəsi əldə edən məcburi köçkünlərə və onların ailə üzvlərinə *(şəhid ailələri istisna olunmaqla)*;

* digər şəhər və rayonlarda müvəqqəti məskunlaşmış, lakin məskunlaşma obyektində yaşayan məcburi köçkünlərin köçürüləcəyindən istifadə edərək son 3 ildə həmin obyektdə yerləşib yaşayanlara;

* artıq yaşayış sahəsi əldə etmək niyyəti ilə köçürülmə ərəfəsində saxta nikaha girən və ya nikahı pozulan ailələrə.

* Əvvəllər həmin köçürülmə obyektində yaşamış, sonradan başqa yerdə yaşayan şəxslə nikaha daxil olmuş və boşanaraq geri qayıtmış məcburi köçkünlərə.

**Qeyd edək ki, məcburi köçkünlər üçün Bakı və Abşeron ərazisində yeni yaşayış binalarının tikilməsi planlaşdırılır.**

❑ **Etibar SEYİDAĞA**

YENİ MÜSAVAT

Son səhifə

N 46 (6660) 1 mart 2017



## Gəlincikləri övladlığa götürdülər

Britaniyanın Oksford şəhərində övlad sahibi ola bilməyən cütlük oyuncaq uşaqlara baxırlar. Bu barədə lenta.ru saytı "Metro"ya istinadən xəbər verir. Ceyn Berri deyib ki, 22 yaşından bəri ana ola bilmir. Hal-hazırda qadının 39 yaşı var və osteoporozdan əziyyət çəkir. 51 yaşlı əri ilə birlikdə 3oyuncaq alıb və onları uşağı kimi böyüdür. Uşaqlarının adı isə Emi, Eşli və Xloyadır. Nəşrin yazdığına görə, ər-arvad oyuncaqları ilə birgə səyahət edir, onları gəzməyə çıxarır və yedizdirməyə çalışır. Hətta cütlüyün maşınında uşaq kreslosu da var: "İnsanlar bizə müxtəlif cür reaksiya verirlər. Bir çoxları hesab edirlər ki, biz ümumiyyətlə ağlımızı itirmişik. Bəzən də buna görə bizə aşağılayıcı mesajlar yazırlar. Amma başqalarının şəxsi həyatına qarışmayanlar da az deyil".

Bu ilin fevral ayında isə məlum olmuşdu ki, Çinin Quyçjou əyalətinin sakini özünə intim gəlinciklərdən ailə düzəldib. O, bu gəlinciklərin geyim və aksessuarlarına 14.4 min dollar sərf edib.

# Belə hamiləlik görülmədi

İngiltərənin Cənubi Qlosterşir qraflığındakı Yet şəhərində yaşayan 41 yaşlı Amanda Ross dükana alış-veriş üçün gedərkən marketin qarşısında qəflətən onun qarnında kəskin ağrılar başlayıb. Bağırsaq və ya mədəsində küt ağrılar başladığından şübhələnən Ross ərinə zəng vurub. Onun əri, 53 yaşlı Pol Din də xanımını Bristoldakı "South Hospital"a aparıb. Müayinə zamanı bəlli olub ki, Amanda Rossun ağrılarına səbəb mədə və ya bağırsaqdakı fəsadlar yox, hamiləlikdir. 41 yaşlı Amandanın hamilə olduğu aşkarlanandan 15 saat sonra isə o, qeysəriyyə yolu ilə doğub. 80 dəqiqə davam



edən doğuş Pol və Amandaya qız bəxş edib. Valideynləri uşağa Xlo adını veriblər. "Müayinə zamanı həkimlər dedilər ki, hamiləliyin 7-ci, ya da 8-ci ayındayam. Onu da söylədilər ki, dərhal əməliyyat olunmalıyam, çünki hamiləliyim fəsadlı şəkildə başa çata bilər", - Amanda deyib. İlk nikahından iki övladı və iki nəvəsi olan Pol indi yenidən ata olmağına çox sevinir.

# Çox yaşamaq istəyirsizsə...



**Mütəxəssislərin müşahidələrinə görə, müasir insanlar onlara lazım olandan qat-qat çox kalori qəbul edir. Müasir insanlar az hərəkət edir, az fiziki iş görür və nəticədə az kalori sərf edir.**

Artıq kalorilər orqanizmə yalnız ziyan vurur - piylənməyə, metabolik pozulmalara, immun sisteminin zəifləməsinə, ürək-damar sistemi xəstəliklərinə və s. problemlərə səbəb olur.

Çoxsaylı araşdırmalar göstərib ki, müxtəlif ölkələrdə yaşayan uzunömürlülər həyatı boyu az qida qəbul edirdi.

Alimlərin son araşdırmalarına görə, qidalanmanın kalori miqdarının 30% azalması insan sağlamlığına çox müsbət təsir edir - bir çox ağır xəstəliklərin inkişafının qarşısını alır, ömrü uzadır.

Alimlər belə hesab edir ki, bu üsulla hipertoniya və şəkərli diabet kimi yayılmış və hər il milyonlarla insanın ölümünə səbəb olan xəstəlikləri müalicə etmək, xərçəng xəstəliklərinin qarşısını almaq mümkündür.

Az qida qəbul edən insanın orqanizmi yaxşı mənada stress yaşayır ki, bu zaman orqanizm qənaət rejiminə keçir və yalnız sağlam və yeni hüceyrələri "qidalandırır". Xəstə, köhnə, öz funksiyalarını normal yetirə bilməyən hüceyrələr isə qidasız qalır və tədricən ölür. Nəticədə orqanizm yenilənir, cavanlaşır, orqanizmdə daim əmələ gələn xərçəng hüceyrələri məhv olur.

Qidalanmanın azalması insanın immun sisteminə də müsbət təsir edir, onu daha fəal işləməyə vadar edir.

Bütün bunları nəzərə alaraq sağlam olmaq və çox yaşamaq üçün sadəcə daha az yemək lazımdır.




**QOÇ** - Bu gün sizə çoxsaylı fikir mübadiləsi aparmaq səmərə verəcək. Gələcək karyeranız məhz bundan asılıdır. Riskli işlərdənsə uzaq olun. Ailə-sevgi münasibətlərində inad etməyin.

**BUĞA** - Maraqlı hadisələr yolunuzu gözləyir. Ola bilsin ki, çoxdan bəri əlaqə saxlaya bilmədiyiniz adamlarla rastlaşasınız. Günün ikinci yarısında işlə bağlı riskə getmək olar.

**ƏKİZLƏR** - Həddindən ziyadə düşərli təqvimdir. Təxminən saat 12-dən 17-yə qədər rastlaşdığınız hər bir hadisə ürəyinizcə olacaq. Təzə xəbər və ya təkliflər də ala bilərsiniz. Qətiyyətli olun.

**XƏRÇƏNG** - Gün ərzində bir neçə aktiv məqam yaşayacaqsınız. Hətta şəxsi büdcənizdə irəliləyişlər də mümkündür. Axşama yaxınsa sevindirici hadisələrin, xoş ovqatın şahidi olacaqsınız.

**ŞİR** - Özünüzü gərginliyə atmayın. Səmərəsiz danışıqlarda, sıxıntılı görüşlərdə iştirak etməkdən çəkinin. Əgər maraqlı heç nə olmasa, yaxın adamlarınıza baş çəkib süfrə başında "dərdləşin".

**QIZ** - Ulduzlar müdafiənizdə durub. Bu səbəbdən də Tanrıya xoş gedən bütün işləriniz müsbət sonluqla başa çatacaq. Səmərəli təkliflər, xoş xəbərlər ovqatınızı xeyli yüksəldəcək.

**TƏRƏZİ** - Sevgidə mövcud olan soyuqluğu aradan qaldırın. İmkan verməyin ki, davranışlarınız dedi-qodu səviyyəsində formalaşsın. Təcrübəli adamlarla işbirliyi qurmaqdan çəkinməyin.

**ƏQRƏB** - "Hirsli başda ağıl olmaz"lığını yəqin ki, bilirsiniz. Xüsusən də günün birinci yarısını sakit tərzdə başa vurmağa çalışmalısınız. Axşamsa ürəkaçan hadisələrin iştirakçısına çevriləcəksiniz.

**OXATAN** - Kifayət qədər düşərli ərəfədir. Nəzərdə tutduğunuz planların əksəriyyətini reallaşdıra biləcəksiniz. Amma kiməsə yalan vəd verməyin. Qonaq getmək sizə rahatlıq gətirə bilər.

**OĞLAQ** - Martın bu ilk yarpağı sizin üçün xüsusi əhəmiyyət kəsb edəcək. Ulduzların düzümü uzaq səfərə çıxmaq planlarınızı reallaşdırmağı tövsiyə edir. Qərarlarınızda məsuliyyətli olun.

**SUTÖKƏN** - Ulduzlar əsəblərinizin sakitləşməsindən fərəh duyur. Əgər təmkininizi beləcə tənzimləsəniz, heç bir qanqaraçılıq olmayacaq. Gün ərzində maraqlı görüş və maddi irəliləyiş də gözlənilir.

**BALIQLAR** - Evdə oturmağa lüzum yoxdur. Çünki ailə üzvlərinizlə, eləcə də qonum-qonşularla mübahisə gözlənilir. Əsas diqqəti fəaliyyətə yönəldin ki, gözlənilən xoşagəlməzliklər baş verməsin.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

# Az olanda da ziyandır, çox olanda da...



**Çoxsaylı araşdırmalar göstərir ki, yuxunun az olması bir çox sağlamlıq problemlərinə səbəb olur. Kaliforniya Universiteti (ABŞ) alimləri araşdırmalar nəticəsində belə qərara gəliblər ki, yuxunun həm azlığı, həm də artıqlığı insan sağlamlığına ciddi ziyan vurur.**

Alimlərin fikirinə görə, sağlamlığını qorumaq istəyən insan gecə 7-8 saat yatmalıdır. Xüsusi analizlər göstərib ki, bundan az və ya çox yatan insanların qanında xüsusi iltihab zülalların konsentrasiyası artmış olur. Bu zülalların artıqlığı bir çox xroniki xəstəliklərin, o cümlədən hipertoniya, diabet, artrit, astma və hətta bəzi xərçəng formalarının, riskini artırır.

Alimlərin rəyinə görə, yuxu problemləri immun sisteminə mənfi təsir edir ki, bu da öz növbəsində bir sıra xəstəliklərin riskini xeyli artırır.

**Səhifəni hazırladı: SELCAN**

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Nazim SABİROĞLU

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Lisenziya N: B 114
SAYI: 5.100